RSSSMİ DÖVLSST QSSZETİ

# AZƏRBAYCAN



№ 137 (9882) 8 iyul 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QSSZETİN SSSASI 1918-Cİ İLDSS QOYULMUŞDUR

# Qüdrətli dövlət, yüksək sosial rifah



## Azərbaycanın artan iqtisadi imkanları davamlı inkişaf üçün real zəmin yaradır

Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

Xüsusilə də şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, onların ailə üzvləri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Bu kateqoriyaya aid olan insanlara mənzil və avtomobillər verilir, güzəşt və müxtəlif kompensasiyalarla təmin edilirlər.

Ölkə əhalisinin layiqli həyat səviyyəsini təmin etmək və sosial rifahını yüksəltmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir.

Bir tərəfdən düşünülmüş və ardıcıl olaraq həyata keçirilən islahatların nəticəsi, digər tərəfdən isə İlham Əliyevin cəsarətli, inamlı addımları ölkə vətəndaşlarının gələcəyinə hesablanmış qətiyyətli siyasətinin təzahürüdür.

Dövlət başçısının 2018-2025-ci illər ərzində reallaşdırdığı 5 sosial islahat paketi çərçivəsində imzaladığı sərəncam və fərmanlar, sosial sahədə qəbul olunmuş qərarlar miqyasına, əhatə dairəsinə görə inqilabi qərarlardır. Ümumilikdə 5 sosial paket 4 milyondan çox vətəndaşı əhatə edib. Prezidentin imzaladığı fərman və sərəncamlara əsasən, bu dövrdə sosial ödənişlərdə əhəmiyyətli artımlar baş verib. Belə ki, minimum əməkhaqqı 3,1 dəfə, orta aylıq əməkhaqqı 2 dəfə, minimum pensiya 3 dəfə, orta aylıq pensiya 2,6 dəfə, müavinət və təqaüdlərə ayrılan illik büdcə vəsaiti isə 5 dəfədən çox artırılıb. Bundan əlavə, Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan sosial siyasət nəticəsində 2019-cu ildən bəri sosial sahəyə ayrılan büdcə vəsaiti 2,2 dəfə artırılaraq 2025-ci ildə 16,9 milyard manata çatdırılıb. Hazırda bu xərclər ümumi büdcənin 41 faizini təşkil edir.

Bu gün əhalinin sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən biridir. Yəni sosial siyasət dövlət siyasətinin prioritetidir. Bunu dəyərləndirərkən Prezident İlham Əliyev qeyd edib ki, sosial siyasət həmişə prioritet olub və bundan sonra da olacaq. Bütün atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi insanların daha da yaxşı yaşamaları məqsədi daşıyır".

5

## Azərbaycanın və Pakistanın qanunverici orqanları arasında əməkdaşlıq genişlənir

### Prezident İlham Əliyev Pakistan Milli Assambleyası Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Pakistan Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiqin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında siyasi əlaqələrin mükəmməl səviyyədə olduğunu vurğuladı, ikitərəfli münasibətlərimizin qardaşlığa, qarşılıqlı dəstək və həmrəyliyə əsaslandığını dedi.

Prezident İlham Əliyev bir neçə gün əvvəl Xankəndidə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirakını və onunla görüşünü məmnunluqla xatırladı, həmin görüşdə ikitərəfli gündəliyimizlə bağlı bir daha geniş müzakirələrin aparıldığını bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, bu, Pakistanın Baş nazirinin işğaldan azad edilmiş torpaqlarımıza ilk səfəri deyildi. Bu xüsusda, Prezident İlham Əliyev Məhəmməd Şahbaz Şərifin bu ilin mayında Laçına səfərini və Azərbaycanın Müstəqillik Günü ilə bağlı keçirilən tədbirdə iştirakını qeyd etdi.

2

## ECO-dan Azərbaycana dəstək

### Qərbi azərbaycanlıların qayıdış hüququ Xankəndi Kommünikesində əksini tapıb



3-4 iyul tarixlərdə Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün yekunu olaraq Sədrin Xülasəsi olan Xankəndi Kommünikesi qəbul olunub.

Tarixi Zirvə görüşündə qəbul edilən Xankəndi Kommünikesində həm də Ermənistandan qovulmuş azərbaycanlıların öz doğma yurdlarına ləyaqətli qayıdış hüququnun bir daha təsdiqlənməsinin əks olunması mühüm əhəmiyyət kəsb edir.

Bununla bağlı Qərbi Azərbaycan İcmasının bəyanatında deyilir ki, sözügedən mötəbər tədbirdə Qərbi Azərbaycan məsələsinin qaldırılması soydaşlarımızın sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə doğma yurdlarına qayıdışına beynəlxalq dəstəyin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir: "Qərbi Azərbaycan İcması qayıdış məsələsini prinsipial və ardıcıl şəkildə beynəlxalq gündəliyə gətirməsinə və bu məsələyə beynəlxalq aləmin birmənalı dəstəyini təmin etməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkür edir".

Vurğulayaq ki, qərbi azərbaycanlıların qayıdış hüququnun təmin edilməsi istiqamətində bu günə qədər dövlətimiz tərəfindən vacib addımlar atılıb.

Qərbi Azərbaycan İcmasının yeni Nizamnaməsi təsdiq olunub, Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların geriyə qayıtmasının təmin edilməsi ilə bağlı Qayıdış Konsepsiyası hazırlanıb. Qayıdış Konsepsiyası indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün Qərbi Azərbaycan İcmasının həyata keçirəcəyi fəaliyyətin məqsədlərini, prinsipləri, hazırlıq və icra tədbirləri üçün yol xəritəsini müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

Qərbi Azərbaycana qayıdış istiqaməti üzrə qeyri-hökumət təşkilatları (QHT) da fəallıq nümayiş etdirirlər. Hesabat dövründə Azərbaycan QHT-ləri beynəlxalq kürsülərdə - BMT-nin, ATƏT-in müxtəlif toplantılarında, xarici ölkələrdə bu mövzuda məsələlər qaldırıb, ictimai diskussiyalar açıb, yan tədbirlər təşkil etməyə nail olublar. Ümumilikdə bu tədbirlər ABŞ, Belçika, İspaniya, Rumıniya, Polşa, Türkiyə, Özbəkistan, Qazaxıstan kimi ölkələri əhatə edib.

8

## Möhkəm və əbədi dostluq

İki qardaş ölkə arasında əlaqələrin möhkəmlənməsində və dövlətlərarası münasibətlərin formalaşmasında mühüm rol oynayan bu dostluq ənənələri bu gün özünün ən yüksək mərhələsinə qədəm qoyub. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra dünya ölkələri ilə sağlam münasibətlərin yaradılmasına, beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirməyə və nüfuzunu yüksəltməyə böyük önəm verir. Ulu Öndərimiz Heydər Əliyev tərəfindən təməli qoyulan dövlətimizin daxili və xarici siyasət xətti, neft-qaz, nəqliyyat sahələrində əməkdaşlıq, düşünülmüş layihələr cənab İlham Əliyevin uzaqgörənliyi nəticəsində özünə yeni həyat qazanır, məna kəsb edir. Məhz



buna görə Azərbaycan qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirməyə, iqtisadiyyatını dinamik inkişaf etdirməyə, ordusunu gücləndirməyə, xalqının sosial rifahını yaxşılaşdırmağa, torpaqlarının düşməndən azadlığına nail olub, dünyada öz mövqeyini və yerini möhkəmləndirib.

İkinci Qarabağ müharibəsindən sonra dövlətimiz dünyanın bir çox ölkəsi tərəfindən etibarlı tərəfdaş, dost və qardaş kimi qəbul edilir. Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan, Şərq-Qərb əməkdaşlığına, dünyada sülhün və əmin-amanlığın yaradılmasına töhfə verən ölkə kimi tanınır.

4




# Azərbaycanın və Pakistanın qanunverici orqanları arasında əməkdaşlıq genişlənir

## Prezident İlham Əliyev Pakistan Milli Assambleyası Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısı Azərbaycanın və Pakistanın siyasət, iqtisadiyyat, sərmayələr sahələrində uğurlu qarşılıqlı fəaliyyətinə toxunaraq əlaqələrimizin genişləndirilməsində parlamentlərarası əməkdaşlığın rolunu qeyd etdi, beynəlxalq parlamentlərarası təsisatlarda ölkələrimizin parlament nümayəndə heyətlərinin bir-birini dəstəkləməsini məmnunluqla vurğuladı.

Azərbaycan Prezidenti qardaş Pakistandan nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli olacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə təşəkkürünü bildirən Pakistan Milli Assambleyasının Sədri ölkəmizə səfərdən və dövlətimizin başçısı ilə görüşdən şərəf hissi keçirdiklərini vurğuladı. Sərdar Ayaz Sadiq rəhbərlik etdiyi nümayəndə heyətinə həm iqtidar, həm də müxalifətdən olan parlament üzvlərinin daxil olduğunu bildirərək vurğuladı ki, bu, Pakistan Milli Assambleyasında Azərbaycana münasibətdə vahid və həmrəy mövqenin göstəricisidir.

Öz növbəsində dövlətlərimiz arasında parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunan Pakistan Milli Assambleyasının Sədri ölkələrimizin həm çətin, həm də xoş günlərdə həmişə həmrəylik nümayiş etdirdiklərini vurğuladı.

Sərdar Ayaz Sadiq İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün uğurla keçirilməsi ilə bağlı Prezident İlham Əliyevi təbrik edərək, bu tədbirin məhz Xankəndi şəhərində təşkil olunmasının böyük siyasi əhəmiyyətinə toxundu. Qonaq Qarabağda və Şərqi Zəngəzurda yüksək səviyyədə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini xüsusi qeyd etdi.

Görüşdə Sərdar Ayaz Sadiqin ölkəmizə səfərinin parlamentlərarası əlaqələrin genişləndirilməsi üçün müzakirələr aparmağa yaxşı imkan yaratdığı bildirildi, Azərbaycanın və Pakistanın qanunverici orqanları arasında əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olundu.

Söhbət zamanı Azərbaycanla Pakistan arasında iqtisadiyyat, ticarət, enerji, sənaye, investisiyalar, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan və Pakistan arasında strateji münasibətlər dostluq və qardaşlıq prinsipləri əsasında qurulub



**İyulun 7-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiqin rəhbərlik etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə vurğulanıb ki, Azərbaycan və Pakistan arasında strateji münasibətlər dostluq və qardaşlıq prinsipləri əsasında qurulub. Spiker Sahibə Qafarova bu səfərin ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin növbəti təzahürü olduğunu bildirib. Milli Məclisin Sədri qonaqların Prezident İlham Əliyevlə görüşünə toxunaraq qeyd edib ki, dövlət başçımız ölkələrimiz arasındakı münasibətlərin möhkəmləndirilməsinə xüsusi diqqət yetirir.

Söhbət zamanı bildirilib ki, Azərbaycan xalqı Ermənistanın torpaqlarımızı 30 il davam etmiş işğalı dövründə və Vətən müharibəsində Pakistanın ölkəmizə dəstəyini yüksək qiymətləndirir.

İki ölkə arasında münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin xüsusi rolunu qeyd edən Milli Məclisin Sədri Prezident İlham Əliyevin Pakistana səfərlərinin, Pakistanın dövlət rəhbərlərinin Azərbaycana səfərlərinin və imzalanmış sənədlərin xüsusi rolundan danışıb. Bildirilib ki, Pakistanın Baş naziri Şahbaz Şərifin bir neçə gün əvvəl İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilmiş 17-ci sammitində iştirakı dostluğumuzun növbəti nümunəsidir.

Parlamentlərarası əlaqələr barədə danışan spiker Sahibə Qafarova qeyd edib ki, hər iki ölkənin parlamentlərində qarşılıqlı dostluq qrupları uğurla fəaliyyət göstərir və bu gün qanunverici orqanlarımız arasında da çox yaxşı münasibətlər qurulub. Parlamentlərimiz bir sıra beynəlxalq təşkilatlarda sıx əməkdaşlıq edirlər. Bildirilib ki, Azərbaycan, Pakistan və Türkiyə arasında yaradılmış üçtərəfli əməkdaşlıq formatı strateji müttəfiq ölkələrimizin əldə etdikləri nailiyyətlərdən biridir.

Görüşdə bu il mayın 28-də Laçın şəhərində keçirilmiş Azərbaycan-Pakistan-Türkiyə liderlərinin üçtərəfli sammitini xüsusi qeyd edən spiker Sahibə Qafarova bu sammitin əhəmiyyətini vurğulayıb. Üçtərəfli formatda əməkdaşlığın parlamentlər çərçivəsində də davam etdirildiyini deyən spiker Sahibə Qafarova parlament sədrlərinin nəzərdə tutulan Üçüncü Üçtərəfli Görüşü barədə fikirlərini bölüşüb.

Pakistan Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq qonaqpərvərliyə və ölkəmizə dəvətə görə təşəkkürünü ifadə edərək bildirib ki, Pakistan və Azərbaycan həmişə bir-birilərini dəstəkləyən qardaş ölkələrdir. O, Hindistanla münaqişədə Pakistanla həmrəylik nümayiş etdirdiyinə görə Azərbaycana təşəkkürünü bildirib. Qeyd edib ki, ölkələrimizin yerləşdiyi coğrafi məkanlar arasında bağların gücləndirilməsi gələcək üçün böyük önəm daşıyır. Diqqətə çatdırılıb ki, Pakistan bütün beynəlxalq müstəvilərdə Azərbaycanı həmişə dəstəkləyib.

Qonaq bildirib ki, bir neçə gün əvvəl Xankəndidə keçirilmiş sammitdə dövlət və hökumət başçılarının iştirakı həm dünyaya verilmiş bir mesaj, həm də Azərbaycanın zəfərinə dəstəkdir.

Söhbət zamanı Milli Assambleyanın Sədri Pakistanla Azərbaycan arasında parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, qarşılıqlı təcrübə mübadiləsi barədə fikirlərini bölüşüb, Pakistan parlamentinin strukturu, fəaliyyət prinsipləri barədə məlumat verib, mütəmadi həyata keçirilən qarşılıqlı səfərlərin mühüm rolundan danışıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barəsində də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# "Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda IX müşavirənin açılışı olub













**İyulun 7-də ADA Universitetində "Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda diplomatik xidmət orqanlarının rəhbərlərinin IX müşavirəsinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində ADA Universitetinin rektoru Hafiz Paşayev, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış ediblər.

Çıxışlar zamanı Azərbaycanın xarici siyasətinin bir sıra istiqamətləri, o cümlədən iqtisadiyyat, təhlükəsizlik, enerji, mədəniyyət, kommunikasiya sahələri üzrə görülmüş işlər və gələcək planlardan bəhs olunub, ölkəmizin yerləşdiyi bölgədə mövcud vəziyyət, habelə beynəlxalq təhlükəsizlik vəziyyəti təhlil edilib.

İkitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin genişləndirilməsi, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərindən bəhs olunan açılış mərasimində xarici siyasətimizin yeni istiqamətləri, ölkəmizin vasitəçilik, iqlim diplomatiyası səyləri və bu istiqamətdə gələcək planlar barədə müzakirələr aparılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesindən bəhs edilib, sülh prosesini hədələyən mövcud çağırışlar, o cümlədən ölkəmizə qarşı Ermənistan konstitusiyasında əks olunmuş ərazi iddialarının aradan qaldırılmasının vacibliyi diqqətə çatdırılıb.

İyulun 7-9-da davam edəcək müşavirə çərçivəsində ikitərəfli və çoxtərəfli diplomatiya, iqtisadi, iqlim, enerji diplomatiyası, bağlantılar, məhkəmə prosesləri, humanitar və mədəniyyət diplomatiyası, beynəlxalq inkişafa yardım, xarici siyasətin kommunikasiyası, parlament diplomatiyası, beynəlxalq müqavilələr, diaspor fəaliyyəti, habelə diplomatik xidmət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına həsr olunan panel sessiyalarının təşkili nəzərdə tutulur.

9 İyul - Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günündə müşavirə işini Xankəndi şəhərində keçiriləcək xüsusi sessiya ilə davam etdirəcək.

## "Dəyişən dünya düzənində xarici siyasət və çoxtərəfli diplomatiya"

"Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda diplomatik xidmət orqanlarının rəhbərlərinin IX müşavirəsinin "Dəyişən dünya düzənində xarici siyasət və çoxtərəfli diplomatiya" mövzusuna həsr olunan ilk panel müzakirəsi Azərbaycanın xarici işlər nazirinin müavinləri Araz Əzimov və Yalçın Rəfiyevin əsas natiqlər qismində iştirakı ilə keçirilib.

AZƏRTAC xəbər verir ki, panel çərçivəsində postmünaqişə dövrünün reallıqlarının Azərbaycan xarici siyasətində yaratdığı prioritetlər, normallaşma prosesinin vəziyyəti və mövcud çağırışlar, regional və beynəlxalq təhdidlərin fonunda ölkəmizə təsir edə biləcək təhlükəsizlik məsələləri, çoxtərəfli platformalarda fəaliyyət çərçivəsinə mövcud çağırış və imkanlar təhlil edilib.

## "Dayanıqlı inkişaf perspektivləri: iqtisadi və iqlim diplomatiyası, enerji təhlükəsizliyi və bağlantılar"

"Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda diplomatik xidmət orqanlarının rəhbərlərinin IX müşavirəsinin "Dayanıqlı inkişaf perspektivləri: iqtisadi və iqlim diplomatiyası, enerji təhlükəsizliyi və bağlantılar" mövzusunda ikinci panel müzakirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti Muxtar Babayev tədbirdə əsas natiq qismində iştirak ediblər.

Panel çərçivəsində ticarət və investisiya perspektivləri, bu sahələrdə əməkdaşlığın şaxələndirilməsi, geoiqtisadi gərginliklərin iqtisadi diplomatiyamıza təsirləri, ölkəmizdən keçən nəqliyyat dəhlizləri üzrə mövcud təşəbbüslərin irəlilədilməsi, Azərbaycanın beynəlxalq iqlim diplomatiyasında bundan sonrakı fəal iştirakını şərtləndirən amillər və s. mövzular müzakirə olunub.

Natiqlər daha sonra tədbir iştirakçılarının suallarını cavablandırıblar.

## "Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar"

"Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda diplomatik xidmət orqanlarının rəhbərlərinin IX müşavirəsinin "Xəzər dənizi, sərhədlərin delimitasiyası, beynəlxalq müqavilələr" mövzusunda altıncı paneli Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifovun əsas natiq qismində iştirakı ilə reallaşıb.

AZƏRTAC xəbər verir ki, panel müzakirəsi çərçivəsində Xəzər dənizinin hüququ statusunun müəyyən edilməsi istiqamətində cari vəziyyət, Azərbaycan-Ermənistan arasında sərhəd delimitasiyası və demarkasiyası üzrə planlar, habelə ikitərəfli və çoxtərəfli beynəlxalq-hüquqi bazanın inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

## "Həmrəyliyin təşviqi: humanitar və mədəniyyət diplomatiyası, beynəlxalq inkişafa yardım"

Diplomatik xidmət orqanlarının rəhbərlərinin IX müşavirəsinin "Həmrəyliyin təşviqi: humanitar və mədəniyyət diplomatiyası, beynəlxalq inkişafa yardım" mövzusunda dördüncü paneli Azərbaycanın mədəniyyət nazirinin müavini Fərid Cəfərov və Azərbaycan Beynəlxalq İnkişaf Agentliyinin rəisi Elməddin Mehdiyevin əsas natiqlər qismində iştirakı ilə keçirilib.

AZƏRTAC xəbər verir ki, panel müzakirəsi çərçivəsində ölkəmizin mədəniyyətinin təşviqi sahəsində birgə fəaliyyət, mədəniyyət diplomatiyasının təşviqi, bu istiqamətdə ikitərəfli və çoxtərəfli əsasda görülən işlər, gələcək planlar, habelə ölkəmizin beynəlxalq inkişafa yardım siyasətinin prioritetləri və istiqamətlərindən bəhs olunub.

# Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, “Notariat haqqında” və “İcra haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I); 2024, № 3, maddə 250, № 7, maddə 770, № 12 (II kitab), maddə 1338; Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD nömrəli Qanunu) 92-ci maddəsinin 2-ci hissəsində “vərəsələrdən heç biri mirası qəbul etməmişdirsə” sözləri “bütün vərəsələr mirasdan imtina etmişsə” sözləri ilə əvəz edilsin.

**Maddə 2**. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13, № 4, maddələr 362, 367, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 12 (I kitab), maddə 1283; Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli, 11 aprel tarixli 172-VIIQD nömrəli və 16 may tarixli 196-VIIQD nömrəli qanunları) 72.3-cü maddəsində “vərəsəlik heç kim tərəfindən qəbul edilməmişsə” sözləri “bütün vərəsələr mirasdan imtina etmişsə” sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216; Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD, 161-VIIQD nömrəli, 1 may tarixli 188-VIIQD və 192-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1165.1-ci maddədə “vərəsələrdən heç biri mirası qəbul etməmişdirsə” sözləri “bütün vərəsələr mirasdan imtina etmişsə” sözləri ilə əvəz edilsin;

3.2. 1192.1-ci maddədə “mirası qəbul etməməsi” sözləri “mirasdan imtina etməsi” sözləri ilə əvəz edilsin;

3.3. 1202.2-ci maddədə “payın qəbul edilməsi və ya ondan” sözləri “paydan” sözü ilə, “mirasın qəbul edilməsi və ya ondan” sözləri “mirasdan” sözü ilə əvəz edilsin;

3.4. 1243-cü maddə üzrə:

3.4.1. 1243.2-ci maddəyə “etdirdikdə” sözündən sonra “, habelə bu Məcəllənin 1256-cı maddəsində müəyyən olunmuş müddət ərzində mirasın qəbulundan imtina etmədikdə” sözləri əlavə edilsin;

3.4.2. 1243.3-cü maddəyə “etməyə” sözündən sonra “və ya əmlakı idarə etməyə” sözləri əlavə edilsin;

3.5. 1247-ci və 1248-ci maddələr ləğv edilsin;

3.6. 1249-cu maddədə “mirasın açıldığı gündən altı ay keçənədək və ya miras hüququ haqqında şəhadətnamə” sözləri “vərəsəlik şəhadətnaməsi” sözləri ilə əvəz edilsin;

3.7. 1252-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 1252. Miras açıldıqdan sonra vərəsənin ölməsi (irsi transmissiya)**

Əgər vərəsə miras açıldıqdan sonra ölərsə, ölmüş vərəsənin ilkin miras qoyandan pay almaq hüququ həmin vərəsənin miras əmlakı kimi ümumi qaydada öz vərəsələrinə keçir.”;

3.8. 1253-cü maddə ləğv edilsin;

3.9. 1254-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“Vərəsə mirasın qəbulundan imtina üçün bu Məcəllənin 1256-cı maddəsində müəyyən edilmiş müddət bitənədək notarius tərəfindən mirasın siyahıya alınmasını tələb edə bilər. Mirasın siyahıya alınması barədə vərəsənin notariusa müraciət etdiyi andan mirasın qəbulundan imtina üçün müəyyən edilmiş müddətin axımı dayandırılır. Mirasın notarius tərəfindən siyahıya alındığı (siyahıya alınacaq əmlakın olmadığı hallarda isə vərəsənin müraciətinin cavablandırıldığı) andan mirasın qəbulundan imtina üçün müəyyən edilmiş müddətin axımı bərpa edilir. Notarius tərəfindən mirasın siyahıya alınması bu barədə müraciətin daxil olduğu gündən iki ay ərzində “Notariat haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.”;

3.10. 1255-ci və 1269-cu maddələr aşağıdakı redaksiyada verilsin:

**“Maddə 1255. Mirasın əldə edilməsi**

Vərəsələr mirasqoyanın ölümü ilə mirası qanun əsasında əldə edirlər.”;

**“Maddə 1269. Mirasın faktiki qəbulu zamanı imtina**

Vərəsə əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktik başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə, mirasdan imtina edilməsinə bu Məcəllənin 1256-cı maddəsində müəyyənləşdirilən müddət ərzində yol verilir.”;

3.11. 1270.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Ölmüş vərəsənin vərəsəsinin mirasın qəbulundan imtina üçün müəyyənləşdirilmiş müddəti üç aydan az olarsa, həmin müddət üç ayadək uzadılır.”;

3.12. 1301.2-ci maddədən “bilər və yerində olmayan vərəsənin payını ayıra” sözləri çıxarılsın və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bu zaman yerində olmayan vərəsənin payı ayrılmalıdır.”;

3.13. 1306-cı maddə üzrə:

3.13.1. adına “məsuliyyəti” sözündən sonra “və kreditorların təmin edilməsi zamanı sübutetmə yükü” sözləri əlavə edilsin;

3.13.2. aşağıdakı məzmunda 1306.4-cü və 1306.5-ci maddələr əlavə edilsin:

“1306.4. Mirasın siyahısı notarius tərəfindən tərtib edildikdə vərəsələr miras qoyanın kreditorları qarşısında mirasdan alınmış aktiv həddində məsuliyyət daşıyırlar.

1306.5. Mirasın notarius tərəfindən siyahıya alındığı haldan başqa, vərəsə miras qoyanın borclarının mirasdan çox olduğunu sübut etməlidir və bu halda, vərəsələr miras qoyanın kreditorları qarşısında mirasdan alınmış aktiv həddində məsuliyyət daşıyırlar.”;

3.14. 1307-ci maddə ləğv edilsin;

3.15. 1318-ci maddədə “tədbirlər” sözü “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 55-ci maddəsində nəzərdə tutulmuş tədbirləri” sözləri ilə əvəz edilsin;

3.16. 1323-cü maddə ləğv edilsin;

3.17. 1324-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“Vərəsə miras açıldıqdan sonra onun müəyyənləşdirilmiş müddətdə qəbulundan imtina etmədən ölərsə, mirasın qəbulundan imtina etməmiş vərəsənin vərəsələri ilkin miras qoyandan qalmış əmlaka mirasın qəbulundan imtina etməmiş vərəsənin əmlakı kimi vərəsəlik şəhadətnaməsi ala bilərlər.”;

3.18. 1325-ci maddənin mətni 1325.1-ci maddə hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda 1325.2–1325.5-ci maddələr əlavə edilsin:

“1325.2. Notarius vərəsəlik şəhadətnaməsinin əldə olunması üçün müraciət edən vərəsəyə şəhadətnamə verərkən vərəsə olan, lakin şəhadətnamə almaq üçün müraciət etməmiş digər vərəsələrin (miras şəriklərinin) də mirasdan onlara çatacaq paylarını müəyyən edərək həmin şəhadətnamədə göstərir.

1325.3. Daşınmaz əmlakın dövlət reyestrini və daşınar əmlakın rəsmi reyestrlərini aparan orqan tərəfindən bu Məcəllənin 1325.2-ci maddəsində nəzərdə tutulmuş vərəsələr (miras şərikləri) və onların payları barədə məlumat müvafiq reyestrə daxil edilir.

1325.4. Hər bir miras şəriki bu Məcəllənin 1325.2-ci maddəsində müəyyən edilmiş payına da vərəsəlik şəhadətnaməsi ala bilər.

1325.5. Bu Məcəllənin 1325.2-ci maddəsində nəzərdə tutulmuş miras şəriklərinin miras paylarına sərəncam vermək hüquqları var. Həmin şəxslər vərəsəlik şəhadətnaməsi alanadək notariat qaydasında təsdiq edilmiş müqaviləyə əsasən miras paylarına sərəncam verə bilərlər. Miras şərikləri arasında miras paylara sərəncam verilməsi haqqında müqavilə əsasında miras payı əldə etmiş vərəsənin mirasdakı payı əldə etdiyi pay nisbətinə uyğun artırılır və vərəsəlik şəhadətnaməsində yekun payı göstərilir.”.

**Maddə 4**. “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 10 (Cild I); 2024, № 2, maddə 138; 2025, № 2, maddə 100) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 54-cü maddənin birinci hissəsinin birinci abzasında “mirası qəbul edənədək, miras qəbul edilmədikdə isə” sözləri “mirasın qəbulundan imtina etdikdə” sözləri ilə əvəz edilsin;

4.2. 55-ci maddə üzrə:

4.2.1. birinci hissədə “xəbər verməlidir” sözləri “bildiriş göndərir” sözləri ilə əvəz edilsin;

4.2.2. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

“Notarius qaib vərəsələrin axtarılması üçün mediada, habelə Palatanın rəsmi internet saytında elan yerləşdirir.”;

4.2.3. üçüncü hissə ləğv edilsin;

4.3. 56-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“Miras əmlakın mühafizə edilməsi vərəsəlik şəhadətnaməsi verilənədək davam edir.”;

4.4. 58-ci maddənin ikinci hissəsi ləğv edilsin.

**Maddə 5**. “İcra haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114 (Cild I); 2024, № 4, maddə 365; 2025, № 1, maddə 1, № 2, maddə 100; Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD nömrəli, 11 aprel tarixli 172-VIIQD nömrəli, 1 may tarixli 189-VIIQD nömrəli və 16 may tarixli 196-VIIQD nömrəli qanunları) 36.3-cü maddəsində “vərəsəlik heç kim tərəfindən qəbul edilməmişdirsə” sözləri “bütün vərəsələr mirasdan imtina etmişsə” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyun 2025-ci il*

# "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 216-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 216-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1254-cü maddəsinə uyğun olaraq, notarius tərəfindən mirasın siyahıya alınması qaydasının müəyyən edilməsi məqsədilə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsinə dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 216-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2025-ci il*

# "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə"nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il aprelin 23-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2025-ci il*

# N.A.Pənahovun Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nazim Adil oğlu Pənahov Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2025-ci il*

# "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 623 (Cild I); 2024, № 1, maddə 17; 2025, № 2, maddə 101) aşağıdakı dəyişikliklər edilsin:

1. 39-cu maddə üzrə:

1.1. 39.2-ci maddədən "13.2-ci," sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 39.2-1-ci maddə əlavə edilsin:

"39.2-1. Bu Qanunun 13.2-ci maddəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş müddətdə qüvvəyə minir.".

2. 42.3.1-ci maddəyə "elektrik" sözündən əvvəl "bu Qanunun 39.2-1-ci maddəsi nəzərə alınmaqla," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyun 2025-ci il*

# "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 221-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 221-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 39.2-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 39.2-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinin qüvvəyə minməsinə dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 221-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 647 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "38-ci," sözlərindən sonra "39.2-1-ci," sözləri əlavə edilsin;

3.2. 1.2-ci bəndə "33.1-ci," sözlərindən sonra "39.2-1-ci," sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Energetika Nazirliyi və "AzərEnerji" Açıq Səhmdar Cəmiyyəti "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 221-VIIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2025-ci il*

# “Filmlərin istehsalı üçün çəkilmiş xərclərin qismən geri ödənilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 196** **Bakı şəhəri, 4 iyul 2025-ci il**

"Azərbaycan Respublikasının ərazisində kinematoqrafiya əsərlərinin və digər audiovizual əsərlərin istehsalı ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 may tarixli 610 nömrəli Sərəncamının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Filmlərin istehsalı üçün çəkilmiş xərclərin qismən geri ödənilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycanın xarici siyasətinin uğurları

**Azərbaycan və Özbəkistan tarixi qədim, zəngin, eyni zamanda keşməkeşli olduğu qədər də mənalıdır. Bu iki dövlətin xalqlarını mənəvi köklər, sağlam dostluq və qardaşlıq münasibətləri, inam, etibar, hörmət və ehtiram birləşdirir.**
**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, əsrlərə söykənən bu dostluq və qardaşlıq münasibətləri Ulu Öndər Heydər Əliyevin və Özbəkistanın sabiq dövlət rəhbərləri Şərəf Rəşidovun, İslam Kərimovun hakimiyyəti dövründə daha da möhkəmlənib.**



## Möhkəm və əbədi dostluq

### Azərbaycanla Özbəkistanı ortaq dəyərlər birləşdirir

İki qardaş ölkə arasında əlaqələrin möhkəmlənməsində və dövlətlərarası münasibətlərin formalaşmasında mühüm rol oynayan bu dostluq ənənələri bu gün özünün ən yüksək mərhələsinə qədəm qoyub. "Azərbaycan müstəqilliyini əldə etdikdən sonra dünya ölkələri ilə sağlam münasibətlərin yaradılmasına, beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirməyə və nüfuzunu yüksəltməyə böyük önəm verir. Ulu Öndərimiz Heydər Əliyev tərəfindən təməli qoyulan dövlətimizin daxili və xarici siyasət xətti, neft-qaz, nəqliyyat sahələrində əməkdaşlıq, düşünülmüş layihələr cənab İlham Əliyevin uzaqgörənliyi nəticəsində özünə yeni həyat qazanır, məna kəsb edir. Məhz buna görə Azərbaycan qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirməyə, iqtisadiyyatını dinamik inkişaf etdirməyə, ordusunu gücləndirməyə, xalqının sosial rifahını yaxşılaşdırmağa, torpaqlarının düşməndən azadlığına nail olub, dünyada öz mövqeyini və yerini möhkəmləndirib", - deyə deputat əlavə edib.



T.Rzayev deyib ki, İkinci Qarabağ müharibəsindən sonra dövlətimiz dünyanın bir çox ölkəsi tərəfindən etibarlı tərəfdaş, dost və qardaş kimi qəbul edilir. Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan, Şərq-Qərb əməkdaşlığına, dünyada sülhün və əmin-amanlığın yaradılmasına töhfə verən ölkə kimi tanınır. Azərbaycan Prezidentinin rəhbərliyi ilə hazırlanıb həyata keçirilən dövlət proqramları, irimiqyaslı layihələr, sosial-iqtisadi, enerji və nəqliyyat, ekoloji əhəmiyyətli mühüm tədbirlər nəinki ölkəmiz, eləcə də region və dünya dövlətləri üçün əhəmiyyətlidir. Ölkəmiz dünyaya açıqdır və bu, xarici dövlətlərlə əlaqələrin yaradılmasına, əməkdaşlığın genişləndirilməsinə və möhkəmləndirilməsinə öz töhfələrini verir. Azərbaycan BMT Təhlükəsizlik Şurasında, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatında, Türk Dövlətləri Təşkilatında və digər bir çox beynəlxalq qurumda söz sahibidir, böyük nüfuza malikdir. Dünyanın aparıcı dövlətləri, görkəmli ictimai-siyasi xadimlər, beynəlxalq maliyyə orqanları ölkəmizdə baş verən yenilikləri, inkişafı diqqətlə izləyir və yüksək qiymətləndirirlər.

Komitə sədri qeyd edib ki, dövlətlərarası münasibətlərin ildən-ilə yaxşılaşması və sağlam əməkdaşlıq nəticəsində ölkələrin bir-birinə dəstək verməsi yeni uğurlara yol açır ki, Azərbaycan da bu yolda inamla irəliləməkdədir: "Dövlətimiz Mərkəzi Asiya respublikaları ilə əməkdaşlığa xüsusi önəm verir, imkanları dəyərləndirir, mövcud şəraitdən, potensialdan maksimum faydalanmağa çalışır. Özbəkistan ilə dostluq və qardaşlıq münasibətləri bu baxımdan bir nümunədir. Bu dövlət Mərkəzi Asiyanın dinamik inkişaf edən, həm də demokratiyaya, insan haqlarına, sağlam əməkdaşlığa sadiq olan ölkələrindən biridir. Azərbaycanla Özbəkistanı ortaq dəyərlər - insanlığa hörmət və məhəbbət, sabitlik, sülh, əmin-amanlığa sadiqlik, inkişaf amalları, sağlam əməkdaşlıq münasibətləri birləşdirir. Bu gün Azərbaycan-Özbəkistan əməkdaşlığı, dövlət rəhbərləri İlham Əliyevin və Şavkat Mirziyoyevin dostluq, qardaşlıq münasibətləri dünya ölkələrinə və rəhbərlərinə örnək olmaqla bərabər, həm də sülh, demokratiya, inkişaf üçün bir mesajdır. Son illər prezidentlərin qarşılıqlı səfərləri, keçirilən çoxsaylı görüşlər, qəbul olunan qərarlar və imzalanan sənədlər gələcək inkişafa, xalqların xoşbəxtliyinə və sabitliyə hesablanıb. Cənab İlham Əliyevin 23 mart 2004-cü ildə Özbəkistana rəsmi səfəri zamanı Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında imzalanan strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə əməkdaşlığımızın bugünkü səviyyəyə çatmasında mühüm rol oynayıb. Bütün səviyyələrdə - Qarabağ məsələlərinin müzakirəsində, digər mötəbər tədbirlərdə Özbəkistan həmişə dövlətimizin haqlı mövqeyini müdafiə edib, xalqımıza dəstək verib".

Deputat vurğulayıb ki, Qarabağ torpaqlarının işğaldan azad edilməsinə ürəkdən sevinən ilk dövlətlərdən biri məhz Özbəkistandır. Füzulidə özbək xalqının böyük oğlu Mirzə Uluqbəyin adına məktəbi də Özbəkistan inşa edib. 2022-ci ildə Azərbaycan Prezidentinin üç dəfə dost ölkəyə səfər etməsi və bu səfərlər zamanı çox mühüm sənədlərin imzalanması əlaqələrin inkişafına yeni stimul verib. Şavkat Mirziyoyevin ölkəmizə səfərləri, Şuşada, Füzulidə, Ağdamda olması, işğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-abadlıq, bərpa-quruculuq işlərinə yüksək qiymət verməsi, eləcə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasında (COP29) iştirakı, həmin tədbir zamanı Azərbaycan Prezidenti İlham Əliyevin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə üç dövlətin hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında sazişin imzalanması sağlam əməkdaşlığın bir ifadəsidir.

T.Rzayev bildirib ki, Özbəkistan Prezidentinin ölkəmizə növbəti səfəri də çox əlamətdar və uğurlu oldu. Bakıda "Özbəkistan" parkının təməlinin qoyulması, Özbəkistan səfirliyinin yeni binasının açılışı, iki ölkə arasında kənd təsərrüfatı, nəqliyyat, ticarət, sənaye, elm, peşə təhsili, sosial, gömrük və digər sahələrə aid sənədlərin imzalanması əməkdaşlığın bundan sonra daha yüksək səviyyədə olacağından xəbər verir. "Bu, dövlət rəhbərlərinin mətbuata bəyanatlarında da aydın görünür. Keçən il Daşkənddə ölkələr arasında müttəfiqlik münasibətləri haqqında çox mühüm sənədin imzalanmasının əhəmiyyətini qeyd edərkən cənab İlham Əliyev bildirib: "Biz artıq bir ildir ki, rəsmi müttəfiqik və bunu beynəlxalq arenada fəal qarşılıqlı fəaliyyətlə, qarşılıqlı dəstəklə, həmçinin bir çox sahədə həyata keçirdiyimiz konkret plan və layihələrlə nümayiş etdiririk". İki ölkə arasında bu günə kimi 170-dən çox sənədin, strateji tərəfdaşlığın möhkəmlənməsinə və əlaqələrin yaxşılaşdırılmasına, əməkdaşlığın inkişafına dair bəyannamənin qəbul edilməsi, mühüm layihələrə imza atılması gələcək uğurların yol xəritəsidir", - deyə deputat əlavə edib.

Tahir Rzayev vurğulayıb ki, dostluğa, qardaşlığa, hörmət və ehtirama əsaslanan münasibətlər, əməkdaşlıq xalqlarımızın xoşbəxtliyi və inkişafı üçün çox vacib və əhəmiyyətlidir. Belə də olmalıdır, çünki əsl qardaş və dost yaxşı amallar, əməllər arzusunda və inamındadır. Azərbaycanın və Özbəkistanın tutduğu yol da uğurludur, məqsədlər aydın, amallar saf, dostluq möhkəm və əbədidir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*



## "Qarabağ və Şərqi Zəngəzur bu gün nəinki Azərbaycanın, artıq regionun inkişaf etmiş bölgələrindən birinə çevrilməkdədir"

**"Otuz il ərzində işğal altında qalan, vandalizmin qurbanı olan Qarabağ və Şərqi Zəngəzur bu gün nəinki Azərbaycanın, artıq regionun inkişaf etmiş bölgələrindən birinə çevrilməkdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa prosesi nəticəsində tarixi torpaqlarımız artıq mötəbər tədbirlərə uğurla evsahibliyi edir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov söyləyib.

Komitə sədri qeyd edib ki, dövlətimizin başçısının azad olunmuş torpaqlarımıza mütəmadi olaraq həyata keçirdiyi səfərlər, işlərin gedişi ilə şəxsən tanış olması, müvafiq tapşırıq və göstərişlərin verilməsi quruculuq prosesinin uğurla və sürətlə reallaşmasını şərtləndirən əsas amillərdəndir. Artıq doğma torpaqlarımıza qayıdan 50 mindən çox insan 16 şəhər və kənddə böyük qürur hissi ilə yaşayır, çalışır və ya təhsil alır.

"Bir neçə gün əvvəl Azərbaycan və Qırğızıstan prezidentləri Ağdamın Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışını etdilər. Beləliklə, müasir infrastrukturun qurulduğu bu kəndimiz də artıq öz doğma sakinlərini qarşılayır", - deyə Şahin İsmayılov vurğulayıb.

Şahin İsmayılov qeyd edib ki, ölkəmizdə müasir yol infrastrukturunun formalaşdırılması istiqamətindən görülən işlər Qarabağ və Şərqi Zəngəzurda da uğurla davam etdirilir. Bu xüsusda Prezident İlham Əliyevin açılışını etdiyi Əhmədbəyli-Füzuli-Şuşa yolu bölgənin hərtərəfli inkişafına xüsusi töhfə verəcək. Eyni zamanda dövlət başçısının son səfəri zamanı İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünə evsahibliyi edən Xankəndi şəhərində də mühüm obyektlərin açılışları baş tutdu. Ümumilikdə Qarabağın iqtisadi inkişafında, burada biznes mühitinin formalaşdırılmasında, məşğulluğun artırılmasında önəmli rola malik olacaq "Xankəndi" Biznes Mərkəzinin fəaliyyətə başlamasını xüsusi qeyd etmək lazımdır. "Xankəndi" Konqres Mərkəzində yaradılan müasir və funksional şərait burada yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün əlverişli imkanlar yaratmaqla bölgənin siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynayacaq.

Qarabağın turizm potensialının inkişafı istiqamətində də önəmli addımların atıldığını qeyd edən Şahin İsmayılov bildirib ki, burada müasir hotellərin, istirahət mərkəzlərinin yaradılması, tarixi və mədəni abidələrin bərpası istiqamətində görülən işlər uğurla davam etdirilir. Bu baxımdan uzunluğu 6 min metrə yaxın olacaq Xankəndi-Şuşa kanat yolu bölgənin turizm potensialının inkişafına, həmçinin insanların iki şəhər arasında rahat hərəkətinə imkan verəcək.

"Dövlətimiz tərəfindən görülən kompleks tədbirlərin nəticəsidir ki, artıq bu tarixi torpaqlarımız yüksəksəviyyəli tədbirlərə uğurla evsahibliyi edir. Cari ildə Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Zirvə görüşü Laçında keçirildi. Ötən il Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşü Şuşa şəhərində uğurla təşkil olundu. Təbii ki, bu cür yüksəksəviyyəli tədbirlər tarixi torpaqlarımızın inkişafına böyük töhfə verir", - deyə Şahin İsmayılov vurğulayıb.

## Xankəndidən sülhə və həmrəyliyə çağırış

**İyulun 3-4-də Xankəndi şəhəri öz tarixində yeni, parlaq bir səhifə açdı. Xankəndinin İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünə evsahibliyi etməsi, mühüm beynəlxalq tədbir olmaqla yanaşı, həmçinin Ermənistanın 30 illik işğalından sonra bərpa və quruculuq mərhələsinə qədəm qoymuş bir şəhərin dirçəlişinin rəmzi oldu. Bu, Azərbaycanın bölgədə artan nüfuzunun və diplomatik fəallığının bariz göstəricisidir.**

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Zirvə görüşündə səsləndirdiyi "İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirak etmək üçün qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz!" müraciəti harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qəlbində sonsuz qürur və sevinc hissi yaratdı. Bu ifadə Azərbaycanın tarixi ədaləti bərpa etdiyini və artıq bu torpaqlarda sülh, sabitlik və inkişafın hökm sürdüyünü göstərdi.



Deputat diqqətə çatdırdı ki, Prezident İlham Əliyevin Xankəndidə keçirilən Zirvə görüşü çərçivəsində ECO-ya üzv dövlətlərin başçıları və yüksəksəviyyəli nümayəndə heyətləri ilə keçirdiyi çoxsaylı görüşlər istər ikitərəfli, istərsə də çoxtərəfli münasibətlərin inkişafında yeni bir mərhələnin əsasını qoydu: "Dövlət başçısının "Azərbaycan artıq üçüncü dəfədir ki, ECO-nun Zirvə görüşünə evsahibliyi edir. Əvvəlki iki Zirvə görüşü 2006-cı və 2012-ci illərdə paytaxt Bakıda keçirilmişdir" sözləri ilə Xankəndidə keçirilən budəfəki görüşün tarixi və strateji əhəmiyyətini xüsusi olaraq vurğulaması təsadüfi deyil. Dövlət başçısının qeyd etdiyi kimi, işğaldan azad olunmuş ərazilərdə artıq bir neçə nüfuzlu beynəlxalq tədbirlər keçirilib. Bu sıraya 2023-cü ildə Şuşada ECO-nun Nazirlər Şurasının iclası, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşü və 2025-ci ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan liderlərinin üçtərəfli Zirvə görüşü daxildir. Bütün bu tədbirlər Azərbaycanın beynəlxalq arenadakı nüfuzunu daha da artırmaqla yanaşı, azad edilmiş torpaqlarımızın sülh, inkişaf və əməkdaşlıq məkanına çevrildiyini nümayiş etdirir".

K.Bayramov qeyd edib ki, Azərbaycanın bu gün təkcə regional deyil, həm də qlobal enerji təhlükəsizliyində oynadığı rol əhəmiyyətli dərəcədə artmaqdadır. Prezident İlham Əliyevin Zirvə görüşündəki çıxışında bildirdiyi kimi, hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bu rəqəm dinamik şəkildə artır. Bu, Azərbaycanın etibarlı tərəfdaş və enerji təchizatçısı kimi nüfuzunu daha da möhkəmləndirir. Eyni zamanda ölkəmiz "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzərində yerləşərək mühüm tranzit mərkəzinə çevrilib. Bu üstün mövqeyi ilə Azərbaycan ECO məkanında nəqliyyat və logistika sahəsində strateji ölkə kimi tanınır. Bu imkanlar sayəsində ölkəmiz həm regional, həm də qlobal səviyyədə inteqrasiyanı və iqtisadi əməkdaşlığı təşviq edən əsas platformalardan birinə çevrilibdir.

Deputat xüsusi olaraq qeyd edib ki, Müzəffər Ali Baş Komandanın çıxışları yalnız hərbi güc və siyasi iradə üzərində qurulmur, eyni zamanda bölgədə ədalətli və dayanıqlı sülhün təmin edilməsinə çağırış xarakteri daşıyır. Xankəndidə keçirilən ECO Zirvə görüşündə də Prezident bu mövqeyi qətiyyətlə ifadə edərək ali qonaqların diqqətinə tarixi bir reallığı çatdırdı: "Dəfələrlə Ermənistana və onun arxasında duran dövlətlərə bildirirdik ki, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz öz ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik. Əfsuslar olsun ki, Ermənistan və onun havadarları bizim bu xəbərdarlığımızı ciddi qəbul etməyiblər. Nəticədə peşman olublar".

K.Bayramov əlavə edib ki, dövlət başçısının çıxışında toxunduğu digər mühüm məqam isə qərbi azərbaycanlıların öz doğma torpaqlarına sülh yolu ilə qayıdışı məsələsi idi: "Prezident bu barədə açıq şəkildə bəyan etdi: "Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək". Ölkəmizin rəhbərinin bu fikirləri təkcə Azərbaycanın daxili siyasi iradəsinin deyil, həm də beynəlxalq hüququn və insan hüquqlarının müdafiəsi istiqamətində atılmış açıq və prinsipial addımdır. Azərbaycanın haqq səsi artıq regional deyil, qlobal miqyasda eşidilir".

O bildirib ki, Ali Baş Komandanın çıxışlarının əsas qayəsini yalnız hərbi zəfərin və siyasi qətiyyətin nümayişi deyil, eyni zamanda bölgədə davamlı sülhün təmin olunması təşkil edir. Prezident Xankəndidə keçirilən Zirvə görüşündə bu məqamı bir daha diqqətə çatdıraraq bildirdi ki, Azərbaycan hər zaman qarşı tərəfə sülh çağırışı edib, lakin torpaqlarımızın işğaldan azad olunması üçün zəruri olan anda qətiyyətli və hüquqi əsaslı hərbi addım atmaqdan da çəkinməyib.

Deputat qeyd edib ki, Azərbaycan Prezidenti İslam Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının bu yaxınlarda İstanbulda 57 üzv dövlətin yekdil qərarı ilə qəbul etdiyi qətnaməni də xatırladaraq, Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyəti tərəfindən dəstəkləndiyini nümayiş etdirdi. Bu isə bölgədə sülh və sabitliyin yalnız beynəlxalq hüquq çərçivəsində mümkün olduğunu bir daha göstərdi.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

## *Mehmet YÜCE:* "Xankəndidə keçirilən ECO Zirvə görüşü həm də güclü və diplomatik mesaj oldu"

**"İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünün Azərbaycanda, özü də Xankəndidə keçirilməsi həm də güclü, əhatəli geosiyasi və diplomatik bir mesaj oldu. Zirvə görüşündə Azərbaycan, Türkiyə və Pakistan liderlərinin səmimi münasibətləri üç ölkə arasında dərinləşən əməkdaşlığın bir göstəricisi idi. Həmçinin İran Prezidenti Məsud Pezeşkianın və Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın tədbirdə iştirak etməsi həm türk dünyası, həm də regional əməkdaşlıq baxımından olduqca əhəmiyyətlidir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Uludağ Universitetinin professoru, iqtisadçı, türk dünyası üzrə mütəxəssis Mehmet Yüce ifadə edib.

ECO Zirvə görüşünün Xankəndidə keçirilməsinin sıradan diplomatik qərar olmadığını qeyd edən professor deyib: "Bu, suverenlik, beynəlxalq tanınma, regional inteqrasiya və rəmzi güc nümayişi baxımından strateji addım idi. Bu, eyni zamanda Qarabağda müharibədən sonrakı nizamın artıq bərqərar olunduğunu və bunu iqtisadi vasitələrlə möhkəmləndirmək istəyini göstərir. Əvvəlki Zirvə görüşlərini geridə qoyaraq, daha canlı, proaktiv və mesajlarla zəngin olan bu görüş postmüharibə dövrünün bərpa mərhələsinin dönüş nöqtələrindən biri kimi tarixə düşəcək. Fikrimcə, bu görüşün verdiyi mesajları üç başlıq altında toplamaq mümkündür: "Rəmzi məna və suverenlik", "Regional inteqrasiya və Qarabağın tanıdılması" və "Türk dünyası kontekstində məsələyə baxış". Bildiyimiz kimi, ECO iqtisadiyönümlü bir təşkilatdır və onun Zirvə görüşünün Qarabağda keçirilməsini bölgəni ticarət, sərmayə və nəqliyyat inteqrasiyası baxımından yenidən qurulan bir mərkəzə çevirmək strategiyasının tərkib hissəsi kimi görmək olar. Yəni bu görüşün Qarabağın enerji xətlərinə, nəqliyyat şəbəkələrinə və regional layihələrə inteqrasiyası prosesini də sürətləndirəcəyini düşünürəm. Görüşdə türk dövlətləri liderlərinin ön planda olması və aralarındakı səmimi görüntülər isə diqqətləri yenidən Türk Dövlətləri Təşkilatına yönəltdi. Bu baxımdan Xankəndidəki Zirvə görüşü türk dünyası baxımından da mühüm addım oldu. Bu hadisə türk dünyasının artıq yalnız etnik və ya mədəni kimlik deyil, eyni zamanda strateji bir aktor olaraq dünya siyasətində yer almağa başladığının güclü sübutudur".

Mehmet Yüce Zirvə görüşünə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın qatılmasının da xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. "Bu, qardaş ölkələrin ŞKTC ilə dialoqlarını davam etdirdiyi mesajını verir, digər tərəfdən isə Şimali Kiprin beynəlxalq miqyasda tanınması və türk dünyasının Kipr türklərinə sahib çıxması baxımından olduqca mənalı və strateji bir addımdır".

# Qüdrətli dövlət, yüksək sosial rifah

## Azərbaycanın artan iqtisadi imkanları davamlı inkişaf üçün real zəmin yaradır

**Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünə nail olmaq, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını yaxşılaşdırmaqdan ibarətdir.**

Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

Xüsusilə də şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, onların ailə üzvləri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Bu kateqoriyaya aid olan insanlara mənzil və avtomobillər verilir, güzəşt və müxtəlif kompensasiyalarla təmin edilirlər.

Ölkə əhalisinin layiqli həyat səviyyəsini təmin etmək və sosial rifahını yüksəltmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir.

Bir tərəfdən düşünülmüş və ardıcıl olaraq həyata keçirilən islahatların nəticəsi, digər tərəfdən isə İlham Əliyevin cəsarətli, inamlı addımları ölkə vətəndaşlarının gələcəyinə hesablanmış qətiyyətli siyasətinin təzahürüdür.

Dövlət başçısının 2018-2025-ci illər ərzində reallaşdırdığı 5 sosial islahat paketi çərçivəsində imzaladığı sərəncam və fərmanlar, sosial sahədə qəbul olunmuş qərarlar miqyasına, əhatə dairəsinə görə inqilabi qərarlardır. Ümumilikdə 5 sosial paket 4 milyondan çox vətəndaşı əhatə edib. Prezidentin imzaladığı fərman və sərəncamlara əsasən, bu dövrdə sosial ödənişlərdə əhəmiyyətli artımlar baş verib. Belə ki, minimum əməkhaqqı 3,1 dəfə, orta aylıq əməkhaqqı 2 dəfə, minimum pensiya 3 dəfə, orta aylıq pensiya 2,6 dəfə, müavinət və təqaüdlərə ayrılan illik büdcə vəsaiti isə 5 dəfədən çox artırılıb. Bundan əlavə, Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan sosial siyasət nəticəsində 2019-cu ildən bəri sosial sahəyə ayrılan büdcə vəsaiti 2,2 dəfə artırılaraq 2025-ci ildə 16,9 milyard manata çatdırılıb. Hazırda bu xərclər ümumi büdcənin 41 faizini təşkil edir.

Bu gün əhalinin sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən biridir. Yəni sosial siyasət dövlət siyasətinin prioritetidir. Bunu dəyərləndirərkən Prezident İlham Əliyev qeyd edib ki, sosial siyasət həmişə prioritet olub və bundan sonra da olacaq. Bütün atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi insanların daha da yaxşı yaşamaları məqsədi daşıyır".

Ümumiyyətlə, Azərbaycanda əhalinin sosial rifah halının davamlı şəkildə yüksəldilməsi dövlətimizin daim diqqətindədir. Prezidentin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" qarşıdan gələn illərdə sosial-iqtisadi inkişafın təmin olunması məqsədilə ölkə qarşısında həlli vacib olan istiqamətləri özündə əks etdirir. Milli prioritetlər sırasında yer alan vacib istiqamətlərdən biri də məhz dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulmasıdır.

Davamlı və yüksək iqtisadi artımın dinamik və inklüziv cəmiyyətin formalaşmasına yönəlməsi, hər bir vətəndaşın öz həyatında bu inkişafı hiss etməsi, insanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq, iqtisadi imkanlara çıxışının bərabər və ədalətli olması hökumətin bu sahədə əsas hədəflərindəndir. Bu hədəflərin uğurla reallaşdırılması üçün inkişafdan hər bir vətəndaşın bəhrələnməsi, yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət, habelə paytaxt və regionların tarazlı inkişafı kimi məsələlər xüsusilə diqqətdə saxlanılan məqamlardır.

Prezidentin 23 dekabr 2024-cü il tarixli "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncamına əsasən, yanvarın 1-dən minimum aylıq əməkhaqqının 400 manata, fevralın 1-dən isə minimum pensiya məbləğinin 320 manata çatıdırılması, həmçinin bütün növ pensiyaların ilin əvvəlindən 8,1 faiz indeksləşdirilməklə artırılması təmin edilib.

Ümumilikdə 2018-2025-ci illərdə icra olunan 5 sosial islahat paketi üzrə müavinət və təqaüd ödənişlərinə ayrılan illik vəsait 5 dəfə artıb. Bütövlükdə 5-ci sosial islahat paketi əməkhaqqı üzrə 700 min nəfəri, sosial ödənişlər üzrə 2,3 milyon nəfər olmaqla 3 milyon nəfəri əhatə edib. 5-ci sosial islahat paketinin maliyyə tutumu 1,4 milyard manatdır. Ümumilikdə isə 2018-2025-ci illərdə reallaşdırılan 5 sosial islahat paketinin maliyyə tutumu 7,6 milyard manat təşkil edir.

Xüsusilə qeyd edilməlidir ki, dövlət büdcəsində sosialyönlü xərclərin ardıcıl artımı hökumətin sosial siyasətinin mühüm nəticəsidir.

Prezidentin fərmanına əsasən, 5-ci sosial islahat paket çərçivəsində iyulun 1-dən artan bəzi müavinət və təqaüdlərə nəzər yetirək:

* Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü - 1700 manat;
* Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü - 2200 manat;
* Milli Qəhrəmanlara Prezidentin aylıq təqaüdü - 2000 manat;
* Şəhid ailəsinə verilən Prezidentin aylıq təqaüdü - 700 manat;
* 20 Yanvar şəhidinin ailəsinə verilən Prezidentin aylıq təqaüdü - 700 manat;
* Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün - 700 manat;
* Müharibə, 20 Yanvar və Çernobıl hadisələri əlilləri - 600 ( I dərəcə), 500 (II dərəcə), 400 (III dərəcə) manat;
* Uşağın anadan olmasına görə birdəfəlik müavinət - 600 manat;
* Dəfn üçün birdəfəlik müavinət - 600 manat;
* Övladlığa götürülən hər uşağa görə aylıq müavinət - 240 manat;
* Ailə başçısını itirməyə görə aylıq müavinət (hər ailə üzvü üçün) - 140 manat;
* Beşdən çox uşağı olan qadınlara hər uşağa görə aylıq müavinət - 140 manat;
* "Xalq" fəxri adına görə - 300 manat,
* "Əməkdar" fəxri adına görə - 200 manat.

Göründüyü kimi, Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən 5-ci sosial islahat paketi dövlətin sosial siyasətində insan amilini əsas götürən strateji yanaşmanın davamlılığını nümayiş etdirir. Bu paket çərçivəsində əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin əhəmiyyətli dərəcədə artırılması yüz minlərlə insanın gündəlik həyatına birbaşa müsbət təsir edən, sosial bərabərliyi gücləndirən və dövlətin sosial funksiyasını daha da möhkəmləndirən fundamental addımdır.

Azərbaycanın sosial siyasəti konstitusiyada qeyd edilən sosial dövlət prinsipinə uyğun olaraq əhalinin rifahını artırmaq və sosial ədaləti təmin etmək məqsədini daşıyır. Bu siyasətin davamlılığı və səmərəliliyi cəmiyyətin sabitliyinə və inkişafına bilavasitə təsir göstərir.

Prezident İlham Əliyevin sosial siyasəti əsasən davamlı sosial rifah artımı, ləyaqətli həyat səviyyəsinin təmin edilməsi, həmçinin rəqəmsallaşdırma və şəffaflıq prinsiplərinə əsaslanır.

İlham Əliyevin sosial siyasətinin prioritetləri əməkhaqqı, pensiya və müavinətlərdə sabit artımlar, büdcədə sosial xərclərin əhəmiyyətli yüksəlişi, məşğulluq və yoxsulluğun azaldılmasıdır. Bu sahələrdə aparılan ciddi islahatlar Azərbaycanı həm sosial rifah, həm də bərabər imkanlara əsaslanan inkişaf modelinə doğru istiqamətləndirir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi nəticəsində zərərçəkmiş şəxslər məhkəmədə ifadə veriblər

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 7-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmə prosesində Azərbaycanın vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərində əsir və girov götürülmüş, işğal nəticəsində əmlaklarını itirmiş və digər zərərlər görmüş şəxslər ifadə veriblər.

Zərərçəkmiş şəxs Güloğlan Əmirxanov ifadəsində Xocavənd rayonunun Qaradağlı kəndində anadan olduğunu, 1992-ci il fevralın 17-də kənd işğal olunan zaman Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülərək Ağkəndə aparıldığını bildirib. Dövlət ittihamçısı Vüsal Abdullayevin sualını cavablandıran zərərçəkmiş girovluqda olduğu 65 gün müddətində işgəncələrə məruz qaldığını, döyüldüyünü, dişlərinin çəkildiyini, üstünə it ilə hücum olunduğunu bildirib. O deyib: "Aprelin 21-də girovluqdan azad olundum. Sonra bildim ki, anam və digər qohumlarım da girov götürülübmüş".

G.Əmirxanov Qaradağlı sakinlərinin bir qisminin "Bəylik bağı" adlanan yerdə kütləvi şəkildə qətlə yetirildiyini xatırladaraq, girov olduğu zaman ora aparıldığını bildirib. Belə ki, ondan həmin ərazidə meyitlərin çıxarılması tələb olunub. Lakin meyitlər kütləvi şəkildə dərində basdırıldığından onları çıxara bilməyib. Zərərçəkmiş şəxs bir qədər aralıda ermənilər tərəfindən qətlə yetirilmiş üç nəfər azərbaycanlının meyitlərini qazaraq çıxardığını bildirib.

Zərərçəkmiş Elşən Şirinov ifadəsində 1992-ci ilin fevral ayının 17-də Qaradağlı kəndinin digər sakinləri kimi girov götürüldüyünü bildirib. Girov götürülənlərdən qadın və yaşlı kişiləri bir "KamAZ"a, nisbətən cavanları isə digər "KamAZ"a yığaraq Xankəndi istiqamətinə aparıblar. Hadisələr zamanı onun anası da yaralanıb. "Mən də anamla getmək istədim. Qoymadılar, məni təpikləyib başqa maşına mindirdilər", - deyə E.Şirinov bildirib.

Zərərçəkmiş bildirib ki, kənddən çıxarkən girov götürülmüş kənd sakinlərindən iki nəfər maşından düşürülüb, başına ağac vurula-vurula qətlə yetirilib. Daha sonra maşınları "Bəylik bağı" adlanan ərazidə saxlayan ermənilər burada 20 nəfərdən çox azərbaycanlını güllələyərək qətlə yetirib.

Xankəndi həbsxanasına aparılmış E.Şirinov burada olduğu müddətdə gündə 12 nəfərə bir çörək verildiyini, hər gün işgəncələrə məruz qaldıqlarını deyib. Daha sonra isə o, Xocavənddə evlərdən birinin zirzəmisində saxlanılıb.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş şəxs dizində və bədənində işgəncə izlərinin indi də qaldığını bildirib.

Zərərçəkmiş şəxs Əli İsmayılov ifadəsində əslən Qərbi Azərbaycandan olduğunu, 1988-ci ildə Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində yurd-yuvasından didərgin düşdüyünü, əvvəlcə Şuşada, sonra isə ailəsi ilə Xocalıda məskunlaşdığını bildirib. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı zamanı doğmalarının qətlə yetirildiyini söyləyib. O, doğmalarının Ağdamda Uzundərə qəbiristanlığında dəfn edildiyini, lakin sonradan həmin ərazinin də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini bildirib. Qəbirlərin olduğu ərazidə işğal dövründə yol çəkilib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında bildirib ki, Xocalı faciəsi zamanı qardaşı Nadir İsmayılov və bacısı Nərgiz İsmayılova həlak olub.

Zərərçəkmiş Elxan Cabbarov bildirib ki,1992-ci ilin yanvar ayının sonlarında ailəlikcə Xocalıdan Ağdam rayonunun Ergi qəsəbəsinə köçüblər. Sonradan eşidiblər ki, fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidəki 366-cı alayın hərbçiləri tanklarla və başqa döyüş texnikaları ilə Xocalıya hər tərəfdən hücum edib.

Hücum edənlər dinc əhalini, o cümlədən uşaqları, qadınları, qocaları odlu silah atəşləri ilə öldürüb, şəhəri yandırıb. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında bildirib ki, Xocalı soyqırımı zamanı onun əmisi qızı Raya Orucova, Rayanın azyaşlı qızı Xəyalə Orucova və Rayanın əri Telman Orucov ermənilər tərəfindən qətlə yetirilib.



Zərərçəkmiş Kamil Bayramov bildirib ki, atası Cəllad Bayramov və daha bir neçə azərbaycanlı 1991-ci il martın 11-də yaşadığı Kosalar kəndinə ərzaq və yardım gətirərkən Ağdam-Əsgəran yolunda erməni təcavüzkarları tərəfindən avtobusda öldürülüb. O deyib: "Biz dörd uşaq atasız qaldıq".

O, 1992-ci il fevralın 26-na keçən gecə Kosalı kəndindən Xocalı şəhərinin yandırıldığını gördüyünü də bildirib.

Zərərçəkmiş bildirib ki, yaşadıqları kənd ermənilər tərəfindən mühasirəyə alındığından, 1992-ci il mayın 7-də evlərini məcburi tərk ediblər.

Zərərçəkmiş Ramiz Qəhrəmanov ifadəsində bildirib ki, 1991-ci il dekabrın 15-də ermənilər Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının texnikası ilə kəndə hücuma keçib, 2 nəfər öldürülüb.

Bundan sonra sakinlər Kosalar kəndi istiqamətində olan dağ yolları ilə kəndi tərk edib. Cəmilli kəndində yaşayan 120 ailədən ibarət 591 nəfər sakin məcburi köçkün düşüb. Ümumilikdə Cəmilli kəndindən 13 nəfər həlak olub.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran R.Qəhrəmanov qətlə yetirilmiş kənd sakinləri arasında azyaşlının - 6 yaşlı Abdullayeva Maya Sərhat qızının olduğunu da bildirib.

Zərərçəkmiş şəxs - Kərkicahan qəsəbəsinin sakini Dərgah Haqverdiyev azərbaycanlı əhaliyə qarşı milli ayrı-seçkilik zəminində təzyiqlər olduğunu bildirib. O, Robert Köçəryanın bu proseslərdə fəal olduğunu vurğulayıb.

D.Haqverdiyev 1988-ci ilin fevral ayından sonra ermənilərin azərbaycanlıları aşkar şəkildə qovmağa başladığını, həmin ilin sentyabr ayında Xankəndi şəhərində yaşayan azərbaycanlıların fərdi yaşayış evlərinin yandırıldığını bildirib. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında deyib ki, həmin vaxt Xankəndi şəhərinin mərkəzi meydanında ermənilər tərəfindən keçirilən mitinqdən sonra silahlı ermənilər Kərkicahan qəsəbəsinə hücum edib, bir neçə evi yandırıblar.

Zərərçəkmiş bildirib ki, 1991-ci ildən başlayaraq Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayda xidmət edən ermənilərin iştirakı ilə, həmin alayın silahlarından, texnikalarından istifadə etməklə qəsəbə atəşə tutulub. Dekabrın 28-də isə kəndə hücuma keçən ermənilər Kərkicahanı işğal edib. Həmin vaxt azərbaycanlılara məxsus bütün evlər yandırılıb.

"İşğaldan əvvəl zəng vurub bizi təhqir edirdilər, deyirdilər çıxın gedin, Qarabağ Ermənistana birləşdirilməlidir, burada ancaq ermənilər yaşamalıdır. Hücum edəndə isə qışqırıb deyirdilər ki, azərbaycanlılar rədd olub getməlidir, bura Ermənistan ərazisidir", - deyə zərərçəkmiş şəxs bildirib.

O əlavə edib ki, işğal zamanı əhali çox çətinliklə meşə yolu ilə kənddən çıxaraq Şuşa şəhərinə gedib. İşğala kimi Kərkicahan qəsəbəsində əhalinin sayı 1796 nəfər olub. Kərkicahan qəsəbəsində işğaldan əvvəl azərbaycanlılara məxsus 350 fərdi yaşayış evi, orta məktəb binası və s. olub.

Siracəddin Mərdəliyev ifadəsində 1992-ci ildə Xocalıya hücumlarla əlaqədar anasının onları Ağdama apardığını bildirib. Fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı zamanı onun valideynləri Xocalının digər sakinləri ilə birlikdə girov götürülüb.

Zərərçəkmiş Şükür Şükürov ifadəsində 1993-cü il avqustun 17-də Cəbrayıl rayonunun Süleymanlı kəndində Ermənistan silahlı qüvvələri tərəfindən öldürülmüş yeznəsi Müzəffər Rüstəmovun meyitini gətirmək istəyərkən girov götürüldüyünü bildirib. O, 23 ay 8 gün girovluqda qalıb. Hadrutda, Xankəndidə və Şuşada (həbsxanada) saxlanılıb. Girov olduğu müddətdə ona müxtəlif işgəncələr verilib, döyülüb. Nəticədə almacıq sümüyü, çənəsi və burnu sınıb. Azərbaycan tərəfinə təhvil verilərkən ağır vəziyyətdə olub. Ş.Şükürov ona işgəncə verən erməni hərbçilərdən bəzilərinin adlarını da çəkib: "Biri Mixail Balasanyan, digəri Elmira Aqayan idi".

Zərərçəkmiş İman Quliyev ifadəsində 1989-cu il dekabrın 1-də həmkəndliləri ilə yük maşınında ot yığmaqdan qayıdarkən ermənilər tərəfindən döyülərək zorla Qafan rayonuna aparıldıqlarını bildirib. O, Ermənistanda saxlanıldıqları müddətdə döyüldüklərini, işgəncəyə məruz qaldıqlarını, üzərlərindəki pulların əllərindən alındığını deyib.

Zərərçəkmiş şəxs Əbülfət Qasımov ifadəsində deyib ki, 1994-cü il yanvarın 12-də Füzuli rayonu Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində Ermənistan silahlı qüvvələrinə qarşı döyüşərkən yaralanıb. Bu zaman əsir götürülüb. Zərərçəkmiş şəxs bildirib ki, Xankəndi şəhərində yerləşən istintaq təcridxanasının işçilərindən Artur, Armen Samo, Maksim, Mişa və adlarını xatırlamadığı ermənilər azərbaycanlı əsir və girovları rezin dəyənəklərlə, yumruq-təpiklə, armaturla və digər küt əşyalarla döyüb işgəncələr veriblər. O, Xəlil Hacıyevlə birlikdə ermənilərə məxsus avtomobillə əsirlikdən qaçaraq Ağdam rayonu, Qərvənd kəndi ərazisinə gəlib.

Zərərçəkmiş Həbib Kazımov ifadəsində 1992-ci ildə hərbi xidmətini çəkməsi ilə əlaqədar Qubadlı rayonu ərazisindəki döyüş mövqelərinə yollandığını bildirib. 1993-cü il sentyabrın 3-də Əliquluuşağı kəndində gedən döyüşlərdə yaralanıb, nəticədə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülüb. O, əsirlik müddətində Xocavənddə, Şuşa həbsxanasında və Xankəndidə saxlanılıb. H.Kazımov əsirlikdə daim döyüldüyünü, işgəncələrə məruz qaldığını deyib. 1995-ci ilin mart ayının ortalarında həmin həbsxanada ermənilər tərəfindən vəhşicəsinə döyüldüyü üçün Xankəndi şəhər uşaq xəstəxanasına müalicə olunmağa aparılıb və əsirlikdən azad olunanadək (1995-ci il mayın 8-i) orada saxlanılıb. Qeyd edib ki, Şuşa həbsxanasında əsirlikdə saxlanıldığı müddətdə Qor, Vrej, Artur, Lyoşa, Lyoxa, Roba, Vanya, Kamo, Samvel və Mişa adlı ermənilər həm birlikdə, həm də ki, ayrı-ayrılıqda olmaqla ona qarşı zorakılıq ediblər.

"Sumqayıtdan olduğumu bildiklərinə görə daha çox döyürdülər. Deyirdilər türkdür, döyün", - deyə o bildirib.

Zərərçəkmiş şəxs Bayram Rüstəmov ifadəsində 1993-cü il avqustun 30-da Qubadlı rayonunda yerləşən Qarağac kəndində həmkəndlisi Əliyev Mehman Vəliş oğlu ilə birlikdə girov götürüldüyünü bildirib. Onlar Cəbrayıl rayonunun "Gəyən" düzü adlanan yerə aparılıb. Orada bir gün saxlanıldıqdan sonra Xankəndi şəhərində yerləşən keçmiş 366-cı motoatıcı alayının həyətindəki zirzəmiyə aparılaraq orada saxlanılıb. Ermənilər onlara hər gün işgəncə veriblər, hər gün armatur, rezin dəyənək, yumruq-təpiklə döyərək işlədiblər, ac saxlayıblar. Həmin yerdə təxminən 1 il 5 ay saxlanılıb.

Ermənilər onları işğal olunmuş Ağdam rayonuna apararaq binaları sökdürüb materiallarını, eləcə də meşələri doğratdırıb odunlarını Xankəndi şəhərinə daşıtdırıblar. Orada 1 il 5 ay saxlanıldıqdan sonra Şuşa həbsxanasına aparılıblar. Ermənilər tərəfindən onlar 6 ay həbsxanada saxlanıldıqdan sonra işlətmək üçün Xocavənd rayonunun Ağbulaq kəndinə aparılıblar. 1995-ci ilin oktyabrında Qədir və Vüqar adlı əsirlərlə birlikdə Ağbulaq kəndi yaxınlığında meşəyə girərək 10-12 gün yol getməklə Ağdam rayonunun Əfətli kəndinə çatıb, oradan isə Ağcabədi istiqamətində hərəkət edib girovluqdan azad olub.

Zərərçəkmiş Cavidan Qasımov bildirib ki, 2021-ci il yanvarın 29-da saat 18 radələrində Ermənistanın sərhədində Laçın rayonu ərazisində yerləşən postdan əsgər yoldaşı Aydın Gülmalıyevlə birlikdə silahsız çıxıb digər posta gedərkən dumanlı havada yolu azıblar. Bu zaman onlar Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb.

Səhəri gün Yerevan şəhərinə aparılıblar. Orada onlar ayrı-ayrı otaqlarda saxlanılıb, təhqir edilib və bədənlərinə zərbələr vurulub. Yanvarın 31-də Şuşa şəhərində Azərbaycan tərəfinə təhvil veriliblər.

Zərərçəkmiş şəxs Əlizamin Qaraşov bildirib ki, 1993-cü il sentyabrın 30-da Ermənistan silahlı qüvvələri yaşadığı Həmzəli kəndinə soxulublar. Ailə üzvləri əvvəlcədən kəndi tərk ediblər, o, kənddə tək qalıbmış. Ermənistan hərbçiləri onu girov götürüblər. Girov götürülərkən 13 yaşı olub. Girovluqda olan zaman əvvəlcə Xocavəndə, sonra Xankəndiyə aparılıb. Xankəndidə ona və digər azərbaycanlı girovlara qarşı işgəncələr verilib, müxtəlif işlərə cəlb olunub. Xankəndidə erməni nəzarətçisi onu o qədər döyüb ki, nəticədə sol tərəfindən qabırğa sümüyü sınıb. Başına açarla zərbələr vurulması nəticəsində isə baş nahiyəsi deşilib. 1994-cü il oktyabrın 6-da girovluqdan azad edilib.

Zərərçəkmiş şəxs Hüsniyyə İbrahimova bildirib ki, 1990-cı il martın 1-də saat 10 radələrində əri İbrahimov Rüstəm Zülfüqar oğlu və 12 yaşlı oğlu Abbas İbrahimovla birlikdə avtomobillə yaşadıqları Ermənistanın Göyçə mahalında, Basarkeçər rayonunun Böyük Mərzə kəndindən çıxıb Qazax şəhərinin mərkəzi bazarına gələrkən, İcevan rayonunun ərazisindən "Poçt" adlanan yerdən keçən zaman odlu silahlarla silahlanmış azı 20 nəfər silahlı yük avtomobilləri ilə onların avtomobilinin qabağını və arxasını kəsib, avtomobildən düşmələrini tələb ediblər. Onlar zorla İrəvan şəhərinə aparılıblar. İrəvanda ikimərtəbəli binanın zirzəmisinə salıblar. Həmin zirzəmidə onlardan başqa digər azərbaycanlı girovlar da olub.

Erməni hərbçilər onları hər gün silahların qundağı ilə, dəmir predmetlərlə, yumruq-təpik zərbələri ilə bədənlərinin bütün nahiyələrinə çoxsaylı zərbələr vurub, sellofan torbaları yandıraraq əridib, damcılarını əllərinin, bədənlərinin üzərinə töküblər. Nəticədə H.İbrahimovanın sol qolu sınıb, əri Rüstəmin başının sümüyü əzilib, 12 yaşlı oğlu Abbas tamamilə taqətdən düşüb.

Silahlı dəstəsinin "Coni" ləqəbli üzvü girovluğun 2-ci və ya 3-cü günündə zirzəmidə əsirlərin gözünün qabağında Ağdərə rayonundan əsir düşmüş 20 yaşlı, adını bilmədiyi azərbaycanlı oğlanın boğazını dəryazla kəsib, qanını stəkana töküb "Türklərin qanını belə içəcəyik" deyərək içib. Həmin cavan oğlanın qanı axaraq zirzəmidə ölüb. Onlar hər gün işgəncələrə məruz qalıb, martın 8-də girovluqdan azad ediliblər.

Zərərçəkmiş Cümşüd Əliyev ifadəsində deyib ki, 1992-ci ildə Füzuli rayonunda Ermənistan silahlı qüvvələrinə qarşı döyüşərkən yaralanıb, nəticədə əsir götürülüb. Onu əvvəlcə Xocavəndə, daha sonra Qarakəndə apardılar. Əsir olduğu 10 gün müddətində hər gün döyülüb, işgəncələrə məruz qalıb.

Zərərçəkmiş şəxs Yavər Nəcəfov Laçında anadan olduğunu, hərbi xidmətdən sonra Sumqayıt şəhərində yaşadığını bildirib. O, Laçına valideynlərini gətirmək üçün gedərkən, 1992-ci il mayın 17-də Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüb və Gorus şəhərinə aparılıb. Onu Gorus Polis İdarəsinin zirzəmisində saxlayıblar. İyunun 13-də girovluqdan azad edilərək Azərbaycana təhvil verilib.

Zərərçəkənlər həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin də suallarını cavablandırıblar.

Məhkəmə prosesində həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmə prosesi iyulun 10-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına suiqəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Xankəndidə keçirilən Zirvə görüşü xarici mətbuatda geniş yer alıb




İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünün Azərbaycanın Xankəndi şəhərində keçirilməsi İran mətbuatında geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, İranın rəsmi xəbər agentliyi İRNA, həmçinin "Mehr", İSNA, İLNA və digər internet resurslarında, "Kayhan" qəzetində Azərbaycanda keçirilən ECO həftəsinə geniş yer ayrılıb. Dərc olunan materiallarda İran Prezidenti Məsud Pezeşkianın Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü xüsusilə vurğulanıb.

Bildirilib ki, ECO çərçivəsində həyata keçirilən iqtisadi layihələr üzv dövlətlərin iqtisadi inkişafına təkan verir. İran enerji resurslarına malik ölkə kimi ECO-nun inkişafında maraqlıdır.

Saytlarda Azərbaycanın iqtisadi inkişafından bəhs olunub, tədbirin yüksək səviyyədə keçirildiyi vurğulanıb və rəsmi Bakının ECO çərçivəsində fəal olduğu bildirilib.

* * *

"Bakıda yaradılacaq İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Təmiz Enerji Mərkəzi regionun enerji təhlükəsizliyinə töhfə verəcək, enerji resurslarından istifadənin səmərəliliyini artıracaq, qlobal iqlim böhranı ilə mübarizədə yeni stimul olacaq".

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin "Sabah" qəzetinin ECO-nun Xankəndidə keçirilən 17-ci Zirvə görüşünün yekunlarına həsr olunmuş bazar günü buraxılışında deyilir.

Nəşr Azərbaycanda Təmiz Enerji Mərkəzinin yaradılması ilə bağlı təsis sənədlərinin ratifikasiyasının yekun mərhələsi barədə bəhs edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana istinadən yazır.

"Təsis sazişinin mətni ötən ay Böyük Millət Məclisinə (Türkiyə Parlamenti) təqdim edilib və yaxın vaxtlarda parlamentin xarici əlaqələr üzrə komissiyasında baxılacaq", - deyə qəzet Türkiyə və Azərbaycanla yanaşı, İran, Pakistan, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanın da qərarı dəstəklədiyini xatırladaraq izah edir.

Yazıda əsas diqqət ECO ölkələrinin bərpaolunan enerji mənbələri sahəsində istifadə olunmamış potensialına yönəldilir.

"Enerji sektorunda ECO ölkələrinin addımlarının əlaqələndirilməsi və sıx əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir ki, bu da Bakıda gələcək Təmiz Enerji Mərkəzinin strateji rolunu vurğulayır", - deyə materialda deyilir.

* * *

İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndidə keçirilmiş 17-ci Zirvə görüşü Özbəkistan mətbuatında da geniş yer alıb.

AZƏRTAC xəbər verir ki, Özbəkistanın UZA milli xəbər agentliyi ilə yanaşı, Gazeta.uz, "Özbəkistan xəbərləri" (upl.uz), "Uzdaily", "Uznews", "İşgüzar Özbəkistan" və digər internet resursları hər iki ölkənin prezidentləri arasında yaranan dostluq münasibətləri, ikitərəfli əlaqələrin inkişafı və beynəlxalq əhəmiyyətə malik olan birgə layihələrin həyata keçirilməsini əhatəli işıqlandırıblar.

Materiallarda iyulun 1-də Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında "Green Corridor Union" birgə şirkətinin yaradılması da nəzərə çatdırılıb. Qeyd olunub ki, bu layihə Avropaya "yaşıl enerji" ixrac etmək üçün yaradılıb. Hər 3 ölkənin geniş alternativ enerji əldə etmək potensialı var və ölkələr bu potensialdan birlikdə istifadə etmək niyyətindədirlər.

Vurğulanıb ki, Azərbaycan ilə Özbəkistan arasındakı münasibətlər ECO üzvləri üçün nümunədir. Azərbaycan ECO həftəsi keçirməklə təşkilatın daha sıx iqtisadi və siyasi inteqrasiyasını təmin edib. Mərkəzi Asiya respublikalarının iqtisadi, nəqliyyat, tranzit imkanları və coğrafi mövqeyi ECO-nun daha səmərəli regional qurum olmasını şərtləndirir. Özbəkistan üzv dövlətlərlə həmişə yeni texnologiyalar, innovasiyalar üzrə daha dərin əməkdaşlıq əlaqələri qurmaqda maraqlı olub.

* * *

İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Xankəndi Zirvə görüşü Türkmənistan mediasında olduqca geniş şəkildə işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, ofisi Türkmənistanda yerləşən nüfuzlu "News Central Asia" informasiya portalında, eləcə də ölkənin "Orient", "Turkmenportal", "Ashgabattimes" və "Atavatanturkmenistan" internet informasiya resurslarında Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, xarici işlər naziri Rəşid Meredovun Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü, Zirvə görüşündə iştirakı və çıxışı barədə materiallar dərc olunub.

Materiallarda ECO həftəsi çərçivəsində Ağdamda Gənclər Forumu, Laçında Qadınlar Forumu, Füzulidə isə İşgüzar Forum keçirilməsinin önəmi vurğulanıb. Qeyd olunub ki, ECO-nun 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı "İmarət" Kompleksində Qarabağ atlarının "Zəfər" şousunu xüsusi maraqla izləyiblər.

Dərc olunan yazılarda Azərbaycanın iqtisadi inkişafı, müstəqil xarici siyasəti və ECO daxilindəki fəal rolu nəzərə çatdırılıb. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük beynəlxalq nüfuza malikdir.

# Pakistan Milli Assambleyasının Sədri ölkəmizə rəsmi səfərə gəlib



**Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq iyulun 6-da ölkəmizə rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Milli Məclis Sədrinin müavini Musa Qasımlı, Pakistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Kamaləddin Qafarov, hər iki ölkənin səfirləri Xəzər Fərhadov, Qasım Mohiuddin və digər rəsmi şəxslər qarşılayıblar.

Pakistan Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq ölkəmizə rəsmi səfəri çərçivəsində bir sıra görüşlər keçirəcək, qarşılıqlı münasibətlərin inkişafına dair fikir mübadiləsi aparacaq.

*"Azərbaycan"*

# Pakistan İslam Respublikası Milli Assambleyasının nümayəndə heyəti Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib

**Ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiqin başçılıq etdiyi nümayəndə heyəti iyulun 7-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.**






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub, tər çiçəklər düzüb. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı, Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Kamaləddin Qafarov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Parlamentin Mədəniyyət komitəsində ictimai dinləmə keçirilib

**İyulun 7-də Milli Məclisin Mədəniyyət komitəsində "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliğinə müasir yanaşma" mövzusunda ictimai dinləmə keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, dinləmədə deputatlar, aidiyyəti dövlət qurumlarının rəhbərləri və nümayəndələri, sahə mütəxəssisləri iştirak ediblər.

Komitənin sədri Polad Bülbüloğlu tədbiri açaraq, bu gün ölkəmizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyini və bu istiqamətdə tarixi və mədəni abidələrə münasibətdə müvafiq işlərin görülməsi ilə bağlı fikirlərini açıqlayıb. O, tarixi abidələrimizin bərpası, mühafizəsi, tədqiqi və təbliği sahəsində mühüm addımların atıldığını bildirib. Həmçinin tarix və mədəniyyət abidələrimizin qorunmasına ictimaiyyət tərəfindən diqqət və qayğının artdığını söyləyib.

Sonra iclasda mədəniyyət naziri Adil Kərimli çıxış edib. O, Milli Məclisin Sədri Sahibə Qafarovaya parlamentlə icra hakimiyyəti strukturları arasında dialoqun təmin edilməsi ilə bağlı belə platformaların həyata keçirilməsinə dəstək verdiyinə görə təşəkkürünü ifadə edib. Mövzunun əhəmiyyətindən danışan nazir tarixi və mədəni abidələrin Azərbaycanın mədəni irsinin tərkibi olduğunu deyib. Azərbaycan Prezidentinin rəhbərliyi ilə zəngin mədəni irsimizin, mənəvi dəyərlərimizin qorunması sahəsində məqsədyönlü ardıcıl işlərin görüldüyünü vurğulayıb.

Nazir bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra mədəniyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsində yeni istiqamətlər müəyyən edilib və bunlar "Azərbaycan Mədəniyyət strategiyası 2040" sənədinin layihəsində öz əksini tapıb. O, mədəni irsin növləri və əhatə dairəsi, onun idarə olunması, hüquqi çərçivəsinin müəyyən edilməsi kimi məsələlərin vacibliyindən söhbət açıb. Nazirlikdə işçi qrupunun yaradıldığını, "Mədəni irs haqqında" qanun layihəsi üzərində işlərin aparıldığını, habelə mədəni irsə vahid baxış, vahid idarəetmənin formalaşdırılması, mədəni irsin bərpası, qorunması və təbliği istiqamətində tədbirlər planının hazırlandığını diqqətə çatdırıb.

Adil Kərimli hazırda 6150 qeydiyyatda olan tarixi mədəniyyət abidələrinin mövcud olduğunu, onlardan 4300-dən çoxunun Mədəniyyət Nazirliyinin idarəetməsində olduğunu, qeydiyyat, pasportlaşdırılma ilə bağlı məsələlərin vahid çərçivədə həyata keçirilməsinin planlaşdırıldığını deyib. Bu istiqamətdə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" qanuna edilən son dəyişikliyin məqsədəmüvafiq olduğunu qeyd edib.

Nazir tarix və mədəniyyət abidələrinin qorunması sahəsində təbliğat və maarifləndirmə işinin mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. Qanunvericilikdə hər kəsin mədəni irsə hörmətlə yanaşması, ona qayğı göstərməsi, qoruması ilə bağlı öhdəliyinin nəzərdə tutulduğunu bildirib. Mədəni irsə bağlılıqla bağlı maarifləndirmə işinin təşkilində aidiyyəti dövlət qurumlarının, medianın, ictimaiyyətin rolundan bəhs edib.

Adil Kərimli bu gün Prezidentin tapşırığı ilə tarixi və mədəniyyət abidələrinin bərpası istiqamətində ciddi işlərin həyata keçirildiyini, xüsusilə işğaldan azad edilmiş ərazilərdə dağıdılmış və zərər görmüş abidələrin bərpası və konservasiyası ilə bağlı genişmiqyaslı layihələrin icra olunduğunu vurğulayıb. Bu sahədə Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən önəmli addımların atıldığını xüsusi qeyd edib.

Dinləmədə Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva, deputatlar Şahin Seyidzadə, Əlibala Məhərrəmzadə, Elnarə Akimova, Gülşən Paşayeva, Ülviyyə Həmzəyeva, Sahib Alıyev, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək, tarix və mədəniyyət abidələrinin mühafizəsi, milli mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində ölkəmizdə görülən işlər barədə fikirlərini açıqlayıblar. Tarix və mədəniyyət abidələrinin elektron reyestrinin yaradılması ilə bağlı məsələnin vacibliyindən bəhs ediblər. Həmçinin milli-mənəvi dəyərlərimizin qorunmasının gənc nəslə aşılanmasının önəmini qeyd ediblər. Abidələrin mühafizəsini tənzimləyən qanunvericilik bazasının formalaşdığını və bu istiqamətdə təkmilləşdirmə işinin davam etdirildiyini bildiriblər.

Tədbirdə çıxış edən Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Azərbaycan Memarlar İttifaqının Memarlıq irsi üzrə komissiyasının sədri Rizvan Bayramov, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru Ərtegin Salamzadə, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev, müstəqil ekspert Faiq Nəsibov abidələrin qorunmasında institusional, maliyyə, insan resurslarının zəruriliyi, bərpa üzrə mütəxəssislərin hazırlanması, milli irsə diqqət və qayğı sahəsində ictimaiyyətin maarifləndirilməsi məsələlərinin əhəmiyyətini vurğulayıblar. Tarix və mədəniyyət abidələrinin aşkarlanması, bərpası, onların dövlət tərəfindən qorunan abidələrin siyahısına daxil edilməsi istiqamətində davamlı işlərin həyata keçirildiyini söyləyiblər. Ölkəmizin ərazisində olan qədim yaşayış məskənləri ilə bağlı arxeoloji və memarlıq abidələrinin tədqiqinin, maddi mədəniyyət abidələrinin mühafizəsinin həm də beynəlxalq səviyyədə mühüm əhəmiyyət kəsb etdiyini bildiriblər. Abidələrin vəziyyətinə və istifadəsinə nəzarətin gücləndirilməsi, onlara vurulan zərərlə bağlı məsuliyyətin müəyyən edilməsi, onların mühafizəsi sahəsində müasir texnologiyalardan geniş istifadə edilməsi və digər məsələlər barədə fikirlərini bölüşüblər.

Müzakirələr zamanı mədəniyyət naziri Adil Kərimli çıxışlarda səsləndirilən fikirlərə münasibət bildirib.

İctimai dinləmənin sonunda parlamentin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu mövzu ətrafında səmərəli müzakirələrin keçirildiyini, iştirakçılar tərəfindən səslənən qeyd və təkliflərə görə təşəkkürünü ifadə edib.

*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat

## 229 mindən çox şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi bu ilin birinci yarımilində 229,5 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib.**

Onlardan 74 min şəxs münasib işlərlə təmin olunub, 9,8 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.

Cari ilin 6 ayında 6,1 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 139,6 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

## Nağd alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə 15 milyon manata yaxın ƏDV ödənilib

**Azərbaycan ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsinin fiziki şəxs olan istehlakçılara qaytarılması ilə bağlı layihə davam etdirilir.**

Dövlət Vergi Xidmətindən bildirilib ki, bununla bağlı cari ilin 6 ayı ərzində ümumilikdə 2665 müraciət daxil olub, onlardan 1768-i üzrə 14,8 milyon manat vəsait vətəndaşlara ödənilib, 868 müraciətə isə müvafiq qaydaların tələblərinə əsasən baxılmaqdan imtina edilib.



## Bu il İKZF-nin zəmanəti ilə sahibkarlara güzəştli şərtlərlə verilən kreditin həcmi açıqlanıb

**Cari il iyulun 1-nə olan məlumata görə, müvəkkil banklar tərəfindən İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) zəmanəti ilə sahibkarlara güzəştli şərtlərlə 587,9 milyon manat məbləğində kreditə zəmanət verilib.**



Bunun 38,2 milyon manatı cari ilin yanvar-iyun aylarının payına düşür.

Fonddan AZƏRTAC-a bildirilib ki, mexanizm çərçivəsində indiyə qədər zəmanət verilmiş kreditlərin orta müddəti 28 ay, fond tərəfindən sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki faiz dərəcəsi 6,2 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min manatdan 5 milyon manatadək təşkil edib.

Kreditlər sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesi, tikinti sektoru, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələrə, maşın və avadanlıq istehsalına, ticarət və xidmət sektoruna yönəldilib.

Fondun zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayılan kreditlər vasitəsilə maliyyələşən layihələr üzrə 5700 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

## Qazaxıstanın Maliyyə Bazarının Tənzimlənməsi və İnkişafı Agentliyinin nümayəndələri ilə görüş olub

**Azərbaycan Mərkəzi Bankında (AMB) təcrübə mübadiləsi məqsədilə səfərdə olan Qazaxıstanın Maliyyə Bazarının Tənzimlənməsi və İnkişafı Agentliyinin (QMBTİ) nümayəndə heyəti ilə görüşlər keçirilib.**




AMB-dən bildirilib ki, QMBTİ nümayəndələrinin işgüzar səfərinin əsas məqsədi ikitərəfli texniki əməkdaşlıq çərçivəsində maliyyə sahəsində tənzimləyici qurumlar arasında peşəkar dialoqun genişləndirilməsi olub. Görüşlər zamanı AMB nümayəndələri tərəfindən qiymətli kağızların qeydiyyatı, islam qiymətli kağızlarının tənzimlənməsi, həmçinin sekyuritizasiya prosesi və xüsusi maliyyə şirkətlərinin fəaliyyəti barədə məlumat təqdim edilib.

QMBTİ nümayəndə heyəti emissiya prospektinin, maliyyə hesabatlarının və digər sənədlərin nəzərdən keçirilməsi və təsdiqi üçün normativ tələblər, yaşıl istiqrazlar üçün hüquqi çərçivə, korporativ qiymətli kağızların emissiyasına diferensial yanaşmanın tətbiqi, istiqrazlara zəmanət və subsidiyalar kimi mühüm mövzular üzrə təmsil etdikləri qurumun təcrübəsini bölüşüb.

Qeyd edək ki, bu səfər cari ilin may ayında Mərkəzi Bank ilə Qazaxıstanın Maliyyə Bazarının Tənzimlənməsi və İnkişafı Agentliyi arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində təşkil olunub. Memorandum maliyyə bazarının vəziyyəti və inkişafı, bazarın tənzimlənməsi və nəzarətinə dair standartlar və tələbləri, eləcə də bu sahədə innovativ mexanizmlər üzrə məlumat mübadiləsinin aparılmasını və bazar iştirakçılarının fəaliyyətinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur.

## Sənayenin inkişafında maneələrin və çətinliklərin aradan qaldırılmasına start verildi

**Dövlət başçısının tapşırığı ilə iqtisadiyyatın gələcək dövrün çağırışlarına uyğunlaşdırılmasına imkan verməsi məqsədilə yaradılan İqtisadi Şuranın 11 aprel 2025-ci il tarixli qərarına əsasən, şuranın tərkibində Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrupu yaradılmışdır.**



İşçi qrupunun yaradılmasında əsas məqsədlər sahibkarlıq fəaliyyətinə maneə yaradan, habelə qurumların səlahiyyətlərindən irəli gələn sui-istifadə hallarının müəyyən edilməsi və aradan qaldırılması, qanunvericilikdə olan boşluqlardan sahibkarların əleyhinə istifadə hallarının qarşısının alınması, iqtisadiyyatın müxtəlif sahələri üzrə sahibkarların üzləşdiyi problemlərin dərindən araşdırılması və təhlili, müvafiq təkliflərin hazırlanması və təqdim olunmasında çevik və səmərəli fəaliyyətin təşkilindən ibarətdir.

Dövlət başçısı İşçi qrupunun qarşısında sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması tapşırığı qoymuşdur.

İqtisadi sahənin əsas sütunu olan sənaye sahəsində sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üzrə Koordinasiya Qrupunun rəhbəri "Mətanət A" Şirkətinin Müşahidə Şurasının sədri və Azərbaycan Tikinti Materialları İstesalçıları Assosiasiyasının (ATMİA) İdarə Heyətinin sədri Bəşirov Elxan Hidayət oğlu seçilmişdir. Koordinasiya qrupu ölkənin 100-dən çox aparıcı şirkətini özündə birləşdirir. Qrupun rəhbəri koordinasiya üzvləri ilə birgə maneə və çətinliklərlə bağlı təklifləri müzakirə edir, onları təhlil edərək optimallaşdırır və qanunvericiliyə uyğun formada layihələndirərək dövlət başçısının köməkçisinə təqdim edir.

Sahibkarlara yaradılan maneələr dövlət proqramlarının icrasını gecikdirir. Bu maneələr birdəfəlik aradan qaldırılmalı və bunun üçün lazımi tədbirlər görülməlidir.

Ölkənin sosialyönümlü iqtisadiyyatı və dövlət başçısı tərəfindən nümayiş etdirilən güclü siyasi iradəyə uyğun olaraq, ölkədə iqtisadi aktivliyin artırılması və insanların iş yerləri ilə təmin edilməsi iqtisadi siyasətin prioritetliyinin göstəricisidir.

Həyata keçirilən bütün bu tədbirlər və aparılan islahatlar sənaye sahələrinin sürətlə inkişafına daha da təkan verəcəkdir. Cənab Prezidentin sözü ilə desək, Azərbaycanda sənayeləşmə sürətlə inkişaf edir. Sənaye sahələrinin inkişafı isə güclü Azərbaycan deməkdir. Ulu Öndərimizin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı bu gün cənab Prezidentin həyata keçirdiyi iqtisadi islahatlarla reallığa çevrilmişdir.

Güclü iqtisadiyyat əhalinin rifahı, ölkənin sabitliyi, ordunun gücü, dövlətin təhlükəsizliyidir. Məhz iqtisadi gücümüzə söykənərək Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən 44 günlük Vətən müharibəsində torpaqlarımız düşmən tapdağından azad edildi. Hazırda iqtisadi gücümüzlə doğma torpaqlarımıza həyat yenidən qayıdır.

Cənab Prezident dəfələrlə "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır. Biz bu istiqaməti seçmişik və bu istiqamət bizə uğurlar gətirir" deyə bildirib.

Hər bir sahibkar ölkəmizin sosial-iqtisadi inkişafında, istehsal potensialını artırmaq üçün öz öhdəsinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirməlidir. Azərbaycanda dövlət tərəfindən sahibkarlar üçün hər cür şərait yaradılıb, bütün lazımi dəstək göstərilir. Şübhəsiz, dövlət və özəl sektorun birgə fəaliyyəti ilə ölkənin sosial-iqtisadi inkişafı üçün qarşıya çıxan maneə və çətinliklərin həlli istiqamətində həyata keçirilən tədbirlər öz töhfəsini verəcəkdir.

Bu səbəbdən sahibkarlar dövlət tərəfindən yaradılan portal (**https://economicreforms.gov.az/**) vasitəsilə maneə və çətinlikləri qeyd etməklə öz təkliflərini verməlidirlər.

*"Mətanət A" şirkəti*

# Regionun gələcəyini formalaşdıran 17-ci Zirvə görüşü

## ECO-nun bu sammiti inteqrasiya, sabitlik və tərəqqi yolunda birliyin nümunəvi təməlini qoydu

**İndiki qloballaşma şəraitində regional əməkdaşlıq və iqtisadi inteqrasiya dünya gündəmində mühüm yer tutur. Bu baxımdan İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Zirvə görüşləri üzv ölkələr arasında siyasi, iqtisadi və sosial sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün əhəmiyyətli platformalardan biri hesab olunur.**



İyulun 3-4-də Xankəndidə keçirilmiş növbəti Zirvə görüşü həm təşkilatın gələcək strateji hədəflərinin müəyyənləşdirilməsi, həm də bölgədə sülh, əməkdaşlıq və davamlı inkişaf üçün yeni imkanların yaradılması baxımından xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev çıxışı zamanı vurğuladı ki, işğaldan azad edilmiş torpaqlarımızda artıq bir neçə əhəmiyyətli beynəlxalq tədbir reallaşdırılıb: "2023-cü ildə Şuşada ECO-nun Nazirlər Şurasının iclasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşünü qeyd etmək istərdim". Dövlət başçısı bu fikirləri söyləməklə 17-ci Zirvə görüşünün Xankəndidə keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Zirvə görüşünün məhz Xankəndidə təşkili bir sıra mühüm mesajları özündə ehtiva edir. Birinci növbədə qısa zamanda Qarabağ və Şərqi Zəngəzurun ölkənin ümumi coğrafiyasına inteqrasiyasını göstərir ki, bu da bölgədə həyatın normallaşdırılmasından xəbər verir. Tədbir həmçinin regionun təhlükəsiz və sabit şəraitdə bərpası və yenidən qurulmasına beynəlxalq marağın artdığını göstərir.

İkincisi, Zirvə görüşünün məhz Xankəndidə keçirilməsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin beynəlxalq səviyyədə qətiyyətli nümayişidir. Bu, ölkənin öz torpaqlarında tam nəzarətini bərpa etməsi və bölgədə sülhün bərqərar olması üçün irəli sürdüyü strategiyanın əyani təsdiqidir. Beləliklə, tədbir siyasi baxımdan həm də regionda yeni bir dövrün başlanğıcı kimi qəbul olunur.

Daha bir vacib məqam isə beynəlxalq ictimaiyyətin diqqətinin yenidən Qarabağ bölgəsinə yönəlməsidir. ECO kimi beynəlxalq təşkilatın üzvlərinin Xankəndidə bir araya gəlməsi və birgə əməkdaşlıq gündəmini müzakirə etməsi regionun dayanıqlı inkişafı üçün beynəlxalq dəstəyin artmasına şərait yaradır. Bu, bərpa işlərinin daha geniş miqyasda həyata keçirilməsi və iqtisadi inkişafın sürətləndirilməsi üçün vacibdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri Vüsalə Cəfərova Zirvə görüşünün gündəliyini şərh edərək bildirib ki, bu görüş təşkilatın regional inteqrasiyanı dərinləşdirmə və dayanıqlı inkişaf istiqamətində strateji trayektoriyasında əhəmiyyətli hadisə kimi qiymətləndirilir: "ECO ölkələri 8 milyon kvadratkilometrdən çox ərazini özündə birləşdirir və təxminən 550 milyon nəfərlik əhalisi ilə dünya əhalisinin 6 faizindən çoxunu təşkil edir. Zəngin təbii ehtiyatlar, geoiqtisadi mərkəz kimi strateji mövqe və artan iqtisadi ambisiyalar bu regionu qlobal ticarət və investisiya mərkəzinə çevirmək potensialına malik edir. 2023-cü il üzrə ECO ölkələrinin ticarət dövriyyəsi 1016 trilyon dollar olub və bu, qlobal ticarətin 4,31 faizini təşkil edir. 2022-ci illə müqayisədə bu rəqəm azalsa da (4,48 faiz), böyük ticarət potensialına malikdir. 2023-cü ildə ECO ölkələrinin ticarət kəsiri 118,4 milyard dollar olub ki, bu da regionun ixrac imkanlarının mövcud potensialdan tam istifadə etmədiyini göstərir".

V.Cəfərova onu da qeyd edib ki, xarici birbaşa investisiyalar (XBİ) sahəsində də müsbət dinamika qeydə alınır. 2020-ci ildə 18 milyard, 2021-ci ildə 21,4 milyard, 2022-ci ildə isə 25,7 milyard dollar dəyərində XBİ axınları qeydə alınıb. Bu, 3 il ərzində 30 faizlik artım deməkdir: "Həmçinin cənab Prezidentin dediyi kimi, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri Azərbaycan üzərindən keçir və ECO-ya üzv ölkələrin əksəriyyəti bu dəhlizlərdən istifadə edir. Ölkəmiz bu sahədə də ECO-ya üzv ölkələrə böyük töhfə verə bilər".

Qeyd edək ki, ECO dövlətlərini bir-birinə bağlayan iqtisadi amillər arasında ticarət dövriyyəsinin artırılması, nəqliyyat və enerji resurslarının paylaşılması, investisiya mühitinin yaxşılaşdırılması, sənaye və texnoloji əməkdaşlığın gücləndirilməsi, eləcə də regional infrastrukturun inkişafı mühüm yer tutur. Bu da vacib amildir ki, üzv ölkələr arasında gömrük prosedurlarının sadələşdirilməsi və tarif maneələrinin aradan qaldırılması ticarətin səmərəliliyini artırır və iqtisadi inteqrasiyanı dərinləşdirir. Kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzv dövlətlərin ərzaq təhlükəsizliyini möhkəmləndirir və regional resursların daha səmərəli istifadəsinə şərait yaradır. Qlobal və regional iqtisadi çağırışlara qarşı birgə reaksiyanın təşkili, texnoloji yeniliklərin tətbiqi və rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi də ECO üzvləri arasında əməkdaşlığın önəmli istiqamətlərindəndir.

ECO-nun 17-ci Zirvə görüşü regional inteqrasiyanın sürətləndirilməsi və iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində mühüm addımların atılması üçün vacib platforma rolunu oynadı. Görüş zamanı ticarət maneələrinin azaldılması, sərhəd prosedurlarının sadələşdirilməsi və birgə iqtisadi təşəbbüslərin dəstəklənməsi kimi məsələlər geniş müzakirə edildi.

Xankəndi Zirvəsi dünyaya bir neçə mühüm mesaj verdi. Tədbir Azərbaycanın öz torpaqlarında tam nəzarəti bərpa etdiyini və bunun beynəlxalq aləmdə tanındığını göstərdi. ECO-ya üzv dövlətlər bir daha nümayiş etdirdilər ki, regional əməkdaşlıq sülh, stabillik və iqtisadi inkişaf üçün vacibdir və bu istiqamətdə birgə səylər davam etdiriləcək. Ən önəmlisi, bu görüş regionda sülhün bərqərar olması və qarşılıqlı anlaşmanın möhkəmlənməsi üçün vacib platforma olduğunu göstərdi.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

## Əməyin təhlükəsizliyi və gigiyenası mövzusunda seminar keçirilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Beynəlxalq Əmək Təşkilatının (BƏT) birgə təşkilatçılığı ilə "Əməyin təhlükəsizliyi və gigiyenası sahəsində fundamental konvensiyaların və BƏT-in digər nəzarət mexanizmlərinin tətbiqi" mövzusunda seminar öz işinə başlayıb.**

Seminar əməyin təhlükəsizliyi və gigiyenası sahəsində BƏT-in əsas alətlərinin praktiki tətbiqi, müvafiq sahə ilə bağlı aidiyyəti dövlət qurumlarını və sosial tərəfdaşları məlumatlandırmaq və bu sahədə potensialı artırmaq məqsədini daşıyır.

Nazirliyin Əmək siyasəti şöbəsinin müdiri Fuad Heydərov, ASK-nin vitse-prezidenti Vüqar Zeynalov, AHİK sədrinin müşaviri Fuad Ələkbərov açılış nitqləri ilə çıxış edərək son illər ölkəmizdə həyata keçirilən əmək islahatları, əməyin təhlükəsizliyi və gigiyenası sahəsində BƏT-in əsas alətlərinin tətbiqi ilə bağlı məlumatlar veriblər.

Bu sahədə BƏT-lə geniş əməkdaşlıq gündəliyinə malik olan ölkəmizin ötən dövrdə təşkilatın 60-a yaxın konvensiyasını, o cümlədən əməyin mühafizəsi ilə bağlı sənədlərini ratifikasiya etdiyi diqqətə çatdırılıb. Həmin konvensiyalardan irəli gələn prinsiplər əsasında əmək qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atıldığı vurğulanıb.



Azərbaycanla BƏT arasında iki Layiqli Əmək üzrə Ölkə Proqramının uğurla icra olunduğu və növbəti proqramın da imzalanmasının nəzərdə tutulduğu qeyd olunub.

BƏT-in ekspertləri tərəfindən əməyin təhlükəsizliyi və gigiyenası, təhlükəsiz və sağlam iş mühiti, habelə bu sahədə BƏT-in əsas standartları ilə bağlı təqdimatlar edilib. Təşkilatın müvafiq sahə ilə bağlı konvensiyalarına dair məlumatlar verilib.

Aidiyyəti dövlət qurumlarının və sosial tərəfdaşların nümayəndələrinin də iştirakı ilə keçirilən seminarda BƏT-in digər nəzarət mexanizmlərinin tətbiqi barədə təqdimatların edilməsi, fikir mübadilələri və müzakirələrin aparılması nəzərdə tutulub.

# ECO-dan Azərbaycana dəstək

## Qərbi azərbaycanlıların qayıdış hüququ Xankəndi Kommünikesində əksini tapıb




**Xalqımızın növbəti milli hədəfi 37 il əvvəl erməni şovinistləri tərəfindən yurd-yuvasından zorla qovulan yüz minlərlə soydaşımızın tarixi torpaqlarına - indiki Ermənistan ərazisinə sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qaytarılmasının təmin olunmasıdır. Buna görədir ki, soydaşlarımıza qarşı törədilən etnik təmizləmənin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması dövlətimiz tərəfindən qarşıya əsas vəzifələrdən biri kimi qoyulub. Rəsmi Bakı qətiyyətlə bəyan edib ki, Qərbi Azərbaycana qayıdış həyata keçirilməyənə qədər bu məsələ beynəlxalq gündəlikdən düşməyəcək.**

İyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündəki çıxışı zamanı Prezident İlham Əliyev bir daha bu mötəbər tribunadan diqqətə çatdırdı ki, Ermənistandan deportasiya olunmuş qərbi azərbaycanlıların hüquqlarının təmin olunması böyük əhəmiyyət kəsb edir: "Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək".

### Bu məsələ prinsipial və ardıcıl şəkildə beynəlxalq gündəliyə gətirilir

3-4 iyul tarixlərdə Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün yekunu olaraq Sədrin Xülasəsi olan Xankəndi Kommünikesi qəbul olunub.

Tarixi Zirvə görüşündə qəbul edilən Xankəndi Kommünikesində həm də Ermənistandan qovulmuş azərbaycanlıların öz doğma yurdlarına ləyaqətli qayıdış hüququnun bir daha təsdiqlənməsinin əks olunması mühüm əhəmiyyət kəsb edir.

Bununla bağlı Qərbi Azərbaycan İcmasının bəyanatında deyilir ki, sözügedən mötəbər tədbirdə Qərbi Azərbaycan məsələsinin qaldırılması soydaşlarımızın sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə doğma yurdlarına qayıdışına beynəlxalq dəstəyin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir: "Qərbi Azərbaycan İcması qayıdış məsələsini prinsipial və ardıcıl şəkildə beynəlxalq gündəliyə gətirməsinə və bu məsələyə beynəlxalq aləmin birmənalı dəstəyini təmin etməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkür edir".

Vurğulayaq ki, qərbi azərbaycanlıların qayıdış hüququnun təmin edilməsi istiqamətində bu günə qədər dövlətimiz tərəfindən vacib addımlar atılıb.

Qərbi Azərbaycan İcmasının yeni Nizamnaməsi təsdiq olunub, Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların geriyə qayıtmasının təmin edilməsi ilə bağlı Qayıdış Konsepsiyası hazırlanıb. Qayıdış Konsepsiyası indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün Qərbi Azərbaycan İcmasının həyata keçirəcəyi fəaliyyətin məqsədlərini, prinsipləri, hazırlıq və icra tədbirləri üçün yol xəritəsini müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

Qərbi Azərbaycana qayıdış istiqaməti üzrə qeyri-hökumət təşkilatları (QHT) da fəallıq nümayiş etdirirlər. Hesabat dövründə Azərbaycan QHT-ləri beynəlxalq kürsülərdə - BMT-nin, ATƏT-in müxtəlif toplantılarında, xarici ölkələrdə bu mövzuda məsələlər qaldırıb, ictimai diskussiyalar açıb, yan tədbirlər təşkil etməyə nail olublar. Ümumilikdə bu tədbirlər ABŞ, Belçika, İspaniya, Rumıniya, Polşa, Türkiyə, Özbəkistan, Qazaxıstan kimi ölkələri əhatə edib.

Qafqaz Müsəlmanları İdarəsi də İrəvan Qazılığının bərpa edilməsi barədə qərar verib.

### Soydaşlarımız milli kimliklərinə görə etnik təmizləməyə məruz qalıblar

Bu il iyunun 21-22-də İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasının yekununda bir sıra qərarlarla yanaşı, ilk dəfə olaraq Qərbi Azərbaycan İcması ilə bağlı qətnamə qəbul olundu. ECO çərçivəsində ilk dəfə olaraq qəbul olunan "Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ" adlı qətnamədə ECO-ya üzv ölkələrin Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyi ifadə olunur, habelə Ermənistan tərəfindən sözügedən icmanın hüquqlarının inkar olunması qınanılır. Mühüm əhəmiyyətə malik qətnamənin qəbul olunması qərbi azərbaycanlı soydaşlarımızın qayıdış hüququna beynəlxalq dəstəyi bir daha ifadə etdi.

ECO Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasının İstanbul Bəyannaməsində indiki Ermənistan ərazilərindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququnun mövcudluğu təsdiqlənir və Ermənistan tərəfinin Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır.

Bu günə qədər də Ermənistan tərəfi qərbi azərbaycanlıların qayıdışı məsələsi ətrafında manipulyasiyalar edərək guya bunu Azərbaycanın ərazi iddiası kimi təqdim edir. İrəvan erməni şovinizmini ört-basdır etmək üçün həqiqəti beynəlxalq ictimaiyyətə təhrif olunmuş şəkildə çatdıraraq çaşqınlıq yaratmaq istəyir. Ancaq yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindən milli kimliklərinə görə etnik təmizləməyə məruz qalmaları tarixi faktdır və bununla bağlı arxivlərdə dəlil və sübutlar kifayət qədərdir. Ən önəmlisi isə odur ki, çox da uzaq tarixdə yox, cəmi 37 il əvvəl Ermənistan tərəfindən törədilən bu cinayət əməllərinin yüz minlərlə şahidi var, onlar ürəkləri onilliklərdir torpaq həsrəti ilə döyünən qərbi azərbaycanlılardır. Qaçqınlıq həyatına məhkum olan bu insanlar böyük ümid və inamla dədə-baba yurdlarına qayıdacaqları günləri gözləyirlər.

O günlərin uzaqda olmadığı da gerçəklikdir. Çünki qaçqın soydaşlarımızın hüquqlarının bərpası beynəlxalq platformalarda da müzakirə mövzusuna çevrilib. ECO-nun 17-ci Zirvə görüşündə qəbul edilən Xankəndi Kommünikesində bu məsələnin əksini tapması da göstərir ki, artıq qərbi azərbaycanlıların qayıdışı beynəlxalq səviyyədə də aktuallıq kəsb edir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Psixologiya Zirvəsi - 3" beynəlxalq konfransı keçirilib

**5-6 iyul tarixlərdə Bakı Slavyan Universitetində (BSU) "Psixologiya Zirvəsi - 3. Şəxsiyyət və Suverenlik: fərdi və milli kimliyin psixoloji aspektləri" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib. Tədbir BSU, Müasir Azərbaycan Psixoloqları Cəmiyyəti və Psixologiya Elmi-Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə gerçəkləşib.**



Konfransda BSU-nun rektoru Anar Nağıyev, Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, Müasir Azərbaycan Psixoloqları Cəmiyyətinin sədri Bəxtiyar Əliyev, Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Rüstəmov, Yıldız Teknik Universitetinin rektorunun müşaviri professor Mehmet Engin Deniz, dosent Ümit Arslan, professor Elmar Hüseynov, dosent Murat Artıran, dosent Gülnarə Həsənova, uzman psixiatr Elmir Təhməzov, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Təlim və Tədqiqatlar Departamentinin Tibb müəssisələrində təlimlərin idarə olunması şöbəsinin müdiri Emil İskəndərov, Azərbaycan Tibb Universitetinin Psixiatriya kafedrasının dosenti və Bakı Sağlamlıq Mərkəzinin Psixosomatika şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Araz Manuçehri Lalei və digər mütəxəssislər iştirak ediblər.

Tədbir Dövlət himninin səsləndirilməsi və Ulu Öndər Heydər Əliyevin, həmçinin ölkənin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsinin birdəqiqəlik sükutla anılması ilə başlanıb.

Açılış nitqi ilə çıxış edən BSU-nun rektoru Anar Nağıyev Azərbaycan psixoloqlarını bir araya gətirən III Beynəlxalq Psixologiya Zirvəsi Konfransına 2-ci dəfə evsahibliyi etməkdən məmnunluğunu bildirərək, konfransın "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirildiyini vurğulayıb. Rektor A.Nağıyev konfransın əsas istiqamətlərindən biri kimi milli kimliyin psixoloji aspektləri məsələsinin gündəmə gətirilməsinin xüsusi önəm daşıdığını qeyd edib, milli kimliyin formalaşmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərini və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. A.Nağıyev suverenliyin milli kimlikdə əhəmiyyətindən danışıb.

Milli Məclisin deputatı, Müasir Azərbaycan Psixoloqları Cəmiyyətinin sədri, AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev çıxışında şəxsiyyətin psixoloji xüsusiyyətlərinin suverenlik kontekstində təhlilinə toxunub. Prezident İlham Əliyevin ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpasında oynadığı rolu xüsusi qeyd edib.

Professor Bəxtiyar Əliyev Azərbaycanda psixologiya elminin formalaşma mərhələləri, bu sahədə aparıcı alimlərin rolu və beynəlxalq miqyasda psixologiya elminin inkişaf dinamikasından söhbət açlb. O, psixologiya elminin Azərbaycanın sosial-mənəvi inkişafında və əhalinin psixi durumunda strateji əhəmiyyət daşıdığını vurğulayıb.

Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Rüstəmov çıxışında Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətlərinin elm sahəsində də özünü göstərdiyini bildirib. O, institutun Türkiyənin aparıcı universitetləri ilə illərdir psixologiya sahəsində uğurlu təcrübə və bilik mübadiləsi apardığını söyləyib.

Yıldız Teknik Universitetinin rektorunun müşaviri, professor Mehmet Engin Deniz, TƏBİB-in nümayəndəsi Emil İskəndərov və ATU-nun Psixiatriya kafedrasının dosenti Araz Manuçehri Lalei çıxışlarında konfransın elmi və praktiki əhəmiyyətindən bəhs ediblər.

İkigünlük tədbir çərçivəsində müasir psixoloji yanaşmalar, psixoterapevtik metodlar, cəmiyyətin psixi rifahı, fərdi və milli identiklik, ailə psixologiyası, təhsil psixologiyası, uşaqlarda inkişaf problemləri və digər aktual mövzular ətrafında təqdimatlar edilib.

Professor Bəxtiyar Əliyev "Psixologiyada şəxsiyyət və suverenlik məsələsi", fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Rüstəmov "Zorakılıqsız ailə modeli: psixoloji müdaxilə və profilaktika yolları", professor Mehmet Engin Deniz "İş həyatında tükənmişlikdən xoşbəxtliyə: pozitiv psixologiyanın gücü", professor Elmar Hüseynov "Karyera planlama və özünü inkişaf etdirmə psixologiyası", dosent Ümit Arslan "Zor zamanlara hazırlıqlı olmaq: məktəblərdə itki və yas", dosent Gülnarə Həsənova "Neyroqrafika: şüurun transformasiya üsulu kimi", uzman psixiatr Elmir Təhməzov "Boşanmanın dinamikası", klinik psixoloq Narınc Rüstəmova "2024-cü ildə Azərbaycanda aparılan araşdırma əsasında uşaqlarda autizmin başlanğıcına təsir edən risk faktorlarının təhlili", psixoloq Ülviyyə Nəhmətova "Həll mərkəzli terapiya", sosial psixoloq Ülkər Zalova-Nuriyeva "Nəzəriyyədən dataya: psixoloji tədqiqatlarda yeni dövr", defektoloq-loqoped Səbinə Oruc Eyyub isə "Nitqin səslərlə imtahanı: dislaliyanın kök nöqtələri və bərpa strategiyaları" mövzularında elmi çıxışlar ediblər.

Konfransın bağlanış mərasimində tədbirin elmi və təşkilati uğurları yüksək qiymətləndirilib, gələcək illərdə bu ənənənin davam etdirilməsinin vacibliyi qeyd olunub.

Tədbir iştirakçılarla xatirə fotosunun çəkilməsi ilə yekunlaşıb.

***"Azərbaycan"***

◆ **Demoqrafiya**

# Qohum evliliyinə "yox" dedik, çünki...

- Ay Yaqut, deyirəm, özümüzün qora dərənimiz də var, səbət hörənimiz də. Nə üçün dağa-daşa düşək. Yadındadırmı, o vaxt uşaqların adlarını da bir-birinə yaraşdırdıq. Mən Bəyazı öz qızım kimi sevirəm. Bizim Ayaz da sizin gözünüzün qabağında böyüyüb...

Bu elçilik Yaqutun ürəyincə idi. Odur ki, əlini qaynı arvadının əlinin üstünə qoyaraq tezcə öz fikrini bildirdi:

- Ay Səriyyə, mən heç istəyərəmmi ki, xurcunumu əyəm, daşım gedib düşə qəribliyə. Amma qoy qardaşlar bir-biri ilə danışsınlar.

Elə həmin günün axşamı iki qardaş - Əmrahla İmran az qala bir ağızdan:

- Sümüyümüzü özgə sümüyünə calamayaq, - deyərək övladlarını evləndirmək qərarına gəldilər.

Sonra da kənd ağsaqqalları, yaxın qohum-əqraba bir yerə toplaşdı. "Əmioğlu ilə əmiqizinin kəbini göydə kəsilib" deyimini təkrar edərək gənclərə xoşbəxtlik arzuladılar.

Lakin illər əvvəl dərindən düşünülməyərək verilən bu xeyir-dua Ayazla Bəyazın xoşbəxtliyinə vəsilə olmadı. Gənc ailənin ilkini olan oğlan uşağı cəmi bir neçə gün yaşadı. İlyarım sonra cavanlar təxminən eynilə ikinci ağrını yaşadılar. Beləcə, bu cütlük gənclik illərinin bəxş etdiyi sevincdən məhrum olaraq, çalışdıqları sahələrdə həmkarlarından geri qalaraq yaşadıqları bölgə ilə Bakı arasındakı kilometrlərlə uzanan yolda, paytaxtın ən mötəbər klinikalarında günlərlə, aylarla vaxt itirdilər. Hər yerdə də həkimlər eyni sözü deyirdilər. Bu əzablara səbəb qohum evliliyidir...

Uzun əzablı yollardan keçən, xeyli müddət ardıcıl müalicə qəbul edən, az qala son ümüdləri də tükənən Ayazla Bəyaz, nəhayət, on il sonra sağlam övlad sahibi ola bildilər.

Yəqin ki, hər birimiz buna bənzər talelərin şahidiyik. Ona görə də uzun illərdir ölkəmizdə bu sahədə maarifləndirmə işləri aparılır. Həkimlər qohum evliliyinin fəsadlarından danışmaqdan yorulmadılar, peşman cütlüklər ətrafdakılara səsləndilər ki, amandır, səhv etməyin. Amma nəticəsi olmadı. Bu da statistik rəqəmlər: 2024-cü ildə ölkəmizdə 1935 qohum nikahı bağlanıb. Cari ilin beş ayında isə onların sayı 2034 olub. Bu sürətli artımın bir səbəbi qohum izdivacları sövdələşmələrinin, ümumiyyətlə, səngimədiyi idi. Digər, daha böyük bir səbəb isə qohumla nişanlanan gənclərin toyunun ilin birinci yarısında nikahlarının tezliklə, yəni iyulun 1-dək rəsmi qeydiyyatdan keçirilməsi məqsədindən qaynaqlanırdı.

Bir sözlə, maarifləndirmə tədbirlərinin fayda vermədiyi üçün dövlətin sözügedən məsələyə qarışması zərurətə çevrildi. İndi budur, iyulun 1-dən etibarən Azərbaycanda əmi, xala, bibi və dayı uşaqlarının evliliyinə qoyulan qadağa qüvvəyə minib. Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi Ailə Məcəlləsinə dəyişiklikdə öz əksini tapıb. Dəyişikliklə nikahın bağlanmasına mane olan halların sayı artırılıb. Məsələnin sənəddə öz əksini necə tapdığına diqqət yetirək. Beləliklə, "qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları; bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu nikaha daxil ola bilməz".



Təbii ki, dəyişikliyi ən çox dəstəkləyənlər həkimlərdir. Həkim-genetik Eldəniz Bayramov vurğulayır ki, qohum evliliyi genetik baxımdan risklidir:

- Qohumlar eyni genetik materialı paylaşdığı üçün nadir resessiv gen xəstəlikləri, irsi, irsi meyilli xəstəliklərin, məsələn, talassemiya, fenilketonuriya, hemofiliya, anadangəlmə metabolik pozğunluqlar, şəkərli diabetin övladlarda ortaya çıxmasının böyük ehtimalı var. Qohum evliliyindən doğulan uşaqlarda fiziki və ya əqli inkişaf pozuntuları - əqli gerilik, nitq ləngiməsi, autizm pozuntuları, eşitmə və görmə pozuntuları daha çox görülə bilər. Doğuş və hamiləlik problemləri, aşağı doğum çəkisi, ölü doğum riski, ana bətnində dölün inkişaf qüsurları da gözləniləndir.

Həkim həmçinin o fikrini də bölüşür ki, bu cür evliliklərin psixoloji və sosial fəsadları da var. Belə ki, sözügedən halların baş verdiyi ailələrdə daim stres yaşanır, ər və arvad öz aralarında günahkarlıq hissi keçirirlər. Beləliklə, irsiyyətlə bağlı problemlər ailədaxili münasibətlərə də mənfi təsir edir. Bir sözlə, cəmiyyətin sağlam genetik inkişafı üçün müxtəlif gen fondları vacibdir.

İxtiyar yaşlı Bakı sakini Nazim Tağıyev isə məsələnin digər bir tərəfinə toxunur:

- Biz dörd qardaş olmuşuq. Anam bizi qohum qızlarla evləndirməyi düşünürdü. Atam mane oldu. Həyat göstərdi ki, düzgün elədi, gəlinlərindən biri bakılı, biri naxçıvanlı, biri göyçaylı, biri tovuzludur. Görün, neçə yerdə qohumlarımız var. Necə deyərlər, ailəmiz şaxələnib. Fikrimcə, bir az da dərindən düşünəndə bu, müxtəlif bölgələrin insanlarının bir-birini yaxından tanımasına, sıx birləşməsinə, yerliçilik kimi hisslərdən uzaqlaşmasına bir dəstəkdir. Belə olduqda şəhərlə kənd də bir-birinə daha bir addım yaxınlaşır. İndiki dildə buna inteqrasiya deyirlər.

İndi bəziləri düşünürlər ki, qohum evliliyini qadağan etmək şəxsi azadlığı məhdudlaşdırmaqdır. Əvvəla, qohum evlilikləri əsasən valideynlərin tövsiyəsi, bəzən də təkidi ilə baş verir. İkincisi, qohum oğlanla qız evlənərlərsə, vətəndaş nikahında yaşaya bilərlər. Bunu heç kəs qadağan etmir. Lakin onların nikahı heç vaxt rəsmiləşdirilməyəcək və övladları ömürboyu qanunsuz doğulmuş sayılacaq. Üçüncüsü isə, bu necə şəxsi azadlıqdır ki, xəstə uşaqların dünyaya gəlib əziyyət çəkməsinə rəvac verir və sənə olmazın iztirablar yaşadır.

Sual edənlər də var ki, əgər iki yaxın qohum bir-birini çox sevirsə, onda necə olsun? Adətən əksər hallarda yaxın qan qohumları, məsələn, xalaqızı-xalaoğlu, dayıoğlu-bibiqızı və s. bir-birini bacı-qardaş kimi sevirlər. Əgər onlar bunu inkar edib bir-birinə gələcək həyat yoldaşı kimi baxırlarsa, onda düşünsünlər və görsünlər ki, ortaya nə qədər sual çıxır: "Biz hansı irsi və genetik xəstəliklərin daşıyıcılarıyıq? Əgər daşıyıcıyıqsa, gələcək uşaqlarımızın da xəstə və daşıyıcı doğulacağını anlayırıqmı? Bu xəstəliklərin müalicəsi külli miqdarda xərc tələb edir. Buna maddi imkan çatacaqmı? Bir valideyn olaraq hər cəhətdən ağır olan bu yükü çiynimiz götürə biləcəkmi?"

Və nəhayət, ömürboyu peşmançılıq çəkmək asandır, yoxsa bəri başdan ağıl və iradənin köməyi ilə hərəkət etmək?

Bəziləri də deyir ki, Ailə Məcəlləsindəki dəyişiklik dini nikahların çoxalmasına yol açacaq. Dini kəbinin qanuni qüvvəsi olmasa belə, bəzi cütlüklərin öz evliliklərinə "rəsmiyyət" vermələri üçün bir vasitəyə çevrilir. Buna icazə verilməsə də, yalnız dini kəbinlə yaşayan ailələr az deyil. O səbəbdən aidiyyəti qurumlar da ciddi düşünməli və bunun qarşısını almalıdırlar. Dövlətin qohum evliliyinə qadağa qoyduğu halda din xadimlərinin kəbin kəsərək sabah xəstə uşaqların dünyaya gəlməsinə imkan yaratmağına nə ad vermək olar? Qısası, qanuni nikah olmadan kəbin kəsən din xadimi öz vicdanı və Allah qarşısında günahkardır, xalq və dövlət qarşısında isə məsuliyyət daşımalıdır.

Şübhəsiz ki, qohum evliliyinin qadağası bu vaxtadək baş verən bir çox xoşagəlməz halı aradan götürəcək. Əgər əvvəl bu istiqamətdə yalnız maarifləndirmə aparılırdısa, indi konkret qadağalar əsasdır. Yaxud belə deyək: qanun qanundur və hər kəs üçün mütləqdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan Milli Mətbuatı - 150

# "Şərqi-Rus"dan "Azərbaycan"a - maarifçilikdən istiqlala gedən yol

**XIX əsrin ikinci yarısında H.Zərdabi "Əkinçi" qəzetini (1875-1877) yaratmaqla Azərbaycanda yeni bir mərhələnin başlanğıcını qoydu. Çar Rusiyasının hakimiyyəti altındakı türk və müsəlman toplumlarını maarifləndirməyi qarşılarına məqsəd qoyan Azərbaycan ziyalıları mənsub olduqları xalqın inkişafına, maarif və mədəniyyətinin tərəqqisinə çalışır, geriliyin, zülmün, ədalətsizliyin, istismarın məhv edilməsi üçün mübarizə aparırdılar. "Millətlərin dərəceyi-tərəqqiləri məhz bir şeylə ölçülür ki, o da ancaq mətbuatlarıdır" söyləyən kəsərli qələm sahibi, böyük publisist Ömər Faiq Nemanzadə də müasirləri kimi özünün maarifçi və demokratik ideyalarını məhz mətbuat vasitəsilə geniş xalq kütləsinə deyə bilirdi.**

Azərbaycançılıq ideologiyasının dərin köklərinə yiyələnmiş Ö.F.Nemanzadə tarixin inkişaf prosesini dərindən dərk etməklə yanaşı, publisist yaradıcılığı ilə mənsub olduğu xalqın inkişafına, milli maraqlarına kömək etmiş, geriliyə, zülmə, ədalətsizliyə, istismara qarşı mübarizə aparmışdır. Ədib millətinin öz hüquqları uğrunda mübarizəsinin önündə gedənlərdən biri kimi publisistikasında dövrün ictimai-siyasi, tarixi gerçəklikləri kontekstində müsəlman aləminin bütün qaranlıq mühitinə aydınlıq gətirmiş, millətinin düçar olduğu bütün fəlakətlərdən qurtuluş yolunu göstərməyə çalışmışdır.

Ö.F.Nemanzadə "Şərqi-Rus"a qədər Şəki, Şamaxı və Gəncədə dünyəvi elmləri tədris etməklə xalqın maarif və mədəni həyatında canlanma yaradır, yeni tipli məktəblərin açılmasında, təhsillə bağlı problemlərin həllində böyük rol oynayır. Pedaqoji fəaliyyəti dövründə "Müəllim Nemanzadə" imzası ilə "Tərcüman" qəzetinə məktublar göndərən Ömər Faiq müsəlmanların elmdən, təhsildən uzaq qalmalarını, xalqa rəhbər olacaq dövlətlilərin, bəylərin maarifə, millətə olan hümmətlərinin azlığından gileylənir: "Maarifimiz də o dərəcədədir ki, ...Qori darülmüəllimində bizdən ancaq bir müsəlman var...

Bu səbəbdən camelərimiz viran, məktəblərimiz pərişan, halımız yamandır" (7 yanvar 1900, №1).

Göründüyü kimi, Ömər Faiqin də maarifçilik fəaliyyəti üçün hələ ki, yeganə sahə təhsil idi.

Qəzetçilik fəaliyyətinə Tiflisdə "Şərqi-Rus"da başlayan istedadlı və kəsərli qələm sahibi bu ağır, çətin və daşlı-kəsəkli yolda ideya, mövzu və forma xüsusiyyətləri ilə zəngin yaradıcılıq axtarışlarına imza atır. Bu yaradıcılıq arenasında biz onu inqilabi-demokratik ideyaları ilə xalqına, millətinə bağlı bir vətəndaş ziyalı, milli kimliyin təəssübkeş müdafiəçisi, mənəvi dəyərlərin qoruyucusu kimi görürük.

Mətbuatı tribunaya çevirən Ö.F.Nemanzadə "Şərqi-Rus" qəzetində "Dərdimiz və dərmanımız" (1903, №3, 4, 5), "Dilimiz və imlamız" (1904, №40), "Nə üçün haqqımızı istəmiriz" (1904, №5), "Qəbirdən xortlayan adam" (1904, №79, 81), "Günah kimdə?" (1904, №88, 91) və başqa məqalələrində məhkum millətinin üzləşdiyi ehtiyaclardan, dərdlərdən, bütövlükdə cəmiyyətin qarşılaşdığı köklü nöqsanlardan ürək yanğısı ilə söhbət açır, öz siyasi düşüncə tərzinin məhsulu olan ilk publisistik nümunələrini ortaya qoyur. "Biz də vaxta görə çalışaq" (1904, №147, 148, 152) sərlövhəli silsilə məqaləsində yazırdı: "...zaman dəyişir, dünya dəyişir, hər şey dəyişir, hər millət dəyişir, hər zərrə dəyişir...İnsaf və mürvətmidir ki, bizlər də hər şeydən də dışarı olaq? Dəyişməli".

Ömər Faiq xalqı, milləti göz görə-görə təhlükələrə, səfalətlərə sürükləyən köhnə adətlərə, cahil fikirlərə, əməllərə qarşı çıxır, yoxluqda üzülən xalqını zamana görə dəyişməyə, ümumi hüquqlardan istifadəyə çağırır. Millətin nicat yolunu inkişafda, elmdə, təhsildə, tərəqqidə görən ədib yazırdı: "Dəyişməliyik. Və illa özgələr bizləri bütün özgə yolda dəyişdirib" ayaqlar altında əzdirib yox edərlər...Xülasə, bizi adam edəcək... mədəniyyətə daxil edəcək bir vasitə... məktəblər, mədrəsələr və mətbuatdır".

Mətbuatı millətin savadlanması və maariflənməsi yolunda ən təsirli vasitə hesab edən Ö.F.Nemanzadə mətbəə almaq üçün çox səy göstərir və nəhayət, "Şərqi-Rus" qəzetinin mətbəəsini əldə edir. Ədibin "Qeyrət" mətbəəsinin fəaliyyəti haqqında, xüsusilə Azərbaycanda mətbəə və mətbuat tarixi barədə ilk əsər - "Nəşri-asarə dəvət" ("Əsərlər nəşrinə dəvət") də məhz bu mətbəədə çap olunur. "...Bu gün ancaq hər qüvvətin, hər xahişin, hər fikrin anası və kökü olan" maarif və mətbuatı güclü silaha bənzədir, millətin qurtuluş yolunu da onda görür, haqlı olaraq mətbuatı həm də ictimai fikrin tribunası adlandırır.

Ömər Faiq "ümmətinin hüququnu mühafizə etmək, hürr və müstəqil yaşamaq, özgələrə boyun əyməmək" yolunda ciddi mətbuatın əhəmiyyətini qeyd edir. O, hər kəsi nəşrlərə dəvət edir, millətin ətalət, cəhalət və elmsizlikdən qurtulmasının çıxış yolunu mətbəələrin sayının artmasında görür: "Əks halda mətbuatı yox və ya az olan millətlərin mədəniyyət və gücləri də yox hökmündədir".

Mətbuat orqanlarının sayının azlığı dövrün digər ziyalıları kimi, Ömər Faiqi də çox narahat edirdi. C.Məmmədquluzadə, Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu və başqaları bu fikirdə idilər ki, mətbu orqanların sayı artdıqca qəzetlər arasında birliklə bərabər, yeni fikirlər, yeni ideyalar, yeni düşüncələr də formalaşar ki, bu da millətin tərəqqisinə xidmət etmiş olar.

Ömər Faiq Nemanzadənin publisistikası məkan, zaman, mövzu, ideya və problem baxımından geniş və əhatəlidir. O, "Şərqi-Rus", "Həyat", "Molla Nəsrəddin", "Füyuzat", "İrşad", "Tazə Həyat", "Tərcüman", "Tərəqqi", "İqbal", "Yeni İqbal", "Qardaş köməyi", "Açıq söz" və "Azərbaycan" kimi mətbu orqanlarda bütün fəaliyyətini, elmini, biliyini, istedad və qabiliyyətini, bütövlükdə bütün həyatını vətənin, millətin tərəqqisi yoluna həsr etdi.

1906-cı ildə nəşr olunan "Molla Nəsrəddin" jurnalı Ö.F.Nemanzadə üçün böyük məktəb rolunu oynayır. Məsləkdaşı Cəlil Məmmədquluzadə ilə "Qeyrət" mətbəəsində nəşr etdikləri bu jurnal vasitəsilə ictimai quruluşun ədalətsizliyini, rus çarizminin yerli əhaliyə qarşı apardığı ayrı-seçkilik siyasətini, din pərdəsi arxasında milləti cəhalətə sürükləyən "din xadimləri"ni, qadın azadlığını buxovlayan qüvvələri, rüşvətxorluğu, dilimizə xor baxanları, millətin gələcək taleyinə biganə qalan intellektualları tənqid obyektinə çevirirdi.

Ədibin "Molla Nəsrəddin"də dərc olunmuş "Qayırma hədislər" (1907, №16), "Xortdana məktub" (1907, №19), "Bakı dəryası" (1907, №28), "Məktəb" (1907, №1), "Bakının əlacı" (1907, №31), "Allaha rüşvət" (1908, №8), "Pişik" (1910, №32) və bu kimi digər yazılarında başlıca olaraq hakim dairələrin zülmkarlığı, cəmiyyətdə kök salmış sosial problemlər, ana dili, elm və təhsil, qadın azadlığı məsələləri tənqid hədəfləri idi.

Ömər Faiq istər "Molla Nəsrəddin"də, istərsə də digər mətbu orqanlarda tənqid etməklə kifayətlənmir, siyasi proseslərə də nüfuz edir, istiqlal düşüncələrinə, azərbaycançılıq ideologiyasından qaynaqlanan milli mənlik şüurunun formalaşmasına, milli özünüdərkə, xalqın azadlıq uğrunda mübarizəsinə, siyasi hüquqlarının əldə olunmasına və düzgün yola istiqamətlənməsinə böyük yol açırdı.

Azərbaycan zaman-zaman ictimai-siyasi tufanlarla qarşılaşsa da, vəziyyətimiz heç vaxt XX əsrin ilk onilliklərində olduğu qədər məşəqqətli, faciəli olmamışdır (Ş.Hüseynov). Belə bir dövrün aktual mövzularını qəzet səhifələrində gündəmə gətirən böyük ədibin daşnakların imperiya qüvvələri ilə əlbirliyinə, erməni millətçilərinin müxtəlif hiylə və bəhanələrlə torpaqlarımıza sahib çıxmaq üçün törətdikləri qətliam və qırğınlara münasibəti bu günümüzün reallıqları və müasirlik baxımından böyük əhəmiyyət kəsb edir. Onun bu mövzuda 1905-1907-ci illər mətbuatda çıxışları, ermənilərin "böyük Ermənistan" yaratmaq xülyalarının qarşısında özümüzü mühafizə və müdafiəyə hazır olmağa çağırışı, əsrin sonunda Qarabağda və Qərbi Azərbaycanda baş vermiş və hələ də qalıqları təmizlənməkdə olan böyük faciələrin dərin köklərini öyrənmək, bu siyasətə son qoymaq üçün nə etmək lazım olduğunu bilməsi bir jurnalist və publisist kimi uzaqgörənliyi baxımından da maraq doğurur.

XX əsrin əvvəlləri və sonuna ayna tutan Ömər Faiq ermənilərin Naxçıvan, İrəvan və Qarabağ mahallarında qurduqları tələləri, polis və qoşunun əli ilə törətdikləri xainlikləri, erməni-müsəlman toqquşmalarını hökumət müftilərinin və onlara aldanan camaatın avamlığını ürək ağrısı ilə dilə gətirir: "Məgər nə dərəcədə bifəhm və safdil olmuşuq ki, ermənilərin İrəvan və Qarabağ səmtlərində hər cür hazırlaşmaqlarını görə-görə, hər cürə fitnə-fəsadlarını hiss edə-edə, hər növ xainanə hərəkətlərini qana-qana lazımi yolda müdafiə etməyi yadımıza belə gətirmədik" ("İrşad", 1906, №183).



"Nə etməliyik?" məqaləsində ifadə olunan bütün fikir və mülahizələr - 1905-1907-ci illər erməni-müsəlman qarşıdurmasını yaradan səbəblər, rus generallarının ermənilərə havadarlığı və rus məmurlarının bu qarşıdurmadakı məqsədləri və digər məsələlər analoji şəkildə XX əsrin 80-90-cı illərində özünü yenidən göstərdi: "…ermənilər ruslar ilə bir olub bizi İrəvan, Qarabağ səmtlərində zəiflətdikdən sonra… Rusiyanın inqilab və zəfini gözləyəcəklər. Və birinci fürsətdə Rusiyadan qabaqca "avtonomiya" istəyib, yavaş-yavaş özlərinə "Ermənistan" hazırlayacaqlar".

Elə buradaca qeyd edək ki, klassik publisistikamızın bu tematika ətrafındakı yazılarının aşkarlanmasına qadağa qoyan sovet senzura sistemi bizə ermənilərin əsl simasını anlamağa imkan verməmişdir.

Bu siyasi oyunları öncədən duyan, böyük demokratik düşüncə sahibi olan Ömər Faiq düşmənin qabağına düşmən kimi çıxmaqla öz hüquqlarımızı mühafizə etməyə, qüvvətli bir milli cəmiyyət qurmaqla xalqı birliyə və ayıq-sayıq olmağa çağırırdı.

Ömər Faiq məqalələrində dövrün ziyalılarına üz tutaraq onları millətini tanımağa, onun namusunu, diriliyini, mənfəətini öz namusu, öz mənfəəti kimi bilməyə səsləyir. Ədib "dostluq" xəncəri ilə dəfələrlə yaralanmağımıza baxmayaraq, hələ də millətimizin ruhunda köklənmiş, milli əxlaq yerini tutmuş və möhkəmlənmiş itaətkarlığı qamçılayır, bunu qabalığımız, quru cahilliyimiz kimi təqdim etməklə milli mənfəətimizə endirilən balta adlandırır: "Vaxtdır ki, biz də bu həqiqətləri qanıb yaşamağa layiq olduğumuzu, millətimizin şərəfini, dinimizin "səlamət"liyini quru söz, lovğalıq ilə yox, əməlimizlə, köməyimizlə göstərək" ("Açıq söz", 10 yanvar 1917).

Ədibin milli kimliyimizlə bağlı məqalələri daha çox maraq doğurur. "Qardaş köməyi" dərgisində dərc olunan maraqlı, bu günümüz üçün aktual olan yazılardan biri "Bən kiməm?" məqaləsi hər bir oxucuya ünvanlanıb və hər kəsi bu sual qarsısında düşünməyə məcbur edir. Ömər Faiqə görə kiçik, məhkum millətlər öz qanları bahasına varlıqlarını, hüquqlarını qoruyub saxladıqları halda, biz özümüz tanımamazlıq bəlasına düçar olmuşuq. İnsanın öz soy və millətini tanımaması soyundan-kökündən uzaqlaşmaya gətirib çıxarır ki, bu da ən böyük günah, milləti üçün silinməz ləkədir. Bu tanımamazlığı qara yaraya, daha acılı və daha zəhərli taun çibanına bənzədən ədib biri qızılbaş, digəri "ac tat", başqa birisi "şiə", "sünni", "babi", "persiyan" adlandırılan və Qərbin məqsədli şəkildə parçalamağa çalışdığı türk millətinə üz tutur:

"...Niyə sana: "Kimsən?" dedikləri vəqt həqiqi cavabında aciz qalıyorsan? Niyə sadəcə deyə bilmiyorsan ki: Bən türkəm. Niyə bilmiyorsan ki, şiəlikdən, sünnilikdən, babilikdən də əvvəl sən türk idin. İndi də türksən və bundan sonra da türk qalacaqsan. Sənin bu türklüyünə nə şiəlik, nə babilik və nə də dinsizlik mane ola bilməz.

Sən, ey türk, nə əqidədə, nə məsləkdə olursan ol, həmişə türksən!

Sən gərək biləsən ki, dünyada hələ şiə, sünni, babi, şeyx adları yox ikən, sən var idin! "

Məqalədən göründüyü kimi, Ö.F.Nemanzadə hələ ötən əsrin əvvəllərində müsəlmanların "islam ümmətindən türk millətinə çevrilməsi" kimi böyük bir hərəkatın öncüllərindən olmuş, türkçülük məfkurəsini işləyib hazırlayan, ona elmi-siyasi səciyyə verən ziyalılardan biri kimi mətbu irsində geniş əməli fəaliyyət göstərən milli istiqlal mücahidlərindən biri kimi xalqı milli intibaha, milli oyanışa səsləmiş, millətin qurtuluş yollarını göstərmişdir.

XXI əsrin əvvəlləri türk birliyi ideyasının reallaşması, türk xalqlarının bir-birlərini daha yaxından tanımaları, ortaq köklərə qayıdış -Türk Dövlətləri Təşkilatının yaranması, türk birliyinin tələb etdiyi ən ümdə məsələlərdən biri olan ortaq əlifba, ortaq dil məsələlərinin gündəmə gəlməsi Ömər Faiq ideyalarının və arzularının gerçəkləşməsidir.

Ömər Faiq Nemanzadənin publisistikasının "Azərbaycan" (1918-1920) mərhələsi onun vətəninə, millətinə olan sevgisinin və yeni qurulmuş Cümhurriyyətin dövlətçilik siyasətinə və fəaliyyətinə vətəndaşlıq mövqeyinin təzahürü baxımından əhəmiyyətlidir.

Bütün həyatını millətinin həqiqi azadlığı, istiqlaliyyəti, türklüyün birliyi, milli dilinin qorunması və təmizliyi, azad və müstəqil dövlət uğrunda mübarizəyə həsr edən Ö.F.Nemanzadə həyatının çətinliklər və iztirablarla dolu bir dövründə "Azərbaycan" qəzeti ilə sıx əməkdaşlıq etmiş, aparıcı yazarlarından biri kimi bütün proseslərə öz münasibətini bildirmişdir.

Qafqazda yeni yaranmış ilk müstəqil və güclü bir türk dövlətinin mövcudiyyətini gözü götürməyənlərə qarşı yönəlmiş cəsarətli yazıları onun necə böyük istedada, dərin elmi-nəzəri baxışlara, siyasi təfəkkürə, əhatəli biliyə malik olduğunu təsdiqləyir.

1918-1920-ci illərdə Ö.F.Nemanzadə siyasi-ideoloji baxışlarına, Axıska türklərinin Türkiyə hökumətinə rəğbət bəsləməsində roluna və eləcə də Qafqazda məzlum türklərin siyasi hüquqlarının müdafiəsi uğrunda mübarizəsinə görə gürcü hökuməti və menşeviklər tərəfindən üç dəfə həbsə məruz qalır ki, bu da "Azərbaycan" qəzetinin fəaliyyəti dövrünə təsadüf edir.

Bütün bunlarla bərabər, Ömər Faiq qəzetlə əməkdaşlığını davam etdirir. Ədibin "Paylaşmaq istəyirlər" (№158, 1919), "Böhtanlarla böyük işlər görülür" (№161, 1919), "Axıska fəlakəti şiddətilə davam edir" (№162, 1919), "Alçaq siyasət" (№164, 1919), "Möhkəm idarə möhkəm əxlaqlı istər" (№169, 1919), "Ümidsizlik zəiflik nişanəsidir" (№187, 1919), "Nədir bu naxoşluq?" (№188, 1919), "Hazır ol!" (№194, 1919), "Xanıstan-Ermənistan" (№195, 1919), "Aldanmayınız!" (№208, 1919), "Sağ ayağımız da kəsilir" (№214 1919), "İşlərimizdə hərcümərclik" (№220, 1919), "Felyeton: Məcdüssəltənə" (№228, 1919), "Şəhərimiz idarəsizliyi" (№245, 1919), "Milliləşmək" (№327; №328; №330, 1919) silsilə məqalələri onun milli düşüncələrinin və yeni qurulmuş Xalq Cümhuriyyətinin gələcək fəaliyyətinə publisist yanaşmalarının məhsuludur.

Xalq Cümhuriyyəti kimi müstəqil bir dövlət yaratmış Azərbaycanda demokratik dövlət quruculuğu prosesində islahatlarla bərabər, qarşıda duran böyük çətinliklər də özünü göstərirdi.

"Sağ ayağımız da kəsilir" başlıqlı məqaləsində sosial, siyasi və iqtisadi problemlərin həllinə çalışan gənc bir hökumətin ali məqsədinin ideal dövlət modeli yaratmaq olduğunu qeyd edən Ömər Faiq gənc Azərbaycan hökumətinin yüksək əxlaqi keyfiyyətini - sülh tərəfdaşlığını atdığı addımlarda görür: "O (hökumət - A.Əzimova) istiyor ki, təmiz əllərini qana bulaşdırmasın, tazə hərəkətə gələn qollarını insaniyyətə xidmətə alışdırsın".

"Tazə doğan hökumət"in xalqa ədalət, hürriyyət və azadlıq verməsini, insani fikirlərlə indiyədək hər cür təcavüzlərə, həqarətlərə hələ də göz yummasının müsbət və mənfi cəhətlərini analiz edən Ömər Faiq bunun bir tərəfdən də itaətsizliyə, məmləkətin, istiqlalın gələcəyi üçün böyük bir təhlükəyə yol açdığı barədə xəbərdarlıq edir. Gürcüstandan, Dağıstandan, Ermənistandan və Rusiyadan öz hökumətlərindən müxtəlif səbəblərdən qaçan menşevik, Denikin, daşnak, imperialist, kommunist-bolşevik kimi qarətkarların, oğruların - hər kəsin gözəl və hürr Azərbaycan paytaxtına toplanmasını gələcək üçün necə bir fəlakətli uçurum yaradacağından xəbər verən uzaqgörən ədib hökuməti siyasi ayıqlığa çağırır: "Tədbirsiz, səy və qüvvətsiz arxayın olmaq hər şeyə razı olmaqdır".

Rusiyanın və imperialist dövlətlərin Cənubi Qafqazda apardıqları "Parçalamaq" siyasətini gözəl anlayan uzaqgörən publisist Türkiyə ilə rabitənin əbədi kəsilməsinin və Bakı-Culfa dəmiryolu planının qarşısının alınmasının siyasi məqsəd və məramını şərh edir. Kars, Ərdəhan, Ovləti, Qağızman, Sürməli mahallarının erməni qaçqınlarını yerləşdirmək bəhanəsilə güc və zülmlə müsəlmanların əlindən alınıb ermənilərə verilməsini uzun illərin planı olduğunu və bu türk yerlərinə sahib çıxanlara cavabsız qalmağımızı qınayır və bunun istiqlalımız üçün gələcək böyük təhlükələrə yol açacağını söyləyir: "Zəngəzuru almaqla bizim sağ ayağımızı da kəsiyorlar...

Əcəba! Bu fəlakətlərə səbr və bu səbrlə hər şeyə razı olacaqmıyız?"

Ömər Faiqin narahatlığı əbəs yerə deyildi. Çox keçmir ki, sovet hakimiyyəti Cənubi Qafqazda möhkəmlənir, bununla da həmin ərazinin inzibati-siyasi xəritəsində dəyişikliklər həyata keçirməyə başlayır. 1921-ci ildə Ermənistan SSR və Azərbaycan SSR arasındakı razılaşmaya əsasən, tarixən Azərbaycan torpağı olan Zəngəzur qəzası Moskva və Qars müqavilələri əsasında 2 yerə bölünür ki, bu fəlakəti başlanğıcda ədib yeni hökumətə, eləcə də xalqa qəzet vasitəsilə xatırlatmışdır. Necə ki, ikiyə parçalanmış Azərbaycan, ikiyə bölünmüş Zəngəzur. Fərqli zamanın eyni dərdləri, eyni problemləri.

Ömər Faiq öz fikirlərini "Paylaşmaq istəyirlər" (№58, 1919) məqaləsində davam etdirir, siyasi və geosiyasi məsələni - qonşu dövlətlərin "türk-islam kütleyi-müəzziməsini" öz aralarında paylaşmaq istəklərini yenidən gündəmə gətirir. Ədib göstərir ki, Axıska, Axalkələk, Qars, Batum kimi bölgələrdə yaşayan müsəlman-türk əhalisi silah, zorakılıq gücü ilə sıxışdırılmaqla öz yer və yurdlarından didərgin salınır. Ö.Faiq Gürcüstan və Ermənistanın öz sərhədlərini genişləndirmək məqsədini "paylaşmaq-parçalamaq, zəiflətmək" siyasəti ilə həyata keçirdiklərini bir siyasətçi-publisist düşüncəsi ilə ortaya qoyur.

"Gürcü və erməni qəzetləri Qars hökumətinin dağılmasından və oraların tezliklə gürcü və ermənilərin əllərinə keçəcəyindən bəhs edib şimdidən izhari-şadmani edirlər. (şadlıqlarını büruzə verirlər).

Biz də hələ fürsət varkən izhari-qeyrət və həmiyyət göstərib, hüquqi-milliyəmizin müdafeyi-biamanı (amansız müdafiəçisi) olacağımızı elan etməliyiz".

Göründüyü kimi, Ö.F.Nemanzadə publisistikasında özünü göstərən bu həqiqətlər, gerçəklər bugünkü günümüzün reallıqlarıdır ki, aktuallığını hələ də saxlayır.

"Azərbaycan" qəzetində "Ümid var" imzası ilə dərc edilən "Hazır ol" (№194, 1919) məqaləsini Ömər Faiqin bəşəriyyəti oyanışa, maariflənməyə, azadlıq və ədalət uğrunda mübarizəyə, qardaşlığa, səadətə, bütövlükdə insanlığa, bəşəri dəyərlərə ünvanlanmış humanist bir çağırışı kimi qiymətləndirə bilərik.

"Millətim növi-bəşərdir, vətənim ruyizəmin" söyləyən ədib "bundan daha həqiqi bir iman, daha ülvi bir əməl, daha ilahi bir qayə və məqsəd olarmı" sualını özü cavablandıraraq bütün insanları qardaş, dünyanı da vətən adlandırır. Humanist və maarifçi dünyagörüşə malik ədib özünü bəşəriyyətin bir üzvü adlandırmaqla, millətlər arasında özünü göstərən dini, irqi və milli ayrı-seçkiliyə qarşı çıxır, bu fərqlərə görə insanların bölünməsini faciələrə yol açdığını vurğulayır: "...qardaşlığa yaraşmayan ortadakı bu canavarlıq, bu yırtıcılıq, bu heyvanlıq, bu qəhr və zülmlər nə?" - söyləyir.

Ömər Faiq publisistikasının ana xəttini təşkil edən milli kimlik məsələsi bu məqalənin də əsas qayəsini təşkil edir. Ədibin "Ey azərbaycanlı, ey türk!" müraciəti böyük türk dünyasına, türk birliyinə ünvanlanan çağırış idi. Gənc Azərbaycan dövlətinin əlindəki istiqlal nemətini qapmaq istəyənlərə qarşı bütün mövcudiyyətilə hazır olmağa çağırır. Sonda azərbaycanlıları haqq və ədalət uğrunda mübarizəyə çağıran ədibin fikirləri müasir dövrümüzün də gerçəkliyini özündə əks etdirir: "...Burasını da eyi bil ki, sən özgəsini, özgə torpağını qurtarmayırsan; özünü, öz evini, öz balalarını qurtarırsan. Çünki Vətənsən, sən-vətənsən!"

Burada Ömər Faiqin "Vətən" anlayışı daha geniş bir anlamı ifadə edir. Bu düşüncəyə görə "Vətən" ədibin daxilində, mənəviyyatında daşıdığı mənəvi borc və onun qarşısında daşıdığı məsuliyyətdir. Bax, budur Ömər Faiqin vətəndaşlıq mövqeyi, dəyərlərimizə verdiyi qiymət, bu günümüz üçün əhəmiyyət daşıyan və aktuallıq kəsb edən mənəvi xəzinəsi.

Millətin və onun milli kimlik şüurunun formalaşmasında Ö.F.Nemanzadə publisistikasının rolu böyük olmuşdur. Milli kimlik, milli dil və özünüdərk problemlərini özündə əks etdirən "Milliləşmək" (№327; 328; N330) silsilə məqalələri öz dövrü və bu günümüz üçün çox əhəmiyyətlidir.

Klassiklərimiz də dili hər millətin mövcudluq faktoru kimi qiymətləndirmişlər. Dilsiz bir millət məhvə məhkumdur. Məqalədə də qeyd edilir ki, tarixin müxtəlif dönəmlərində hər cəmiyyət, hər bir fərd ənənəsindən, iman və etiqadından az-çox əl çəkdiyi halda, milli dilindən əsla və əsla vaz keçməmişdir. Bir millətin ədəbiyyata malik dilini o millətin ruhu, mövcudiyyətini milliləşmənin vacib şərtlərindən sayan Ömər Faiq yazır: "Dili kəsilməyən millətin vücudu kəsiləmməz, ədəbiyyatı yaşayan millət heç vaxt ölməz" (№327).

Dili millətin mənəvi siması, onu yaşadan əsas amil, milliləşmənin təməl şərtlərindən biri hesab edən ədib paralel olaraq əlifba və milli ədəbiyyatı da insanları qara cəhalətdən, istibdaddan xilas edən vasitə kimi qiymətləndirir. M.F.Axundov, H.Zərdabi, Ə.Ağaoğlu və digər maarifçi publisistlər tərəfindən inkişaf etdirilən azərbaycançılığın mühüm tərkib hissələrindən biri olan dil məsələsini bu ideologiyanın komponenti kimi milli tərəqqi və təkamül ilə bağlayır. "Xüsusiyyəti-milliyənin" yeganə şüarı olan milli dili mühafizə etməyə çağıran ədib hər kəsin qarşısında böyük bir vəzifə qoyur:

"Xalq mühafizə etdiyi hökumətin dilini, yazısını təbii, öz dili, öz yazısı olmasını istər və bunu istəməkdə dünya qədər haqqı vardır... Hürriyyətimizi, istiqlalımızı candan istəyirsək, Azərbaycan dilinə, Azərbaycan milli ədəbiyyatına, Azərbaycan xalqına qiymət verməli, hörmət etməliyiz".

Milli ədəbiyyatın və elmlərin tərəqqisinin əhəmiyyətini silahdan min kərə güclü təqdim edən Ömər Faiq bu məqalədə çox ciddi bir məsələni də dövrün aktual və əhəmiyyətli problemi kimi təqdim edir. Azərbaycan ziyalılarının uzun zaman uğrunda mübarizə apardıqları əlifba məsələsini də maariflənmənin, milliləşmənin əsas vasitələrindən biri kimi təqdim edir. Türkcənin yazı və mətbuat aləmində zəifliyini türkcənin özündə deyil, başına bəla etdiyi əlifbasında görür: "...türkcəmiz danışıq və ahəngini olduğu kimi göstərməyə, yazmağa əsla yaramayan ərəb əlifbasını qəbul edəndən sonra öz varlığını, öz istiqlalını itirmiş və bu günə qədər ərəbliyə əsir olaraq həqiranə ömür sürmüşdür" (№328).

Onun bu baxışları M.F.Axundovun əlifba islahatı haqqında nəzəri fikirlərinin davamı idi: "Vaxtdır ki, həqiqi, ictimai bir inqilab ilə dilimizi bügünkü yaramaz və çirkin əlifba əsirliyindən qurtarıb öz təbiətinə, öz istiqlalına uyğun bir əlifba qəbul edəlim" qabaqcıl yanaşmasını gələcək latın əlifbasına keçid ideyasına zəmin yaradan fikirlər kimi qiymətləndirmək olar. Ədibin əlifba məsələsinə dair bu görüşləri onun dövrünün maarifçi, islahatçı bir şəxsiyyət olduğunu təsdiqləyir. Ədibin bu fikirləri sonralar latın qrafikasına keçid və milli mətbuatın inkişafında öz təsirini göstərdi.

Bütövlükdə, milli ideologiyanın yaradıcılarından biri olan Ömər Faiq Nemanzadə mətbu fəaliyyəti ilə milli kimlik şüurunun formalaşmasında və inkişafında böyük rol oynamışdır. Azərbaycançılıq ideologiyasının təməl prinsiplərini ortaya qoyanlardan biri kimi milləti maarifə, elmə, mədəniyyətə səsləmiş, azad sözün müdafiəçisi olmuş, cəsarətli və təndiqi yazıları ilə haqq, ədalət və həqiqət carçısı olmuşdur.

Ö.F.Nemanzadənin "Azərbaycan" qəzetindəki fəaliyyəti həm ideoloji, həm də ədəbi-publisistik baxımından da mühüm tarixi əhəmiyyət kəsb etmişdir. Ədibin millət, vətən, dil, milli kimlik, milli ədəbiyyat və mədəni dəyərlər mövzusunda qəzetin səhifələrində qaldırdığı ciddi problemlər bu günümüz üçün də aktuallıq kəsb edir.

***Aygün ƏZİMOVA,***
***BDU Jurnalistika fakültəsinin***
***dosenti, filologiya üzrə fəlsəfə doktoru***

# Məktublar: problemlər, rəylər, təkliflər...



● EHTİRAM

## Şəhid adına hörmət borcumuzdur



**44 günlük Vətən müharibəsində Azərbaycan oğulları sözlərini canları ilə dedilər. Odur ki, bu gün ölkəmizdə qazilərə qayğı, şəhid adına ehtiram var.**

Canını torpağa sipər edən oğullardan biri də şəhid baş leytenant Cavid Azər oğlu Mirzəyevdir. O, uşaqlıq illərini Yaşma qəsəbəsində keçirib. Qəsəbə sakinləri vaxtaşırı bu qəhrəman oğulun yaşadığı evə gəlir, onunla bağlı olan xatirələri dilə gətirirlər.

Bir dəfə qonşular ərazi rəhbərliyinə şəhidin yaşadığı küçənin təmir edilməsi ilə bağlı müraciət etdilər. Bildirdilər ki, tez-tez müxtəlif yerlərdən şəhidi yad etmək üçün onun yaşadığı evə qonaqlar gəlir.

Sağ olsunlar, səsimizə tez bir zamanda reaksiya verildi. Yol idarəsinin işçiləri təmirə başladılar, yolun ətrafında təmizlik işləri apardılar. Daha sonra şəhidin adını daşıyan küçə asfaltlandı. Üstəlik, küçənin başlanğıcındakı şəkil-abidə də rənglənərək ətrafına gül-çiçək düzüldü. Həmin gündən bəri qonşular vaxtlı-vaxtında gülləri sulayır, solmağa qoymurlar.

Şəhidlər torpağı canları ilə qoruyanlardır. Onlara aid olan nə varsa, onu qorumaq, hörmət bəsləmək vətəndaşlıq borcumuzdur.

*Ramilə SEYİDOVA,*
*Yaşma qəsəbəsinin sakini*

● İSTİRAHƏT

## Bələdiyyə Parkı - Sumqayıtın yaşıl və abad guşəsi

**Sumqayıtın mərkəzində yerləşən Bələdiyyə Parkı - şəhər sakinlərinin mədəni istirahəti üçün yaradılmış bu yaşıl məkan son vaxtlar aparılan genişmiqyaslı abadlıq işləri nəticəsində daha da müasir görkəm alıb. Parkın abadlığını şəhər bələdiyyəsi aparır. Onların çoxu da elə istirahət saatlarını bu məkanda keçirir.**

Səliqəli yürüş yolları, estetik oturacaqlar və yenilənmiş yaşıllıq zolaqları buranı şəhərin cazibədar mərkəzinə çevirib. Xüsusilə axşam saatlarında parkda qurulan işıqlandırma sistemi ətrafı sehrli gözəlliyə bürüyür.

Sakinlər burada həm dincəlir, həm də ailəvi gəzintilər üçün münasib şərait tapırlar. Uşaqlar üçün salınan əyləncə meydançaları, idman avadanlıqları və fəvvarələr istirahəti daha da rəngarəng edir. Parkın mərkəzində qurulan açıq səhnə mədəni tədbirlərin keçirilməsi üçün ideal məkandır. Hər yaşdan olan insanların özünü rahat hiss etdiyi bu park şəhər həyatına yeni bir nəfəs, yeni bir ruh gətirir. Burada hətta həvəskar müğənnilər mikrofon götürərək öz məharətlərini göstərirlər. Həzin və ürəkoxşayan musiqi sədaları ətrafa xoş ovqat bəxş edir.

Park təkcə istirahət yeri deyil, həm də şəhərin abadlıq və urbanizasiya baxımından nümunəvi layihələrindən biridir. Bu yaşıllıq guşəsi Sumqayıtın inkişaf edən





simasının bir parçası olaraq daim yenilənr. Bir sözlə, Bələdiyyə Parkı Sumqayıtın bu gününə gözəllik, sabahına ümid bəxş edən, insanlara içdən rahatlıq gətirən, şəhərin gur həyatından bir addım uzaqda yaşıl, əsrarəngiz məkandır.

*İlhamə MƏMMƏDOVA,*
*Sumqayıt şəhər sakini*

● UĞUR

## Təhsilimizin daha bir nailiyyəti

**İndi Əhəd Səmədzadəni tanıyan hər bir kəs onunla fəxr edir. Əslən Masallıdan olan bu gənc oğlan TRYÖS imtahanında (Türkiyə Yabancı Öğrenci Sınavı) maksimum nəticə qazanıb.**



Çətin sınaqdan topladığı 500 bal onu dünya birincisi edib. Həm də bu sevindirici uğur Əhəd Səmədzadəyə çoxdan arzuladığı Türkiyənin ən nüfuzlu universitetlərindən birində tam təqaüdlə təhsil almaq imkanını verib.

Əhədin birincilik qazandığı TRYÖS imtahanı dünyanın müxtəlif ölkələrindən minlərlə tələbənin qatıldığı, riyaziyyat və məntiq sahəsində yüksəksəviyyəli bilik, eləcə də düşüncə tələb edən beynəlxalq imtahandır.

*Zəfər ORUCOĞLU*

● DİQQƏT

## Qaldırdığımız problemlərə diqqətlə yanaşılır

**Bu gün ölkəmizdə dövlət siyasətinin əsasını vətəndaş amili, vətəndaş məmnunluğu təşkil edir. Bunu qaldırdığımız hər bir problemin vaxtında həll edilməsində bir daha yəqin edirik.**



Bizim Kosalar Qazaxın böyük kəndlərindəndir. Burada yaşayan sakinlərin əsas dolanışığı pay torpaqlarında yetişdirdikləri kənd təsərrüfatı məhsullarından çıxır. Lakin uzun müddət idi ki, bir problemlə üzləşmişdik. Bu da pay torpaq sahələrinə gedən yolun bərbad vəziyyətdə olması idi.

Rayon rəhbərliyi etdiyimiz müraciətə diqqətlə yanaşaraq təcili tədbirlər gördü. Yolda cari təmir işləri aparıldı. Yol texnika vasitəsilə hamarlanaraq çınqıl döşəndi. İndi kənd sakinləri həmin yoldan hər dəfə keçəndə bu işi görənlərə minnətdarlıq edirlər.

*İkram İSMAYILOV,*
*Qazax rayon Kosalar kəndinin sakini*

## ● Doğma yurdun mənzərələri







*Azərbaycanın şimal-şərqində, Böyük Qafqaz dağlarının ətəklərində yerləşən Quba rayonu zəngin təbii resursları, əsrarəngiz mənzərələri və xüsusi iqlimi ilə seçilir. Bu bölgə bir tabloya bənzəyir - sıx meşəliklər, saf bulaqlar, gur axarlı dağ çayları və füsunkar şəlalələr Quba təbiətinin başlıca inciləridir.*

*Qəçrəş meşələri, Afurca şəlaləsi, Qudyalçay və Vəlvələçay kimi ərazilər gözəlliyi ilə həm yerli, həm də xarici turistləri cəlb edir. Buranın ecazkar gözəlliyindən zövq almaq üçün gələn turistlərin sayı ilbəil çoxalır. Sakitliyi, təmiz havası və sərin dağ iqlimi ilə görənləri heyran qoyan Quba təkcə turizm üçün cəlbedici məkan deyil, eyni zamanda Azərbaycanın nadir təbii irsini özündə daşıyan qiymətli bir ərazidir. Onun qorunması milli məsuliyyət, təbliği isə mənəvi borcumuzdur.*

*Foto İlham BABAYEVİNDİR,*
*“Azərbaycan”*

● RAZILIQ

## Yollarımız təmir edildi

**Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Çaykənd kəndində keçirdiyi səyyar görüş zamanı sakinlər tərəfindən edilən müraciət müsbət həllini tapdı.**



Görüş zamanı kəndin daxili yolları ilə bağlı qaldırılan problemin həlli Şəmkir bələdiyyəsinə tapşırıldı. Qısa vaxt ərzində Aşağı və Yuxarı Çaykənd kəndlərində daxili yolların təmir-bərpa işlərinə başlanıldı. Ağır texnika vasitəsilə yollar hamarlanıb ətrafı təmizləndi və su axınlarının yola zərər vurmaması üçün arxlar çəkildi. Bir sözlə, hər iki kəndin yollarında səliqə-sahman yaradıldı.

Hörmətli redaksiya! Xahiş edirəm bu rahatlığı bizə bəxş edən idarə və təşkilatlara kənd sakinləri adından minnətdarlığımızı çatdırasınız.

*Malik İBRAHİMOV,*
*Şəmkir rayon Çaykənd kəndinin sakini*

● TƏKLİF

## İstəyirik Qubadan yalnız xoş təəssüratla qayıdaq

**Turizm bölgəsi olan Quba həmişə qonaqlı-qaralıdır. Turistləri buraya səsləyən həm əsrarəngiz təbiət, həm də çoxsaylı istirahət mərkəzləridir. Biz kollektiv şəkildə çox yerdə səyahətdə olmuşuq. Amma onların sırasında Qubanın öz yeri var.**



Lakin hamının qarşılaşdığı bir məsələ qonaqları da, yerli sakinləri də rahatsız edir. Belə ki, gündüz istirahətini xoş keçirən turistlər hava qaralandan sonra problemlə üzləşirlər. İstər Qonaqkənd, istərsə də Qəçrəş istiqamətində istirahət mərkəzlərinin qarşısında qaranlıq düşəndən sonra çətinlik yaşanır. Düzdür, Qəçrəşdə istirahət yerləri bir-birinə yaxın olduğu üçün gecənin qaranlığı o qədər də hiss edilmir. Amma Afurca, Təngəaltı və digər istirahət məkanlarına gedən yollarda kəndlər demək olar ki, qaranlığa bürünür. Yol kənarındakı mağaza və evlərdən süzülən işığı çıxmaq şərtilə qalan yerlər qaranlıq içində olur.

Düşünürük ki, bu, vacib məsələdir, xüsusən də turizm bölgəsi üçün. Çünki axşamın, gecənin qaranlığında həmin yollarda nə maşın idarə etmək olur, nə də piyada harasa getmək. İstədiyimiz odur ki, gözəl Qubada istirahətdən yaddaqalan yalnız işıqlı təəssürat olsun.

*Gülnarə BABAYEVA,*
*Aynurə HACIƏHMƏDOVA,*
*Quba rayonu*

● TƏDBİR

## Dövrün bəlasına qarşı birgə mübarizə

**İnsanları ən çox narahat edən təhlükəli, sosial əhəmiyyətli bəla narkomaniya və kibercinayətkarlıqdır. Narkomaniya millət üçün daha dəhşətli faciədir. Narkoman özünü məhv etməklə bərabər, həm də cəmiyyətin gələcəyini uçurum qarşısında qoyur.**

Təəssüf ki, ölkəmizdə narkomaniyaya qarşı mübarizə gündən-günə artsa da, ona meyilli olanların sayı istənilən səviyyədə azalmır. Bu səbəbdən Lerik rayonunda hüquq-mühafizə orqanları ilə yanaşı, digər təşkilatlar da bu mübarizəyə qoşulublar. Pirasora kənd tam orta məktəbində keçirilən "Narkomaniyaya yox deyək!" və "Kibercinayətkarlığa qarşı mübarizə" mövzularında şagirdlərlə növbəti maarifləndirici tədbir məhz bu məqsəddən irəli gəlirdi.

Görüşdə Lerik Rayon Polis Şöbəsinin rəisi polis polkovniki Ramil Mustafayev, RİH başçısının müavini Arzu Vəliməmmədova




və təhsil sektorunun müdiri Zöhrab Salayev çıxış edərək narkomaniyanın yaratdığı real faciələrdən, "ağ ölüm"ün gənclərin həyatında açdığı ağır izlərdən danışdılar və onun həlli yollarını göstərdilər.

Tədbirdə həmçinin kibertəhlükələr, onlayn dələduzluq və kiber talama halları barədə geniş məlumat verildi, şagirdlərə özlərini necə qorumalı olduqları izah olundu.

*Z.ƏLİYEV,*
*Lerik rayon sakini*

● ŞİKAYƏT

## Liftimiz tez-tez sıradan çıxır

**Biz Bakı şəhəri, Yeni Yasamal-1, Məhəmməd Xiyabani küçəsi, 7 ünvanında yaşayırıq. Məhəlləmiz Leyla xanım Əliyevanın sayəsində gözəlləşmiş, abad məhəllə olmuşdur.**



Təəssüf ki, binanın 5-ci blokunun sakinləri olaraq lift probleminə görə həyətə düşüb o abad məhəllədə dincələ bilmirik. Xüsusən yaşlı, xəstə sakinlər və uşaqlar liftsizlikdən çox əziyyət çəkirlər. Sovet dövründən qalmış köhnə liftimiz tez-tez xarab olur. Gəlib düzəldirlər, amma sevincimiz uzun çəkmir. Üstündən çox keçməmiş yenə sıradan çıxır, saatlarla liftdə qaldığımız hallar olur. Bu köhnə liftdən istifadə etməklə hər an həyatımızın təhlükədə olduğunu hiss edirik.

Dəfələrlə aidiyyəti yerlərə müraciət etmişik, lakin problemimiz həll olunmur. Sizdən xahiş edirik, bizim səsimizi qəzetiniz vasitəsilə əlaqədar təşkilatlara çatdırın, bəlkə bir kömək edən tapıla.

*Bina sakinləri adından*
*Dilbər MƏMİYEVA, Esmira HÜSEYNOVA, Gülnarə MİRZƏYEVA, Zəkurə QULİYEVA, İbadulla HƏSƏNOV*





# Mədəniyyət





◆ **Musiqi xadimləri**

# Bəstəkar ömrünün səhifələri

**Sevib bağlandığı, ömrünün uzun illərini birlikdə addımladığı musiqi sənətinə məhəbbəti nə zaman yaranmışdı? Bilmirdi. 1930-cu il iyulun 15-də Bakıda dünyaya gələn görkəmli bəstəkar, Xalq artisti, professor Azər Rzayev körpəlikdən doğma ata ocağında musiqiyə böyük sevgi, ehtiram görmüşdü.**

Azər Rzayevin atası Hüseyn Rzayev rejissor, anası Həqiqət Rzayeva isə məşhur opera müğənnisi idi. Onları bir-birinə tanıdan da teatr olmuşdu. Ecazkar səsi ilə dinləyənləri heyran edən Həqiqət xanım 1927-ci ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında işə başlamışdı. Həmin il rejissor Hüseyn Rzayevlə ailə qurmuşdu. Üç uşağı dünyaya gəlmişdi. Azər Rzayev onların ortancıl övladı idi.

## Muğam üstə söylənən ana laylası

Onların evində musiqi, teatr, tamaşalarla bağlı söhbətlər heç bitməzdi. Valideynləri uzun illər idi ki, eyni teatrda çalışırdılar. Birlikdə işə gedir, birlikdə evə dönərdilər. Hüseyn Rzayev Opera və Balet Teatrında rejissor, daha sonra aparıcı rejissor kimi fəaliyyət göstərdi. Həqiqət Rzayeva isə həmin teatrda səhnələşdirilən tamaşalarda əsas qadın rollarının ifaçısı idi.

İllər öncə müsahibimiz olmuş sənətkar uşaqlıq illərini, valideynlərini sonsuz sevgi və minnətdarlıqla yada salmışdır: "Atam xasiyyətcə tamamilə anamın əksinəydi, - Azər Rzayev deyirdi. - Anam nə qədər sərt, ağırtəbiətli idisə, atam bir o qədər mülayim, sakit idi. Qəribədir, o qədər fərqli olmaları onları bir-birindən nəinki uzaqlaşdırmadı, əksinə, daha da yaxınlaşdırdı. Anam daxilən güclü qadın idi. Amma uğurlarına özündən artıq sevinən həyat yoldaşının hər zaman yanında olması onu daha da ötkəm, arxayın edirdi".

Hələ körpə ikən ana laylasıtək dinlədiyi Azərbaycan muğamları ruhuna hopmuşdu. Azər Rzayev deyirdi: "Anamın uşaqlarının körpəliyindən danışmaqdan xoşu gəlirdi. Bizə deyirdi ki, siz balaca olanda muğam üstə laylay oxuyurdum. Gözlərinizi yumub sakit olurdunuz. Elə ki oxuya-oxuya bir muğamdan başqasına keçirdim, o dəqiqə gözlərinizi açıb baxırdınız. Hiss edirdiniz ki, oxumağımı dəyişdim".

Tanınmış sənətkarların övladı olmağın bir üstünlüyü də vardı. Azər Rzayev hələ kiçik yaşlarından evlərinə tez-tez gələn sənət adamlarını -Niyazi, Qurban Pirimov, Əlövsət Sadıqov, Hüseynağa Hacıyev, Bülbül və başqalarını tanıyırdı. Azər Rzayev yada salırdı: "Biz ağlımız kəsəndən evimizdə musiqi səsləri eşitmişdik. Yəqin elə buna görə musiqiçi olduq. Bacım Bülbül adına musiqi məktəbini bitirəndən sonra ərəb dilini öyrəndi, müəllimə işlədi. Ancaq qardaşım Həsənlə mən bəstəkar olduq. İkimiz də musiqi bəstələməyə kiçik yaşlarımızdan başladıq".

## Unudulmaz görüş

Ömrünün ən unudulmaz günlərindən biri də dahi Üzeyir Hacıbəylinin görüşünə getdikləri gün idi. O vaxtlar qardaşı Həsən Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) nəzdində fəaliyyət göstərən onillik musiqi məktəbinin (indiki Bülbül adına musiqi məktəbi) altıncı, o isə dördüncü sinfində oxuyurdu. Həqiqət Rzayeva oğlanlarını konservatoriyaya aparırdı ki, onların bacarığına Üzeyir bəy qiymət versin. Onlar konservatoriyaya çatanda Üzeyir bəy pillələri enirdi. O, Həqiqət xanımdan soruşdu: "Bu uşaqları hara aparırsan?" Həqiqət Rzayeva: "Üzeyir bəy, uşaqları gətirmişdim sizə göstərim. Bunlar kiçik mahnılar, balaca pyeslər yazırlar. İstəyirdim qulaq asasınız, görəsiniz bunlardan bir şey çıxar, ya yox. Amma gedirsiniz də... Eybi yoxdur, başqa vaxt gələrəm", - dedi. Üzeyir bəy razılaşmadı. Geri döndü.

Azər Rzayev o günü təfərrüatı ilə xatırlayırdı: "Qayıtdı. Bizi apardı öz otağına. Oturduq. Üzeyir bəy bizdən soruşdu:

- Oğlanlar, hansınız qoçaqsınız?

Mən qardaşımdan dəcəl idim. Özüm də idmanla məşğul olurdum. Üzeyir bəyin sualını eşidən kimi cəld qalxdım ayağa.

- Mən!

- Hə, onda get, birinci sən başla çalmağa.

Mən, sonra da qardaşım kiçik əsərlər ifa etdik. Üzeyir bəy anama dedi:

- Sənin oğlanlarının ikisi də bəstəkar olacaq.

Zəngi basdı. Köməkçisi gəldi. Üzeyir bəy dedi:

- Bunların ikisini də Zeydmanın sinfinə yazdır.

Zeydman böyük müəllim idi. Fikrət Əmirov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Soltan Hacıbəyov və başqalarına dərs deyib. Üzeyir bəyin köməyi ilə Zeydmanın sinfində oxumağa başladıq.

Anam, deyə bilmərəm ki, dərslərimizlə həmişə məşğul olurdu, hər halda maraqlanırdı. Zeydmanın sinfində biz muğam dərsləri keçmirdik axı. Heç sonralar da anam heç vaxt bizim bəstəkarlıq məsələlərimizə qarışmadı".

## Sənət uğurları

Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki Musiqi Məktəbində skripka aləti üzrə professor S.Bretanitskinin sinfində və eyni zamanda Boris Zeydmanın uşaq yaradıcılığı sinfində təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Konservatoriyasına daxil olan Azər Rzayev 1953-cü ildə konservatoriyanı iki ixtisas üzrə - bəstəkarlıq üzrə professor B.Zeydmanın və skripka üzrə professor A.Amitonun sinfini bitirdi. Onillik musiqi məktəbində skripka ixtisası üzrə müəllim və konservatoriyada konsertmeyster-müşayiətçi kimi əmək fəaliyyətinə başladı.

A.Rzayev gənc yaşlarından həm bəstəkar, həm də ifaçı kimi diqqəti cəlb etdi. Məsuliyyət, sevgi və zəhmətlə musiqi sənəti yolunda ilk addımlarını atdı. Onu bəstəkar kimi ilk tanıdan skripka ilə simfonik orkestr üçün 1 saylı konserti oldu. Azər Rzayev həmin əsərinə görə 1955-ci ildə Varşavada keçirilən bəstəkarların beynəlxalq müsabiqəsində laureat adına layiq görüldü. Sonralar beynəlxalq və ümumittifaq müsabiqələr laureatı və diplomantı, Azərbaycan gəncləri arasında keçirilən festivallarda həm bəstəkar, həm də ifaçı kimi laureat oldu.

1954-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının, 1957-ci ildən isə Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü olmuş A.Rzayev ildənilə yaradıcılıq diapazonunu genişləndirdi, müxtəlif janrlı əsərlər yazdı. Onun yaradıcılığında əsas yeri instrumental musiqi janrları tuturdu. Azər Rzayev skripka ilə simfonik orkestr üçün 3 konsertin, 6 poemanın, eləcə də "Həyat vurğunu", "Nəsimi", "Atamın xatirəsinə" poemalarının, "Bakı-90" simfoniyasının, skripka ilə orkestr üçün "Fədai-Vətən", violonçel və simfonik orkestr üçün "Poema-konsert"in, tar və simfonik orkestri üçün "Düşüncə" və "Qaytağı", fortepiano və simfonik orkestr üçün konsertin, eləcə də "Hacı Kərimin Aya səyahəti" adlı operettasının, çoxlu sayda kamera-instrumental əsərlərin, tamaşalara, filmlərə yazılmış musiqilərin müəllifidir.

Azər Rzayev Radio və Televiziya Verilişləri Komitəsində səs rejissoru (1958-1960), Müslüm Maqomayev adına Dövlət Filarmoniyasında bədii rəhbər (1965), Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru (1972-1987) olmuşdur. Azərbaycan Dövlət Opera və Balet Teatrına rəhbərlik etdiyi dövrdə onun təşəbbüsü ilə Azərbaycan bəstəkarlarının bir sıra yeni opera və balet əsərləri uğurla səhnələşdirilmişdir.



Bülbül adına orta ixtisas Musiqi Məktəbi nəzdində 1997-ci ildə "Uşaq simfonik orkestri" yaratdı. Bədii rəhbəri və dirijoru olduğu bu orkestrin fəaliyyəti ölkəmizin musiqi həyatında mühüm hadisə idi.

Pedaqoq kimi də Azərbaycan musiqi sənətinin inkişafına xidmət göstərən Azər Rzayev yeni ifaçıların yetişməsi üçün bilik və bacarığını əsirgəməmişdir. O, 1957-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında kamera ansamblı üzrə müəllim, baş müəllim, professor kimi fəaliyyət göstərmişdir.

1963-cü ildən televiziya və radioda "Azərbaycan musiqi tarixindən səhifələr", "Orkestrin musiqi alətləri haqqında", "Bəstəkarlarımızın portreti", "Musiqi aləmi" silsilə verilişlərinin müəllifi və aparıcısı olmuş A.Rzayev dövri mətbuatda da Azərbaycan musiqi mədəniyyətinin yorulmaz təbliğatçısı kimi tanınırdı.

Əməyi yüksək dəyərləndirilən Azər Rzayev Əməkdar incəsənət xadimi, Xalq artisti fəxri adlarına, "Şöhrət" ordeninə layiq görülmüş, Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu ilə təltif olunmuşdur.

Uzunillik yaradıcılıq yolu keçən, hər zaman özünəməxsus üslubda yazıb-yaradan, Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış nümayəndələrindən biri olan Azər Rzayev 2015-ci il dekabrın 14-də Bakıda vəfat etmişdir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

◆ **Sənət dünyası**

# "Nə zaman o zənglər sussa, onda mən də olmayacağam"

**Çoxsaylı mahnıların müəllifi, tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi Ruhəngiz Qasımova 1940-cı ildə Bakıda dünyaya gəlib. Ovaxtkı Azərbaycan Dövlət Televiziyası və Radiosunda işə baslayıb, sonralar radionun Uşaq verilişləri redaksiyasında redaktor kimi fəaliyyətini davam etdirib.**



Musiqi sənətinə gəlişi barədə özü belə deyirdi: "Gözümü açandan Şövkət Ələkbərovanın, Sara Qədimovanın, Bülbülün, Rəşid Behbudovun mahnıları ilə böyümüşəm. Radıonun qarşısında oturub saatlarla onlara qulaq asardım". Musiqiyə olan bu həvəsi onu 1954-cü ildə Asəf Zeynallı adına Musiqi Texnikumuna gətirib. Burada Müthəd Əhmədovdan bəstəkarlıq dərsi alan Ruhəngiz Qasımova 1958-ci ildə ali musiqi təhsilini Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında davam etdirib. Ürəyi musiqi ilə döyünən gənc xanıma burada zəmanəmizin görkəmli bəstəkarı Cövdət Hacıyevdən dərs almaq nəsib olur. Özünün də dəfələrlə dediyi kimi, məhz Cövdət Hacıyevin dərsləri, onunla ünsiyyət Ruhəngizin kamil bir bəstəkar kimi püxtələşməsində böyük rolu olur. Ruhəngiz xanım konservatoriyada təhsil aldığı illəri belə xatırlayardı: "Bir sonata formasının ekspozisiyasını altı-yeddi variantda dərsə aparırdıq, müəllimimiz yenə də razı qalmırdı. Beləcə, Cövdət Hacıyev tələbələrinə özlərinə qarşı tələbkarlığı öyrədirdi".

Gənc bəsətəkarın 20 yaşı olanda atası dünyadan köçür. Ata itkisini musiqi ilə ifadə etməyə çalışan gənc xanım "İntizar" mahnısını yazır. Mahnını ifa etmək üçün dünyaşöhrətli sənətkar Rəşid Behbudova müraciət edir. Tələbə qızın mahnısı böyük sənətkarın ürəyincə olur və mahnını məmnuniyyətlə ifa edəcəyini bildirir. Beləliklə, gənc bəstəkar Ruhəngiz Qasımovanın Rəşid Behbudovla yaradıcılıq əlaqələri başlayır. Rəşid Behbudovun ifasında səslənən "Anacan, dostum evlənir" mahnısı hər iki sənətkarı xalqa daha da sevdirir. Bəxtiyar Vahabzadənin sözlərinə yazılan və dahi Rəşid Behbudovun ifasında səslənən "Laylay" mahnısı da bəstəkarın bu janrda yazdığı ilk nümunələrindəndir. Bəstəkarın "Utancaq oğlan", "Gəlmirsən, gəlmə" kimi lirik mahnıları ilə yanaşı, müğənnidən güclü səs tələb edən "Azərbaycan" mahnısı da bu janrın təkrarsız incilərindəndir.

Azərbaycan musiqi mədəniyyətinə, incəsənətinə böyük töhfələr verən bəstəkar Ruhəngiz Qasımova ürəyəyatımlı, lirik, vətənpərvərlik mövzulu çoxsaylı mahnılara, musiqi əsərlərinə məlliflik edib. Teletamaşalara aparan yol isə hələ tələbə ikən 1961-ci ildə Naxçıvan Dövlət Dram Teatrında hazırlanan "Kölgəli dağ" tamaşasına (quruluşçu rejissor, Xalq artisti Tofiq Kazımov) yazdığı musiqidən başlayıb.

Hekayələri "Ədəbiyyat və incəsənət" qəzetində, "Azərbaycan", "Ulduz" jurnallarında dərc olunan Ruhəngiz xanım 1970-ci ildə "Babamın muzeyi" adlı ilk hekayələr kitabı çapdan çıxdıqdan sonra özünü dramaturgiya sahəsində də sınayır. "Yollar görüşəndə" televiziya tamaşasını yazır. Musiqisi və liberettosu Ruhəngiz Qasımovaya məxsus olan əsər rejissor Ramiz Mirzəyevin quruluşunda televiziya tamaşası kimi zamanında çox böyük uğur qazanır. Bəstəkar daha sonra "Məzəli əhvalatlar" musiqili komediyasını yazır. 1979-cu ildə səhnəyə qoyulan bu əsər uzun illər teatrın repertuarından düşmür. Onun əsərləri arasında "Quyu" tamaşasına musiqi , "Qızıl oğlan", "Ömrün yolları" və "Qonşu qonşu olsa" musiqili nağıl yaradıcılığında xüsusi yer tutur. Filmoqrafiyasında 50-ə yaxın filmi olan Ruhəngiz Qasımova 75 yaşında Yazıçılar Birliyinə üzv olub. Özünüzü daha çox bəstəkar, yoxsa yazıçı hesab edirsiniz sualına isə həmişə belə cavab verib: "Musiqi bəstələyəndən sonra yazı masama hücum çəkirəm. Nəsə yazıram, o da alınmayanda mahnı bəstələyirəm".

Xanım bəstəkar mətbuata verdiyi açıqlamasında özünü belə xarakterizə etmişdir: "Fikrət Qoca zəng edib təzə mahnı mətnlərini deyirdi. Bizim iş prinsipimiz çox orijinal idi. O bilirdi ki, mən makinadan çıxan mətnlə işləmirəm. Ya gərək əl yazısı olsun, ya da o diktə eləsin, mən əllə yazım. Hər gün mütaliə edirəm. 20 ildir "Soverşenno sekretno", "Sobesednik" və başqa jurnallara abunəyəm. Hər gün krossvord edirəm, krossvord edəndə beyin itiləşir. Özü də mən bizim krossvordları xoşlamıram, çox bəsitdilər. Nərd oynamağı xoşlayıram. Yoldaşımla nərd oynayırıq. Nəvəmlə şahmat oynayıram. Nərd üçün ölürəm. Cığal da deyiləm. Mən "azartnı" adamam. Riskə getməyi xoşlayıram".

Görkəmli sənətkarın yeganə qızı Honq-Konqda yaşayırdı. Ruhəngiz xanım vaxtaşırı qızına baş çəkmək üçün Çinə gedərdi. Mətbuata açıqlamasında özü bu barədə belə demişdir: "Mən Bakıda doğulmuşam, burada böyüyüb, buranın havasını udmuşam. Honq-Konqa qızımın yanına gedəndə darıxıram. Çünki orada heç kim məni telefonla axtarmır. Amma burada üç mobil telefonum, iki ev telefonum var. Hər gün o telefonlardan mənə zənglər gəlir. Nə zaman o zənglər sussa, deməli, onda mən də olmayacağam".

Bir gün ona olunan zənglər cavabsız qalır. Əməkdar incəsənət xadimi 2022-ci il oktyabrın 9-da Honq-Konqda vəfat edir. Vəsiyyəti ilə Bakıda dəfn olunur.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# İçərişəhərdə "ağıllı qoruq" konsepsiyası tətbiq olunacaq

**İçərişəhərdə yeni "ağıllı qoruq" konsepsiyasının hazırlanması üzərində iş aparılır. Bu konsepsiya ərazidə təhlükəsizlik, nəzarət, məlumatlandırma və ziyarətçi-yönümlü xidmətlərin rəqəmsal həllər vasitəsilə təkmilləşdirilməsini nəzərdə tutur. Hazırda qarşımıza üç əsas hədəf qoymuşuq: müasir muzeyçilik yanaşmasının tətbiqi, universal əlçatanlığın təmin olunması və abidələrin təhlükəsizliyinin texnoloji əsaslarla gücləndirilməsi. Yeni texnologiyaların tətbiqi ilə həm tarixi irsi qoruya, həm də ziyarətçilərin təcrübəsini zənginləşdirə bilərik.**



Bu fikirləri "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud Milli Məclisin Mədəniyyət komitəsinin ictimai dinləməsində bildirib.

R.Mahmud çıxışında tarixi qoruq ərazilərində abidələrin mühafizəsinin böyük maliyyə, texniki və inzibati resurslar tələb etdiyini vurğulayıb. Onun sözlərinə görə, İçərişəhər kimi memarlıq baxımından unikal və UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş bir ərazidə tarixi irsin qorunması həm peşəkarlıq, həm də texnoloji yeniliklərə əsaslanan kompleks yanaşma tələb edir: "Tarixi abidələrin bərpası və qorunması yalnız fiziki işlərdən ibarət deyil. Əlilliyi olan şəxslər üçün keçidlərin təşkili, turizm axınının balanslaşdırılması və muzey infrastrukturunun yenilənməsi kimi məsələlər də bu prosesin tərkib hissəsidir. Muzeylərimiz müasir texnologiyalara uyğunlaşdırılmalı və ziyarətçilərin gözləntilərinə cavab verən təcrübə təqdim etməlidir".

O, həmçinin bildirib ki, İçərişəhərdə bir sıra bərpa layihələri artıq başa çatdırılıb. Hazırda XIX əsrə aid Qala "Bayraməli hamamı"nın bərpasına başlanılıb və yaxın müddətdə onun ilkin görünüşünün bərpası istiqamətində işlər intensivləşdiriləcək.

Sonra o qeyd edib ki, İçərişəhər yalnız tarix və mədəniyyətin deyil, həm də müasir şəhər idarəetmə modellərinin tətbiq olunduğu canlı irs məkanı olmalıdır.

# "Qaravəlli" tamaşasının premyerası Sumqayıt səhnəsində

**Sumqayıt Dövlət Dram Teatrında Mədəniyyət Nazirliyinin "Öyrədərək öyrənirəm" layihəsi çərçivəsində görkəmli yazıçı Anarın "Qaravəlli" əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası keçirilib.**

Bu barədə teatrın Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, yeni yaradıcılıq işinin quruluşçu rejissoru Abdulla, quruluşçu rəssamı Nizami Dadaşov, musiqi tərtibatçısı Elay Xasiyev, tamaşanın rejissoru isə Rəvan Hüseynzadədir. Səhnə əsərinin ritmikası Ramazan Xanlarova, musiqilərin ifası isə "Dərviş" qrupuna aiddir.

Tamaşanın əsas mövzusu cəmiyyətdə insanların bir fağır, zəif, ehtiyaclı insanı necə linç etməsi üzərində qurulub.

Səhnə əsərində obrazları Əməkdar artist İzaməddin Bağırov, aktyorlar Kamran Muradlı, Şəmistan Süleymanlı, İlham Səfərli, Elmir Mehdiyev, Habil Xanlarov, Elay Xasiyev, Aynur Hümmətova, İlahə Səfərova, Ramazan Xanlarov və Etibar Cəbiyev canlandırıblar.



# Uşaqların sevimlisi "Ələkbər əmi"

**Bir çox televiziya tamaşalarında uğurlu, özünəməxsus obrazlar yaradan, eyni zamanda Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində bir-birindən maraqlı obraz və tamaşalar qalereyası ərsəyə gətirən Əməkdar artist Ələkbər Hüseynov yaradıcılığı ilə ürəklərə yol taparaq, böyük tamaşaçı sevgisi qazanıb.**



Bu günlərdə unudulmaz aktyor, öz duzlu-məzəli çıxışları ilə uşaqların qəlbinə yol tapan Ələkbər Hüseynovun anadan olmasının 64-cü ildönümü tamam olur.

1961-ci il iyulun 7-də Bakıda anadan olan Ə.Hüseynov 1978-1982-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsində təhsil alıb. Bir müddət təyinatla Şəki Dövlət Dram Teatrında işlədikdən sonra 1988-ci ildə A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında aktyor vəzifəsində çalışmağa başlayıb. Bu teatrın səhnəsində çox sayda tamaşada rol alıb. "Səadət quşu" və "Möcüzəli tamaşa" pyeslərini teatrın rus bölməsində tamaşaya hazırlayıb. "Keçəlin toyu" tamaşasındakı "Keçəl" rolu ilə İstanbulda, "Bülbül" tamaşası ilə İranda, Türkmənistanda keçirilən beynəlxalq festivalların laureatı olub.

Sənətdə qazandığı nailiyyətlərə görə "Humay" və "Qızıl Dərviş" mükafatlarına layiq görülüb. Beynəlxalq festivallarda iştirak edib. Polşanın "Təbəssüm Ordeni" mükafatını alıb. 2000-ci ildə Əməkdar artist fəxri adına layiq görülüb. 2006-cı ildə Dövlət Kukla Teatrının baş rejissoru vəzifəsinə təyin olunub.

Qeyd edək ki, Əməkdar artist Ələkbər Hüseynov 2007-ci il avqustun 2-də uzun sürən xəstəlikdən vəfat edib.

## MARAQ MƏKTUBLARININ QƏBUL EDİLMƏSİNƏ DAİR ELAN (MƏSLƏHƏT XİDMƏTLƏRİ)

**Azərbaycan Respublikası**
**Məşğulluğa Dəstək Layihəsi**
Borc No.: 9172-AZ

**Tapşırığın adı:** ÖMP (Özünüməşğulluq proqramı) benefisiarları üçün müşahidə səfərlərinin və mentorluq xidmətlərinin göstərilməsi və həvəsləndirmə mükafatlarının, əməkhaqqı subsidiyasının və İYT (iş yerində təcrübə) xidmətlərinin təşkilində köməklik və şagirdlik fəaliyyətlərinə vasitəçilik üzrə Məsləhət Xidmətləri

**İstinad Nömrəsi** (Satınalma Planına uyğun olaraq): AZ-MLSPP-494385-CS-QCBS

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsini həyata keçirmək məqsədilə Dünya Bankından cəlb edilən maliyyə vəsaitlərinin bir hissəsini məsləhət xidmətlərinin satın alınmasına yönəltmək niyyətindədir.

Məsləhət xidmətləri ("Xidmətlər") ÖMP (Özünüməşğulluq proqramı) benefisiarları üçün müşahidə səfərlərinin və mentorluq xidmətlərinin göstərilməsi və həvəsləndirmə mükafatlarının, əməkhaqqı subsidiyasının və İYT (iş yerində təcrübə) xidmətlərinin təşkilində köməklik və şagirdlik fəaliyyətlərinə vasitəçilik xidmətlərinin göstərilməsi üzrə, 48 ay ərzində icra olunmaqdan ibarətdir (yanvar 2026 tarixində başlayacağı gözlənilir).

*Ətraflı Texniki Tapşırıq ilə aşağıdakı linkdən tanış olmaq olar: https://azesp-my.sharepoint.com/:w:/g/personal/office_esp_az/Efco8BJHcI5Dn7FNSMwao68BCYOeaImGzOYWmL0yna4V_A?rtime=JoRSKCG93Ug*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi, uyğun məsləhətçi şirkətləri qeyd olunan xidmətlərin təmin edilməsində maraqlı olduqlarını bildirməyə dəvət edir. Xidmətlərin həyata keçirilməsində maraqlı olan məsləhətçi şirkətlər müvafiq təcrübə və ixtisaslarını göstərən məlumatları təqdim etməlidirlər. Qısa siyahıya düşmək üçün meyarlar: oxşar xarakterə və mürəkkəbliyə malik layihələrin həyata keçirilməsində təcrübə (məsələn, mentorluq xidmətlərinin göstərilməsi, müşahidə səfərləri və/və ya KOM-lara, Biznes Assosiasiyalarına hərtərəfli təlim); mentorluğu inkişaf etdirmək və təlimatlara əməl etmək təcrübəsi; ÖMP və KOM üçün mentorluq xidmətlərinin göstərilməsi üzrə təcrübə; ÖMP və KOM-lar üçün təlim sonrası müşahidə səfərlərinin təşkili təcrübəsi; regionlarda və oxşar şəraitdə regional təcrübə. Qısa siyahı mərhələsində əsas işçi heyəti qiymətləndirilməyəcək.

Maraqlı olan Məsləhətçilərin diqqəti Dünya Bankının noyabr 2017, avqust 2018, noyabr 2020 və sentyabr 2023-cü illərdə yenidən baxılmış ("Satınalma Qaydaları"), iyul 2016-cı il tarixli "İLM üzrə Borcalanlar üçün Satınalma Qaydaları" sənədinin Bölmə III, 3.14, 3.16 və 3.17-ci bəndlərinə yönəldilir ki, bu da Dünya Bankının maraqların toqquşmasına dair siyasətini təyin edir.

Məsləhətçi şirkətlər öz ixtisasını artırmaq üçün əməkdaşlıq qura bilərlər, lakin dərnəyin ortaq müəssisə və / və ya sub-konsultasiya şəklində olub olmadığını aydın şəkildə göstərməlidirlər. Birgə müəssisə olduqda, ortaq müəssisədəki bütün tərəfdaşlar seçildiyi təqdirdə müqavilə üzrə ortaq və ayrı-ayrılıqda öhdəlik daşıyırlar.

Məsləhətçilərin seçim prosesi Satınalma Qaydaları ilə müəyyən edilmiş Məsləhətçilərin keyfiyyət və qiymətə əsaslanan seçim metoduna uyğun olaraq keçiriləcəkdir.

Əlavə məlumatı iş saatı ərzində (Bazar ertəsi-cümə günləri saat 09:00-dan 18:00-a kimi) aşağıda göstərilən ünvandan əldə etmək olar.

Maraq məktubları 29 iyul 2025-ci il tarixinədək aşağıdakı ünvanlara (şəxsən, məktub şəklində, faks və ya elektron poçt vasitəsilə) göndərilməlidir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi**
**Kimə: Fəqan Əsgərov, Layihə Koordinatoru**
**AZ1100, Nazim Hikmət küç.,**
**Rich Plaza, 1-ci giriş, 2-ci mərtəbə**
**Bakı, Azərbaycan**
**Tel: (994 12) 5253449**
**E-mail: fagan.asgarov@esp.az; aybeniz.hajiyeva@esp.az**

## REQUEST FOR EXPRESSIONS OF INTEREST (CONSULTING SERVICES – FIRMS SELECTION)

**The Republic of Azerbaijan**
**Employment Support Project**
Loan No.: 9172-AZ

**Assignment Title:** Provision of follow up visits and mentoring services for SEP beneficiaries, and assistance in organization of matching awards, wage subsidy and OJT services and intermediation of apprenticeship activities

**Reference No.** (as per Procurement Plan): AZ-MLSPP-494385-CS-QCBS

The Ministry of Labor and Social Protection of Population has received financing from the World Bank toward the cost of the Employment Support Project, and intends to apply part of the proceeds for consulting services.

The consulting services (“the Services”) include provision of follow up visits and mentoring services for SEP beneficiaries, and assistance in organization of matching awards, wage subsidy and OJT services and intermediation of apprenticeship activities, with 48 month of implementation period (expected to start about January 2026).

*The detailed Terms of Reference (TOR) for the assignment can be found at the following link: https://azespmy.sharepoint.com/:w:/g/personal/office_esp_az/Efco8BJHcI5Dn7FNSMwao68BCYOeaImGzOYWmL0yna4V_A?rtime=JoRSKCG93Ug*

The Ministry of Labor and Social Protection of Population / Employment Support Project now invites eligible consulting firms (“Consultants”) to indicate their interest in providing the Services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services. The shortlisting criteria are: experience in implementation of projects with similar nature and complexity (i.e. providing mentorship services, follow up visits, and/or comprehensive training to SMEs, Business Associations); experience in developing mentorship and follow up guidelines; experience for delivery of mentorship services for SEP and SME; experience in organization of post-training follow-up visits for SEP and SME; regional experience in similar regions and circumstances. Key Experts will not be evaluated at the shortlisting stage.

The attention of interested Consultants is drawn to Section III, paragraphs, 3.14, 3.16, and 3.17 of the World Bank’s “Procurement Regulations for IPF Borrowers” July 2016, revised November 2017, August 2018, November 2020 and September 2023 (“Procurement Regulations”), setting forth the World Bank’s policy on conflict of interest.

Consultants may associate with other firms to enhance their qualifications but should indicate clearly whether the association is in the form of a joint venture and/or a sub-consultancy. In the case of a joint venture, all the partners in the joint venture shall be jointly and severally liable for the entire contract, if selected.

A Consultant will be selected in accordance with the Consultants Quality and Cost-based Selection method set out in the Procurement Regulations.

Further information can be obtained at the address below during office hours (Monday to Friday 09:00 to 17:00 hours).

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by July 29, 2025.

**Ministry of Labor and Social Protection of Population / Employment Support Project**
**Attn: Mr. Fagan Asgarov, Project Coordinator**
**27, Nazim Hikmet str.,**
**Rich Plaza, 1st entrance, 2nd floor**
**AZ1100, Baku, Azerbaijan**
**Tel: (99412) 5253449**
**E-mail: fagan.asgarov@esp.az; aybeniz.hajiyeva@esp.az**

# Nyu Yorkun növbəti meri kim olacaq

## Demokratlar Partiyasının yeni siması önə çıxır

**Nyu Yorkda Demokratlar Partiyasının praymerizində qalib gələn Zohran Mamdaninin meqapolisin növbəti meri olmaq ehtimalı yüksəkdir. Bu xəbər Amerikada xeyli hiddət, heyranlıq, qorxu və fərziyyələrə səbəb olub.**



Söhbət təkcə 33 yaşlı Mamdaninin mənşəyi deyil, həm də onun təbliğ etdiyi siyasətdən gedir. O, Uqandada anadan olub, islamı qəbul edib, orta təbəqə üçün müavinətlər və bonuslar vəd edir, habelə Fələstinin tərəfdarıdır. Belə bir namizədin qələbəsi son illər mövqelərini əhəmiyyətli dərəcədə itirməkdə olan ABŞ Demokratik Partiyası üçün yeni dövr ola bilər.

Bəs bir solçu siyasətçi ABŞ siyasi sistemində nəyisə dəyişə biləcəkmi? Zohran Mamdani ziyalı ailəsində anadan olub. Atası müstəmləkəşünaslıq üzrə professor, anası kino rejissorudur. Valideynlərinin Hindistan, Uqanda və Amerika kökləri var. Solçu baxışların tərəfdarı olan gənc siyasətçi karyerasına "Amerika Demokratik Sosialistləri" təşkilatının dəstəyi ilə başlayıb. 2020-ci ildə Nyu York Dövlət Assambleyasında post üçün Demokratlar Partiyasının ilkin seçkilərində qalib gəlib. Onun ən diqqətəlayiq nailiyyəti 2024-cü ildə Nyu Yorkda pulsuz avtobuslar pilot proqramını işə salmasıdır.

Merlik kampaniyasına da Mamdani sosialist gündəmi ilə başlayıb. Onun əsas təkliflərinə pulsuz ictimai nəqliyyatın genişləndirilməsi, minimum əməkhaqqının tədricən saatda 16 dollardan 30 dollara qaldırılması, uşaqlı ailələrə dəstək və ucuz məhsullarla şəhər mağazalar şəbəkəsinin yaradılması daxildir. Lakin əleyhdarlarını xüsusilə qəzəbləndirən odur ki, Mamdani ildə 1 milyon dollardan çox qazanan şirkətlər və fiziki şəxslər üçün vergiləri qaldırmağı, eləcə də şəhərdə kirayə mənzillərin əlçatanlığını artırmaq üçün müəyyən mülklər üzrə icarə haqqı artımlarını dondurmağı planlaşdırır.

Mamdaninin əsas rəqibi Demokratlar Partiyasının siyasi ağırçəkili fiquru Endryu Kuomodur. O, 2011-ci ildən 2021-ci ilə qədər Nyu York qubernatoru vəzifəsində çalışıb və 11 qadın onu iş yerində cinsi təcavüzdə ittiham etdikdən sonra vəzifəsini tərk edib. Beləliklə, liberal Amerikanın ulduzu olan E.Kiomo təcavüzdə və COVID-19 ölümləri ilə bağlı məlumatları gizlətməkdə ittiham olunur. Buna baxmayaraq, Kuomo isteblişmentlə əlaqələri, partiya aparatını manipulyasiya etmək bacarığı və sərt idarəetmə tərzinə görə Demokratik Partiyasında uzun müddətdir yüksək nüfuza malikdir. Meriya başçısı kampaniyası zamanı Kuomo özünü təcrübəli və effektiv menecer kimi göstərib və mötədil mövqelərdən çıxış edib. Onun Nyu York merliyinə namizədliyi siyasətə qayıdışı ola bilərdi.

Məhz buna görə də Mamdaninin praymerizdə qələbəsi belə böyük və gözlənilməz bir xəbər olub - yeni gələn sosialist təcrübəli ağırçəkiliyə qalib gələrək demokratların namizədliyini qazanıb. Ümumilikdə Mamdani 56, Kuomo isə 44 faiz səs qazanıblar.

Məğlubiyyətə baxmayaraq, Kuomo hələ də seçki bülletenində müstəqil namizəd olaraq görünəcək. Lakin onun fəal şəkildə kampaniya aparıb-aparmayacağı hələ məlum deyil. Hazırkı mer Erik Adams da müstəqil namizəd kimi seçkilərdə iştirak edəcək.

Zohran Mamdanini isteblişment siyasətçilərindən fərqləndirən mühüm xüsusiyyət onun nisbətən ucuz - 8 milyon dollarlıq kampaniya ilə qalib gəlməsidir. Kuomonun isə təxminən 25 milyon dolları var idi. Kuomo büdcənin böyük hissəsini milyarder Maykl Blumberq də daxil olmaqla əsas donorlardan alıb. Mamdani bildirib ki, onun kampaniyası şəhər sakinlərinin özləri tərəfindən maliyyələşdirilib və orta ianə 84 dollar təşkil edib.

Amma ötən praymerizlərin göstərdiyi kimi, kampaniyanın büdcəsi o qədər də vacib deyil. Aparıcı mediadan, televiziyadakı adi reklamlardan və şəhər bannerlərindən, demək olar ki, heç bir dəstəyi olmayan Mamdani sosial şəbəkələrə, könüllülər hərəkatına və şəhər sakinləri ilə şəxsi təmaslara arxalanıb. Onun tərəfdarları həmçinin konsert məkanları və barların yaxınlığında çadırlar qurub, ədəbiyyat paylayıblar. Mamdaninin özü də şəxsən qapı-qapı gəzib və insanlarla danışmaq üçün metroya enib. Praymerizdən əvvəl hətta Manhetteni də piyada gəzib.

Mamdani sərvətin yenidən bölüşdürülməsindən danışıb, sosial təminatlar, şəhər xidmətlərinin əlçatanlığını vəd edib və şəhərdə yaşayış xərclərini azalda biləcəyini bildirib. Nəticədə o, təkcə gənclərin deyil, həm də orta təbəqənin, fəhlələrin, Asiya və ispandilli əhalinin dəstəyini qazana bilib. Bu da ona nominasiyada qalib gəlməyə kömək edib.

Mamdaninin kampaniyası Çin, benqal, Nepal və ispan dillərində də aparılıb və onun könüllüləri məscidlərə və Asiya məhəllələrinə gediblər. Nüfuzlu solçu "Jacobin" nəşri yazır ki, Mamdaninin kampaniyası fəhlə sinfi tərəfindən fəhlə sinfi üçün yaradılıb. Nəşr həmçinin vurğulayır ki, bir çox şəhər sakinləri Nyu Yorkda mənzil xərclərinin sürətlə artmasından yorulublar və o üzdən Mamdaninin kampaniyası məhz buna yönəlib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Paşinyan-kilsə qarşıdurması gərginləşir

## Baş nazir II Qaregini dövlət çevrilişinə dəstəkdə ittiham edir

**Paşinyan-kilsə qarşıdurması son zamanlar yeni mərhələyə adlayıb. Bu dəfə N.Paşinyan kilsəyə, xüsusilə kilsənin rəhbəri II Qareginə qarşı hücuma keçib. Məsələ ondadır ki, erməni kilsəsi ölkənin siyasi idarəçiliyinə müdaxilə etməyə çalışır, Paşinyan isə buna qarşı çıxır.**

N.Paşinyan "Feysbuk" hesabında paylaşıb ki, əgər Ktriç Nersisyan (II Qaregin - red.) Vazgen Qalstanyanın (Baqrat) və Gevorq Acapaxyanın həbsini qanunsuz hesab edirsə, deməli, o, adıçəkilən şəxslərin ideologiyasını və ölkədə hərbi çevriliş etmək, insanları küçələrdə güllələmək, xaos yaratmaq planlarını dəstəkləyir: "Belə olduğu təqdirdə, Vaqarşapatın genişləndirilmiş icmasına daxil olan heç bir ərazi hüquq-mühafizə orqanlarının fəaliyyətindən kənarda qala bilməz. Xüsusilə də ona görə ki, Ktriç və bir neçə digər şəxsin sayəsində həmin ərazilər əxlaqsız davranışlar üçün hələ də əlverişlidir".

Paşinyan artıq bir müddətdir ki, kilsə rəhbərliyini dövlət işlərinə müdaxilədə və siyasi dairələrlə gizli əməkdaşlıqda ittiham edir. Onun fikrincə, Ermənistan Apostol Kilsəsi, xüsusən də hazırkı katolikos cəmiyyətin demokratik inkişafına mane olur və keçmiş hakimiyyətlərlə sıx əlaqədə qalmaqda davam edir.

Ekspertlər bildirirlər ki, Paşinyan bu bəyanatı xalqla kilsə arasındakı münasibətləri sarsıtmaq məqsədilə verib. Xüsusilə gənc nəslin kilsəyə olan münasibətindəki dəyişiklik və dinin siyasi nüfuzunun azalması fonunda bu cür çağırışlar cəmiyyətdə müəyyən dəstək qazana bilər.

"Hraparak" nəşri yazıb ki, bir tərəfdən iqtidar nümayəndələri müxalifətə, kilsəyə və özlərinin siyasi kursuna qarşı çıxanların hamısına qarşı müharibə aparır, digər tərəfdən isə komandadaxili çəkişmələrin pik həddə çatdığı haqda xəbərlər yayılır. Amma səbəb kilsəyə qarşı kampaniya və baş nazirin söyüş dolu statusları deyil, sentyabrda gözlənilən "Vətəndaş Müqaviləsi" partiyasının konfransı, yeni, daha əhatəli idarə heyətinin seçkiləri və 2026-cı il seçkilərindən sonra hökumət vəzifələrinin yenidən bölüşdürülməsi məsələsidir.

Müəllif bildirib ki, bu fonda parlamentin spikeri vəzifəsi üçün güclü rəqabət var. Bunun üçün komandada iddialılar da az deyil: "Tiqran Avinyana qarşı da əks-təbliğat aparılır. Bunun himayədarı Paşinyandır. Paşinyan Avinyanı öz qulluqçuları vasitəsilə idarə heyətindən uzaqlaşdırmağa çalışır və bu, çətin ki, uğur qazansın. Pis imicinə görə reytinqi aşağı olan Suren Papikyanı da istəməyənlərdən ibarət böyük ordu var, amma Paşinyan taxta iddialı olmasın deyə onu kölgədə saxlayır. Bu kontekstdə hakim partiya üzvləri istisna etmirlər ki, yaxın vaxtlarda bəzi tanınmış dövlət məmurları, onların əxlaqsız şəxsi həyatları, sui-istifadələri, korrupsioner sövdələşmələri ilə bağlı gözdən salan informasiyalar meydanlara atılacaq".

Erməni siyasi texnoloq Vigen Hakopyan deyib ki, Samvel Karapetyan faktoru, əslində, indi Erməni Apostol Kilsəsi ətrafında baş verən hadisələrlə birlikdə nəzərdən keçirilir. Onun sözlərinə görə, erməni iş adamı Samvel Karapetyanın qısa müsahibəsindəki ifadələrin heç biri hakimiyyətin iddia etdiyi "çağırış" ifadəsinə uyğun gəlmir.

Hakopyan Erməni Apostol Kilsəsi ətrafında baş verənlərlə paralel olaraq Samvel Karapetyan amilini neytrallaşdırmaqla bağlı Ermənistan hakimiyyətinin davranışlarına da toxunaraq qeyd edib ki, Ermənistanın hazırkı hakimiyyəti Samvel Karapetyan və Erməni Apostol Kilsəsinin birliyindən qorxuya düşüb. Qeyd edib ki, bu birlik hakimiyyət üçün çox təhlükəlidir: "Samvel Karapetyan-Erməni Apostol Kilsəsi birliyi hakimiyyət üçün çox təhlükəlidir, çünki iqtidaryönlü çevrədən kənarda böyük bir seqment üçün danılmaz birlikdir".

Hər halda proseslərin gedişi Hayastanı qarşıdakı dövrdə daha çətin günlərin gözlədiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Leysan olacaq, dolu düşəcək, bəzi çaylardan sel keçəcək



İyulun 8-9-da Azərbaycanın əsasən dağlıq və dağətəyi rayonlarında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarından qısamüddətli sel keçəcəyi proqnozlaşdırılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Abşeron Rayon Vəkil Bürosunun kollektivi büronun vəkili Munis Abuzərliyə atası

**MUSEYİB MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3095
Sifariş 1404

Qiyməti 60 qəpik